ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 5 Sayı: 12**

# SCIENTIFIC RESEARCH

**International Scientific Journal**

**Volume: 5 Issue: 12**

**2025**

**Beynəlxalq indekslər / International Indices**

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tedqiqat.1707@aem.az
© info@aem.az
© aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Redaktor**

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

**Redaktor köməkçiləri**

**PhD Almaz BƏDƏLOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0009-0005-0237-8482
doctorant@live.com

**PhD Arzu İSGƏNDƏRZADƏ**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

**PhD Könül ABDULLAYEVA**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

**Tədqiqatçı Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nigar HƏSƏNOVA**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qəmər ALXANOVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**PhD Leyla SƏFƏROVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, ARKTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Səyyarə SADIXOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sarvan HÜSEYNOV**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan

**REDAKSİYA HEYƏTİ**

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Cavid QASIMOV**, Van Yüzüncü İl Universiteti / Türkiyə
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan

**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna

**Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan

**Prof. Dr. Yelena ŞİŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya

**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan

**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə

**Prof. Dr. Sədaqət HƏSƏNOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan

**Prof. Dr. Kamal CAMALOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan

**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan

**Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Nəvai Dövlət Pedaqogika İnstitutu / Özbəkistan

**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV**, Gəncə Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İsmayıl MÜRSƏLOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İradə KƏRİMOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elmar XƏLİLOV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan

**Assoc. Prof. Dr. Taleh CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya

**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA**, Qarabağ Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Yeganə MUSTAFAYEVA**, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası / Azərbaycan

**Assoc. Prof. Dr. Günay MƏMMƏDOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan

**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Şəkər ORUCOVA**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**PhD İvan PAVLİİ**, Dallas Beynəlxalq Universiteti / ABŞ

**PhD Günel ƏLİYEVA-MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**PhD Tomas SMEDLEY**, Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

**PhD Qəmər İSAYEVA**, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası / Azərbaycan

**PhD İlahə ŞIXƏLİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

## TƏBİƏT ELMLƏRİ

**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan

**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə

**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya

**Prof. Dr. Mehmet ÜNLÜ**, Mərmərə Universiteti / Türkiyə

**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan

**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ

**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, ARKTN Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV**, ARKTN Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan

**Assoc. Prof. Dr. Sadıq QARAYEV**, ARETN Botanika İnstitutu / Azərbaycan

**Dr. Asif MANAFOV**, ARETN Zoologiya İnstitutu / Azərbaycan

**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan

**Dr. Əfruz NƏSİROVA**, Odlar Yurdu Universiteti / Azərbaycan

**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

**Dr. Afaq ƏLİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ**

**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qalib ŞƏRİFOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aygün SULTANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA**, Gəncə Dövlət Universiteti / Azərbaycan

**TEXNİKA ELMLƏRİ**

**Prof. Dr. Fəxrəddin YUSUBOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Rafiq AĞAMALIYEV**, Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

## Editor

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

## Assistant editors

**PhD Almaz BADALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0009-0005-0237-8482
doctoral@live.com

**PhD Arzu ISGANDARZADEH**, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

**PhD Konul ABDULLAYEVA**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

**Researcher Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

## Language editors

**Prof. Dr. Leyla VAZIROVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Nigar HASANOVA**, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Gamar ALKHANOVA**, Azerbaijan Science Center / Azerbaijan
**PhD Leyla SAFAROVA**, Azerbaijan Science Center / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Haji HASANOV**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yaqut HAJIYEVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Sayyara SADIKHOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sarvan HUSEYNOV**, West Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV**, Azerbaijan Technical University / Azerbaijan

## EDITORIAL BOARD

### HUMANITIES AND SOCIAL SCIENCES

**Prof. Dr. Nargiz AKHUNDOVA**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Javid GASIMOV**, Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan

**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Sadagat HASANOVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Kamal JAMALOV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV**, Karabakh University / Azerbaijan
**Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Navai State Pedagogical Institute / Uzbekistan
**Assoc. Prof. Dr. Urfan HASANOV**, Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ismayil MURSALOV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Elmar KHALILOV**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Taleh JAFAROV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV**, Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA**, Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Yegana MUSTAFAYEVA**, Uzeyir Hajibeyli named of Baku Academy of Music / Azerbaijan
**Assoc. Prof. Dr. Gunay MAMMADOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU**, Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar ORUJOVA**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**PhD Ivan PAVLII**, Dallas International University / USA
**PhD Gunel ALIYEVA-MAMMADOVA**, Baku State University / Azerbaijan
**PhD Thomas SMEDLEY**, Geneva College in Beaver Falls, Pennsylvania / USA
**PhD Gamar ISAYEVA**, Azerbaijan State Academy of Physical Education and Sports/ Azerbaijan
**PhD Ilaha SHIKHALIYEVA**, Baku State University / Azerbaijan

## NATURAL SCIENCES

**Prof. Dr. Rafig CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, MARA Scientific Research Institute of Agriculture / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Shalala ZEYNALOVA**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV**, MARA Scientific Research Institute of Agriculture / Azerbaijan

**Assoc. Prof. Dr. Sadig GARAYEV**, Institute of Botany of MSERA / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA**, Institute of Natural Resources of MSERA / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of MSERA / Azerbaijan
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Dr. Afruz NASIROVA**, Odlar Yurdu University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Afag ALIYEVA**, Nakhchivan State University / Azerbaijan

**MATHEMATICS AND MECHANICS SCIENCES**

**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Galib SHARİFOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV**, Azerbaijan State Maritime Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Aygun SULTANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA**, Ganja State University / Azerbaijan

**TECHNICAL SCIENCES**

**Prof. Dr. Faxraddin YUSUBOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Rafig IBRAHIMOV**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Rafig AGHAMALIYEV**, National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/53/9-14

**Mahir Qəribov**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-8183-5802
mahir_garibov@yahoo.com

## Əhməd Bəy Ağaoğlunun "Sırat-i Müstəqim" qəzetindəki yazılarının ideya xətti və geosiyasi təhlil

### Xülasə

Məqalə XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi düşüncəsinin görkəmli nümayəndəsi Əhməd bəy Ağaoğlunun Osmanlı mətbuatının nüfuzlu orqanı olan "Sırat-ı Müstəqim" qəzetində dərc edilən publisistik fəaliyyətinin ideya məzmununu araşdırır. Araşdırmada Ağaoğlunun yazılarının tematik istiqamətləri, İslam dünyasının vəziyyəti, Osmanlı dövlətinin geosiyasi rolu, Qafqaz müsəlmanlarının durumu, İran tarixi və Avropa dövlətlərinin Şərq siyasətinə dair mülahizələri geniş elmi təhlilə cəlb olunur. Ağaoğlu həm strateji baxışa malik bir publisist, həm də İslam dünyasının modernləşmə zərurətinin qatı müdafiəçisi kimi çıxış edir. Onun yazıları müsəlman dünyasının birliyi, ideoloji rolu, regional güc balansı və maarifçilik kimi məsələlərə dair mühüm fikirlər təqdim edir. Məqalə göstərir ki, Ağaoğlu "Sırat-ı Müstəqim" vasitəsilə yalnız hadisələrin şərhini verməmiş, həm də siyasət, tarix, din və cəmiyyət elmlərinin kəsişməsində müstəqil nəzəri konsepsiya formalaşdırmışdır.

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, Sırat-ı Müstəqim, Osmanlı, islam dünyası, Qafqaz, geosiyasət, publisistika*

**Mahir Garibov**
Baku State University
PhD in History
https://orcid.org/0009-0002-8183-5802
mahir_garibov@yahoo.com

## The Idea and Geopolitical Analysis of Ahmed Bey Agaoglu's Writings in the Newspaper "Sirat-i Mustakim"

### Abstract

This expanded study examines the intellectual and political views of Ahmed bey Agaoglu through his articles published in Sırat-i Mustakim, one of the most influential newspapers of the Ottoman Empire in the early twentieth century. The article provides a comprehensive analysis of Agaoglu's ideas on the Muslim world, Ottoman geopolitics, European imperial rivalry, the socio-political situation in Iran, and the cultural transformation of the Caucasian Muslims. It argues that Agaoglu was not only a publicist but also a thinker who developed a systematic political philosophy by interpreting global power dynamics, Islamic unity, and the necessity of modernization.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The article shows that through "Sırat-i Mustakim", Agaoglu not only provided an interpretation of events, but also formed an independent theoretical concept at the intersection of politics, history, religion, and social sciences.

***Keywords:*** *Ahmed bey Agaoglu, Sırat-i Mustakim, Ottoman Empire, Muslim world, geopolitics, modernization*

## Giriş

Əhməd bəy Ağaoğlu yalnız Azərbaycan mətbuat tarixində deyil, bütövlükdə Türk-İslam intellektual dünyasında önəmli şəxsiyyətlərdən biridir. Onun yaradıcılığı Qafqazdan Osmanlıya, Parisdən Tehrana qədər geniş coğrafiyanı əhatə etmiş, müxtəlif ideoloji mühitlərin sintezindən formalaşmışdır. İslam dünyasının və Osmanlı dövlətinin gələcək vəziyyəti ilə bağlı dəyərli məqalələr yazan Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində Türk millətçiliyinin öncül şəxsiyyətlərindən biri olaraq, bu dönəmdə Osmanlı dövlətinin mətbu orqanlarında xarici siyasət və Güney Qafqazla bağlı əhəmiyyətli yazılar qələmə almışdır. Milli mücadilənin yeni başladığı dövrdə “Sıratı müstəqim” qəzeti 27 avqust 1908-ci ildə İstanbulda nəşrə başlayıb. Əsasən, dini görüşlərin hakim olduğu bu qəzetdə, dövrün aydınlarından olan Mehmed Akif Ersoy kimi tanınmış yazarların da şeirləri yer alıb. 1925-ci ilə qədər nəşrini davam etdirən qəzet “Təkrir-i Sükun Qanunu” ilə fəaliyyətini dayandırır. Bu dönəmdə həftəlik olaraq nəşr edilən qəzetin ümumi olaraq 641 sayı nəşr edilmişdir. 183-cü nömrədən etibarən isə “Sebilürrəşad” adı ilə yayımlanmışdır. “Sırat-ı müstəqim” qəzetinin başlıca siyasəti “Din, Fəlsəfə, Ədəbiyyat, Hüquq və Elmdən danışan həftəlik qəzetdir” olduğundan Ağaoğlunun fikir və düşüncələri ilə üst-üstə düşürdü. Burada, İslamın parlayan işığından narahat olan yarasalar kimi əleyhində yayımlar edənlərə də elmi dəlillərlə qarşı çıxmanın əsl vəzifə olduğu göstərilirdi. Ağaoğlunun “Sırat-ı Müstəqim” qəzetində dərc olunan yazıları, əslində, onun düşüncə sisteminin bütövlüyünü nümayiş etdirir. Burada o, nəinki publisist, həm də siyasi nəzəriyyəçi səviyyəsində çıxış edir. 1910-1912-ci illərdə “Sırat-ı müstəqim” də yayımlanan məqalələrində Əhməd Ağaoğlunun Böyük Güclər, Osmanlı dövləti və İslam dünyası ilə bağlı fikirləri yer alır. “Sırat-ı müstəqim” in yazıçı heyəti “Sebilürrəşad” dönəmində də məcmuədə fəaliyyətlərini davam etdirir. Qəzetə müntəzəm yazılar hazırlayan Əhməd bəy Ağaoğlu, Ömər Rza Doğrul, Said Halim Paşa, S.M.Tevfik, Bergamalı, Əhməd Cevdet, Elmalılı Harndi Yazar, Eşref Edip, Hasan Hikmet, Ali Ekrem Bolayır və digərlərinin adını çəkə bilərik. “1948-ci ildən etibarən dərgi kimi nəşrə başlamış və Latın əlifbası ilə yayımlanmışdır. Nəhayət, 1966-ci ildə nəşri dayandırılmışdır” (Mertoğlu, 2008).

**Tədqiqat**

*“Sırat-ı Müstəqim” qəzetinin ideoloji xətti və Ağaoğlunun mətbuatdakı mövqeyi.* Ağaoğlunun Çar Rusiyası dövründə yazdığı məqalələrdə və yayımladığı qəzet, dərgilərdə ana xətt kimi “Çar Rusiyasındakı müəlmanların birləşməsi” ideyası əsasdır. Bu fəaliyyətləri nəticəsində Çar Rusiyasının təqiblərinə məruz qalan Əhməd bəy İstanbula gedərək, o dövrün mühüm İslamçı orqanlarından olan Əhməd Hilmi Şəhbəndərzadənin “Hikmət” qəzeti və Əşrəf Ədibin “Sırat-ı müstəqim” qəzetində Türkçülük və İslamı özündə ehtiva edən Türk milliyyətçiliyi, eyni zamanda mövcud durum və gələcəklə bağlı fikirlərini yazır. Əhməd bəy Ağaoğlunun imzası ilə 1910-cu ildə “Sırat-ı müstəqim” qəzetində beynəlxalq siyasət və İslam dünyasının vəziyyətini dəyərləndirən silsilə məqalələr yayımlandığı görülməkdədir.

*Qəzetin yaranması və intellektual missiyası.* Əşrəf Ədib bəy qəzetin nəşrə başladığı ilk dövrü belə xatırlayır: “İlk çıxdığı günlərin həyəcanını unuda bilmirəm. İllərdir həsrətində olduğumuz hürriyyət günəşi doğan kimi mətbəələrə qaçdıq. “Sırat-ı müstəqim” adı ilə ilk nüsxəmiz çıxan kimi Babıali alt-üst oldu. “Sırat-ı müstəqim” avazı küçələrə yayıldı. 24 saat keçmədi ki, on minlərlə nüsxə bir anda yoxa çıxdı. Yenə nəşr etdik, yenə qurtardı. Məmləkətin dörd bir yanından teleqraflar gəlməyə başladı. Mətbəələr gecə-gündüz çalışsalar da, artıq çatdıra bilmirdilər. Qısa zamanda bütün məmləkət “Sırat-ı müstəqim”lə dolub daşdı. Böyük alimlərin, qüdrətli söz ustalarının əsərləri, dəyərli şeirləriylə “Sırat-ı müstəqim” ən birinci məcmuə statusu qazandı” (Düzdağ, 2012).

1908-ci ildə nəşrə başlayan "Sırat-ı Müstəqim" II Məşrutiyyət dövrünün ən nüfuzlu intellektual tribunalarından biri idi. Onun əsas ideoloji xətti aşağıdakı istiqamətləri ehtiva edirdi: *İslami dəyərlərin qorunması, Milli kimlik və dil məsələləri,Qərb mədəniyyətinin tənqidi və seçməli qəbulu,Şərq cəmiyyətlərinin modernləşməsi,Osmanlıçılıq-islamçılıq-türkçülük xəttinin sintezi.* Belə bir mühitdə Ağaoğlunun fikirləri geniş oxucu kütləsinə xitab edirdi.

*Ağaoğlunun qəzetdəki publisistik fəallığı.* 1910-1912-ci illərdə onun 50-dən çox geniş analitik məqaləsi dərc olunmuşdur. Bu yazılar yalnız gündəlik hadisələrin şərhi deyildi, həm də: siyasi nəzəriyyə, sosiologiya, tarix fəlsəfəsi, geosiyasət baxımından dərin mülahizələr təqdim edirdi. Bu yazılara: "Aləmi-İslam və Siyasiyyəti-Ümumiyyə: Bizim izləyəcəyimiz Məslək", "Siyasiyyət: Bulqarların Müddeayatı", "Türkiyədə mühacirət məsələsi", "İranın mazisinə və halına bir nəzər", "Vəziyyəti-Siyasiyyəyi-Hazıramız", "Darülxilafədə Maarifi-ibtidaiyyənin vəziyyəti və surəti-islahı" və başqalarını nümunə göstərə bilərik. Bunların arasında ilk məqalə "Aləmi-İslam və Siyasiyyəti-Ümumiyyə" başlığı ilə 21 iyul 1910-cu ildə, ikincisi isə 28 iyulda "Aləmi-İslam və Siyasiyyəti-Ümumiyyə: Bizim İzləyəcəyimiz Məslək" adı ilə yayımlanmışdır. Birinci məqalədə 1910-cu ildə Avropadakı dövlətlərin siyasi və ekonomik durumları qitə siyasəti çərçivəsində bir-birlərinə münasibətdə ortaq və fərqli cəhətlər analiz edilərək araşdırılmış, ikincidə isə İslam dünyasının beynəlxalq siyasətdəki yeri və problemləri şərh edilmişdir.

*İslam dünyasının böhranı və Ağaoğlunun siyasi görüşləri.* I Dünya müharibəsində Osmanlı dövlətinin, daha geniş planda isə İslam coğrafiyasının aqibətini düşünən bir çox aydınlarımız kimi Əhməd bəy Ağaoğlu üçün də aləmi-islamın dövrün beynəlxalq siyasətinin diqqət mərkəzində olduğu bir həqiqətdir: "Bu gün beynəlxalq müstəvidə cərəyan edən siyasəti-ümumiyyənin qarışıqlığı nəzərə alınarsa, bu problemin yeganə səbəbinin aləmi-islam olduğu asanlıqla anlaşılır" (Ağaoğlu, 1910).

Ağaoğlu İslam dünyasının zəifləməsini üç əsas faktorla izah edir: 1) Maarif və elmin zəifliyi, 2) İctimai-siyasi parçalanma, 3) Avropa müstəmləkəçiliyinin təzyiqi.

Əxlaqi-sosial tənəzzülün səbəblərini Ağaoğlu aşağıdakı amillərdə görür: əxlaq, savad, iqtisadi potensial, özünüdərk, milli birlik. Bunlardan hər hansı biri zəifdirsə, cəmiyyət asanlıqla xarici təsirin obyektinə çevrilir. Avropa dövlətlərinin strategiyasına diqqət yetirdikdə isə Ağaoğlu Avropa dövlətlərinin Şərq siyasətini belə xarakterizə edir: Birinci mərhələ: ticarət və missionerlik, İkinci mərhələ: maliyyə və borc mexanizmləri, Üçüncü mərhələ: müstəmləkəçilik və siyasi nəzarət. Ona görə bu prosesin mərkəzi xətti İslam coğrafiyasına yönəlmişdir.

*İran və Qafqaz bölgəsi: Ağaoğlunun regional baxışları.* Ağaoğlu məzhəb parçalanmasının İran cəmiyyətində yaratdığı nəticələri geniş təhlil edir. Qəzetdəki İran tarixi ilə bağlı yazıların çoxunun müəllifi Əhməd bəy Ağaoğludur. Bu yazılarda İranın ən qədim tarixindən Məşrutiyyə inqilabına qədər olan dövr bəzən təfərrüatı ilə, bəzən də səthi şəkildə qələmə alınmışdır (Çakır, 2017). İslam dünyasının böyük bir qisminin müstəmləkə əsarətində olduğu və müsəlmanların toplum olaraq problemlərlə üzləşdiyi dövrdə bir qurtuluş ideologiyası kimi ortaya çıxan İslamçılıq əhalinin mümkün qədər geniş təbəqəsinə təsir etmə və onların bu məsələdə səfərbər edilməsinin vacibliyini irəli sürürdü.

*Məşrutə inqilabı.* Ağaoğlunun fikrincə, İran Məşrutə hərəkatı Şərq üçün tarixi dönüş nöqtəsidir: xalqın siyasi həyata daxil olması, tiraniyaya qarşı intellektual müqavimət, hüquqi dövlət ideyasının yaranması. Ağaoğlu bu hadisəni Osmanlı Məşrutiyyəti ilə paralel təhlil edərək Şərq cəmiyyətlərinin modernləşmə potensialını vurğulayır. Üstəlik, məşrutiyyəni öz istəyi ilə elan etmiş olan Müzəffərəddin şah da fiziki cəhətdən zəif olduğundan iki il sonra vəfat etmişdir. Bundan sonra İranın başına yeni fəlakətlər gəlməyə başladı" (Çakır, 2017).

*Qafqaz müsəlmanlarının durumu.* Ağaoğlu rus imperiyasının Qafqaz siyasətini sərt tənqid edir: milli şüurun boğulması, təhsil müəssisələrinin ruslaşdırılması, iqtisadi resursların mərkəzə daşınması, dini azadlıqların məhdudlaşdırılması. Onun fikrincə, Qafqazdakı müsəlmanların gələcəyi maarifçilik + milli birlik + siyasi modernləşmə triadasının həyata keçirilməsindən asılıdır.

*Osmanlı Dövlətinin geosiyasi mövqeyi və dünya siyasətində rolu.* Osmanlının beynəlxalq güc balansındakı roluna diqqət yetirdikdə Ağaoğluna görə Osmanlı: İslam dünyasının yeganə siyasi

dayağı, Şərqi Avropa-Balkanlar-Yaxın Şərq üçbucağının mərkəzi gücü, Avropanın təhlükəsizlik memarlığında əsas faktor, Asiya-Afrika xəttində "kilid imperiya"dır. Ona görə Osmanlının zəifləməsi bütövlükdə İslam dünyasının süqutu deməkdir. Əhməd bəy Ağaoğlu böyük dövlətlərin xarici siyasəti ilə bağlı irəli sürdüyü analizlərdə geosiyasi baxımdan hələ bölüşdürülməyən və gələcəyi şübhə altında olan bölgəyə diqqətini yönəldir. Osmanlı dövlətinin sərhədləri də daxil olmaqla Yaxın Şərq coğrafiyasına işarət edən Əhməd bəy, Əfqanıstandan Trablisa bir xətt çəkir ki, bura öz deyimi ilə *"bu gün siyasətin məşğul olduğu yeganə iş*" dir. Müsəlmanların daha çox yaşadığı bu bölgə Ağaoğlu tərəfindən "Aləmi-islam" olaraq tanıdılan coğrafiyadır. Bu torpaqlar *"Nəsrəddin Hocanın yorğanı kimi*" avropalılar arasında o yan-bu yana dartışdırılır (Ağaoğlu, 1912, s. 346).

*İngiltərə-Almaniya rəqabəti.* Avropada 19-cu əsr boyu qitəyə məxsus siyasi məsələlərin həlli üçün mübarizə olduğunu və nəticə etibarilə Almaniyanın yaranması ilə sona çatdığını yazan Əhməd bəy Ağaoğlu məhz 1871-1910-cu illərdə Avropa qitəsinin daxili rahatlığını buna sübut olaraq əsaslandırır: *"Almaniya İmperiyası təşəkkül etdikdən sonra, yəni 40 illik uzun bir zaman döngüsündə Avropanın az öncə söylənilən dairələrində heç bir müharibə zühur etməmişdir. Bu qitənin tarixini bilənlər keçmişdə buna bənzər halın qətiyyən olmadığını yəqin bilir".* Belə ki, *"Bu gün belə nəfsi-Avropaya aid haqqında danışılan və hər hansısa müharibəyə səbəb olacaq qədər mühüm bir məsələ"* görünməməkdədir. Qitə daxilində nəzərə çarpacaq dərəcədə siyasi bir sülh şəraiti yaradan Avropa dövlətləri qitə xaricində əksi mövqe sərgiləyərək bir-birinə rəqabət bəslədiklərini yazan Ağaoğlu bunun köklərini sənayiləşmə dövründə axtarmağın gərəkliliyini vurğulayır. Kökləri etibariylə mədəniyyətinin əsası *"sırf maddiyyatdan ibarət"* olan Avropa millətləri *"maddi ehtiyaclara məruz olduqlarından ticarət, sənayə və iqtisadi zəruriyyətin tələbləri ilə başqa yerlərdə özlərinə müstəmləkələr axtarmağa məcbur idilər".* Mövcud vəziyyət bunu tələb etdiyindən, Avropanın 19-cu əsrdən miras qalan sənayiləşməyə bağlı xam maddə və bazar arayışı cəhdləri xüsusən xarici siyasətdə *"Avropa dövlətləri arasında müstəmləkə məsələsi böyük bir rəqabətə və siyasi düşmənçiliyə"* qapı açmışdır. Bu baxımdan İngiltərənin hal-hazırda rəqabətdə digərlərinə nisbətən daha çox qənimət qazandığını ifadə edən Ağaoğlu almanlar da başda olmaqla rəqabətdə geridə qalan digər böyük dövlətlərin hələ müstəmləkəyə çevrilməyən müxtəlif coğrafiyaları *"tutmağa, yaxud başqasının əlindən qapmağa"* çalışdıqlarından yazır (Ağaoğlu, 1915, s. 346). Ağaoğlu bu iki gücü belə təhlil edir: İngiltərə Hindistan yolunun təhlükəsizliyini prioritet sayır, Osmanlının zəifləməsində maraqlıdır. Aralıq dənizinə nəzarət istəyir. Almaniya isə Osmanlını iqtisadi-sənaye əməkdaşlığı üçün vacib görür. Osmanlının güclənməsini dəstəkləyir. Berlin-Bağdad xəttini strateji layihə hesab edir. Bu təhlil Ağaoğlunun geosiyasi düşüncəsinin dərinliyini göstərir. Ağaoğlu I Dünya müharibəsindən əvvəl Avropada böyük dövlətlər arasında meydana gələn qütbləşmənin də təməlində "Aləmi-islam mərkəzli" coğrafi rəqabət olduğuna inanır. Ağaoğlunun sözlərinə görə, İngiltərə "həyati baxımdan" Osmanlıdan asılıdır. Almaniya üçün Osmanlının dostluğu və varlığı bu ölkənin Şərq dünyasında həyata keçirdiyi iqtisadi məqsədlərin reallaşması baxımından əhəmiyyətlidir. Bu baxımdan, Ağaoğlu Osmanlı dövlət adamlarının və diplomatlarının *"mövcud vəziyyətin ağırlığını unutmadan"* qeyd olunan geosiyasi üstünlüklərdən tam yararlanmaq üçün ayıq-sayıq olmalı olduğunu da vurğulayır (Ağaoğlu, 1912, s. 347). Müttəfiq güclər adı verilən bu qrupun mehz belə yarandığını deyən Ağaoğlu qarşı cəbhənin də bu prinsiplə- eyni coğrafi rəqabətdən yarandığını iddia edir.

*Ağaoğlunun İslam dünyası üçün görüşləri:* Bu əsasən, milli birlik, modernləşmə və maarifçilik düşüncəsi əsasında olmuşdur. Ağaoğlu milli birliyi, yalnız dini deyil, həm də siyasi-mənəvi institut kimi qiymətləndirir. Onun fikrincə: Vəhdətin, milli birliyin zəifləməsi İslam dünyasının parçalanmasına səbəb olur. Ağaoğlu 1911-ci ildə "Türk Yurdu" dərgisinə yazdığı "Türk aləmi" adlı məqaləsində yazırdı: "Türk qədər təməssülə (assimilyasiyaya) şəraiti mühitiyyəyə meyil etməyə yaxın bir millət yoxdur. Türk mühitinin əsiridir, o qədər ki özünü, öz şərəfili qövmiyyəsini, heysiyyəti-tarixiyyəsini, ədəbiyyatını, dilini və hətta milli ənənələrini belə unutmağa hazırdır. Bu həqiqəti tariximizin bütün səhifələri isbat edir (Ələkbərli, 2021, s. 82).

Ağaoğlu Trablis və Balkan müharibələri öncəsində geosiyasi və strateji analizlərlə bərabər Avropa mətbuatından və dövlət xadimlərinin çıxışlarından da istifadə etmiş, beynəlxalq siyasətin gündəminin Misir, Krit və İran kimi regional problemlərlə dolu olmasını əsas götürərək məsələnin İslam dünyası olduğu iddiasını bir daha dəstəkləyir: *"Burada İslamın yorğanından başqa bir məsələ yoxdur! Cümlə-cahanın nəzəri İslam dünyasındadır! Hamının ortaq məqsədi İslam dünyasına hücum edib bu sahibsiz mülkə şərik olmaqdır"*. Vəziyyət belə olduğu halda, İslam dünyasının bu durum qarşısında nə etdiyini soruşmaq lazım olduğunu söyləyən Ağaoğlu "təəssüflə, lakin tərəddüd etmədən" İslam dünyasının ətrafında qopmaqda olan qiyamətdən xəbərsiz olduğunu düşünür. Buna baxmayaraq ümidsizliyə qapılmamanın vacib olduğunu deyən Ağaoğlu, ən mühüm güc mənbəyi, Avropalıların uğrunda rəqabət apardığı *"Şərqin kilidinin və açarının Osmanlıların əlində olmasıdır"* deyə bildirir (Ağaoğlu, 1910S, s. 347).

Ağaoğlunun Şərqin açarının Osmanlının əlində olmasına verdiyi böyük geosiyasi əhəmiyyət 1912-ci ildə beynəlxalq siyasətlə bağlı şərhlərində özünü bir daha göstərir. Ağaoğlu təhlillərinin birində İngiltərə-Alman münaqişəsi baş verərsə, bunun *"Osmanlıların əleyhinə və ya lehinə olacağı"* sualına cavab verərək, bir çoxlarından fərqli olaraq Osmanlının lehinə bitmə ehtimalının olduğunu söyləyib: *"Bizim taleyimiz nə İngiltərə, nə də Almaniyadan asılı deyil"* sözləriylə Osmanlı dövlətinin mövcudluğunun hər iki böyük dövlət üçün vacib olduğunu vurğulayır. Çünki Osmanlılar cənub və cənub-qərb istiqamətində Hindistana doğru yürüş edən ruslara qarşı sədd təşkil etdikləri üçün ingilislərin təhlükəsizlik məntəqəsi rolunu daşıyırdı. Ağaoğlu Türk-İslam mühitinin yeniləşməsi üçün yalnız tənqid etmir, eyni zamanda onun həlli yollarını göstərirdi. O, qeyd edirdi ki, müsəlmanların qurtulması, onların maddi, mənəvi hətta siyasi yüksəlişi, yalnız iki məsələnin həllinə bağlıdır: Qadın azadlığı, əlifba islahatı (Süleymanlı, 2008). Maarifçiliyin başlıca rolunu xüsusi qeyd edən Ağaoğlu, təhsili "millətin alın yazısı" adlandırır. O, üç pilləli maarif modelini müdafiə edir: 1) Əsas savadlanma- ümumi şüurun yüksəlməsi; 2) Milli mədəniyyət- kimlik və dilin qorunması; 3) Texniki və ali təhsil- iqtisadi modernləşmə.

Ağaoğlu cəmiyyətin sosial dəyişikliklərini isə aşağıdakı ardıcıllıqla təsvir edir: ailə institutunun möhkəmlənməsi, qadınların cəmiyyətə daxil olması, iqtisadi fəaliyyətin şaxələnməsi, demokratik idarəetmə. Bu ideyalar onun Qərb təhsili ilə Şərq reallıqlarını birləşdirməsinin nəticəsidir. İslam dünyasının əhəmiyyətli bir hissəsinin Müttəfiq dövlətlər tərəfindən idarə olunduğunu və ya təsir zonası olaraq paylaşdırıldığını ifadə edən Ağaoğlu İslam ərazisinin hələ nəzarət altına alınmadığı bölgələrində mübarizənin davam etdiyini bildirir. "Bu iki qrupdan İslam dünyasına ən yaxın olanı İttifaqi-Müsəlləsdir, çünki İslam dünyasının ən böyük hissəsi onların nəzarəti altındadır. Bu iki heyetden alemi İslam ilə ən sıx, ən dərin əlaqədar olan köklü aləm ilə daimi bir təmas yaradan İxtilaf-i müsəlləs ərkanıdır; zira aləm-i İslamın qismi tamamı bunların doğrudan-doğruya taxt-ı təsarruflarında və yaxud daireyi nüfuzlarındadır!" deyən Ağaoğlu bu iddiasına sübut olaraq ilk məqaləsində Əfqanıstandan Şimali Afrikaya qədər baş verən son hadisələri göstərir. Buna uyğun olaraq Xivə, Buxara və İranda Rusiyanın nəzarəti; İngiltərə İran, Əfqanıstan, Ərəbistan və Misirdə; Fransanın Mərakeş, Tunis və Tripolidəki hərəkətlərinə xüsusi diqqət yetirir" (Bilgenoğlu, 2021, s. 716). Görünən odur ki, Əhməd Ağaoğlu yuxarıda qeyd olunan Müttəfiq dövlətlərin geosiyasi mövqelərinə qarşı rəqib blok olan Mərkəzi Güclərin perspektivləri və alternativ planlarına diqqəti yönəltmək fikrini irəli sürür. *"Bu İttifaqi-Müsəlləs böyük sürətlə və şövqlə İslam dünyasına doğru tələsməkdədir!"* sözləriylə İslam dünyası üçün Müttəfiq dövlətlərlə mərkəzi güclər arasında heç bir fərq olmadığını qeyd edən Ağaoğlu məqsədinin "İslam dünyasında uğur qazanmaq və irəli getmək olduğunu" vurğulayır (Garibov, 2024, s. 57). Bu vəziyyətin İslam dünyasının aqibətinin müəyyən edilməsində mühüm rolu oynadığını yazan müəllif yanaşmanı iki blok arasındakı ziddiyyətdən öz maraqlarına uyğun istifadə etmək prinsipi üzərində qurur. *"Bu iki rəqabət arasında o qədər məharətlə davranılmalıdır ki, İslam dünyasına böyük faydası olsun"* deyən Ağaoğlu bu yerdə ilk məqaləsində vurğuladığı bir nüansı yenidən təkrarlayaraq *"İslam dünyasının kilidi osmanlıların əllərindədir"* sözləri ilə onun bütün müsəlman toplumları üzərindəki ciddi mövqeyinə işarə edir.

## Nəticə

Tədqiqatlar göstərir ki, Əhməd bəy Ağaoğlunun "Sırat-ı müstəqim"dəki yazıları yalnız dövrün hadisələrinə reaksiya deyil, həm də sistematik siyasi-nəzəri fikirlərdir. Onun yazıları: geosiyasi analitik gücü, modernləşmə proqramı, milli-mədəni konsepsiyası və İslam dünyasının birliyi ideyası ilə seçilir. Ağaoğlunun fikirləri həm tarixi, həm mədəni, həm də jurnalistikamız üçün bu gün də aktual dəyərə malikdir. Yazılarında birlik və həmrəyliyə daha çox önəm verən Ağaoğlu Birinci Dünya Müharibəsi illərində *"Bu müqəddəs və ülvi mübarizəyə heç bir xüsusi fikir qarışa bilməz, heç kim şəxsi iftixar hissi ilə burdan özünə pay qopara bilməz"* deyərək milli birliyin təşəkkül tapması üçün *"Mən və ya siz kim olmağımızdan asılı olmayaraq, ortaq və müqəddəs amallar uğrunda mübarizə apararkən əl-ələ, ürəkdən birləşərək mənəvi birliyimizi dünyaya çatdıraq!"* çağırışı edir. Ağaoğlu "Sırat-ı Mustakim"də dərc olunan məqalələrində təmsil etdiyi xalqı, eyni zamanda müsəlman türk millətinin birliyini bütün varlığı ilə müdafiə etmişdir.

## Ədəbiyyat

1. Ağaoğlu, A. (21 iyul 1910). Âlem-i İslâm ve Siyâsiyyât-ı Umûmiyye. *Sırât-ı Müstâkîm.*
2. Ağaoğlu, A. (28 iyul 1910S)."Âlem-i İslâm ve Siyâsiyyât-ı Umûmiyye- Bizim İzleyeceğimiz Meslek". *Sırât-ı Müstâkîm.*
3. Ağaoğlu, A. (1912). Âlem-i İslâm ve İngiltere-Almanya. *Sırât-ı Müstâkîm.*
4. Ağaoğlu, A. (1912). Vahîm Günler. *Sırât-ı Müstâkîm.*
5. Ağaoğlu, A. (1915). Vahdet-i İslâmiyye. *Sırât-ı Müstâkîm.*
6. Bilgenoğlu, A. (2021). Ahmet Ağaoğlu'na göre Birinci Dünya Savaşı öncesinde uluslararası siyaset, Osmanlı Devleti ve İslam dünyası. *Bilgi Dergisi.*
7. Çakır, İ. (2022). Sırat-ı Müstakim mecmuasındaki İrana ilişkin yazıların değerlendirilmesi. *Türkiye-İran Araştırmaları Dergisi.*
8. Düzdağ, E. (2012). Meşrutiyyet'ten Cumhuriyet'e yakın tarihimizin belgesi. "*Sırat-ı Müstakim" mecmuası.*
9. Ələkbərli, F. (2021). *Azərbaycan Türk Fəlsəfi və İctimai Fikir Tarixi (XIX-XX əsrlər).* Elm.
10. Garibov, E. (2024). Articles of Ahmed Agaoglu in "Sırat-i Mustakim" Newspaper. *KARABAKH IV. International Congress, Proceeding Book*, Baku.
11. Mertoğlu, M. (2008). *Sırat-ı Müstakim Mecmuası.*
12. Süleymanlı, M. (2008). *"Əhməd Ağaoğlunun "İslama görə və İslamiyyətdə qadın"*. Şərq-Qərb.

Daxil oldu: 08.09.2025
Qəbul edildi: 10.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/15-24

**Rüfət Göyüşov**
Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, "De Fendo" Vəkil Bürosu
hüquq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-1688-2996
rufat.goyushov@gmail.com

# Kredit riskinin azaldılması arxitekturası: Müqavilə şərtləri və təminat üsulları müqayisəli və milli hüquqda maliyyə öhdəliklərinin icrasının ikiqat mexanizmləri

**Xülasə**

Maliyyə sisteminin fundamental sabitliyi kredit öhdəliklərinin məcburi icrasının hüquqi mexanizmlərinin proqnozlaşdırılması və etibarlılığından asılıdır. Bu tədqiqat, kredit riskinin idarə edilməsi arxitekturasının hərtərəfli təhlilini təklif edir, iki əsas, qarşılıqlı əlaqəli sütuna diqqət yetirir: risklərin proaktiv bölüşdürülməsi vasitəsi kimi çıxış edən detallı müqavilə şərtləri (3.1) və struktur müdafiə təmin edən əşya təminatı üsulları (3.2). İşdə, mülkiyyət hüquqlarının mülki (kontinental) hüquq və ümumi hüquq sistemləri arasında hüquqi fərqləndirilməsindəki tarixi fərqlərin, təminatın effektivliyinə necə təsir etdiyini qiymətləndirmək üçün transaksiya xərcləri nəzəriyyəsinə əsaslanan müqayisəli hüquqi yanaşma tətbiq edilir. Mülki hüquq tarixi olaraq tam mülkiyyət (dominion) konsepsiyasını üstün tutmasına, ümumi hüquq sistemi isə hüquqların parçalanmasına (estate system) meyilli olmasına baxmayaraq, hər iki sistem kreditorlar üçün transaksiya xərclərini azaltmağa yönəlməklə funksional baxımdan yaxınlaşma nümayiş etdirir. Müəyyən edilmişdir ki, müqavilə şərtlərinin (o cümlədən vaxtından əvvəl ödəmə üçün cərimələr, yəni *Dəbbə Pulu*) sərtliyi və cərimə xarakteri, girovun *in rem* rejiminin həyata keçirilməsinin qəbul edilən zəifliyi və qeyri-şəffaflığı ilə tez-tez tərs mütənasibdir. Məcburi icra ilə bağlı yüksək xərclər və borclunun aktivlərinin qeyri-şəffaflığı ilə əlaqəli hüquq sistemlərinin qüsurları kreditorları gücləndirilmiş müqaviləyə və məhdudlaşdırıcı amillərə güvənməyə məcbur edir. Tədqiqat, həmçinin icra sürətini artırmaq və beynəlxalq standartlarla uyğunlaşdırmaq məqsədi daşıyan mülki hüquq yurisdiksiyalarında milli qanunvericilik islahatlarının təhlilini də əhatə edir, istehlakçıların müdafiəsi və bank likvidliyinin qorunması arasında tarazlığın zəruriliyini vurğulayır.

***Açar sözlər:*** *kredit riski, müqavilə şərtləri, əşya təminatı, müqayisəli hüquq, mülki (kontinental) hüquq, ümumi hüquq, icra mexanizmləri, istehlakçı müdafiəsi*

**Rufat Goyushov**
"De Fendo" Law Office, Bar Association of the Republic of Azerbaijan
PhD in Law
https://orcid.org/0009-0009-1688-2996
rufat.goyushov@gmail.com

# Architecture for Reducing Credit Risk: Contract Terms and Security Methods as Dual Mechanisms for the Enforcement of Financial Obligations in Comparative and National Law

**Abstract**

The fundamental stability of the financial system depends on the predictability and reliability of the legal mechanisms for the compulsory enforcement of credit obligations. This study offers a comprehensive analysis of the architecture for credit risk management, focusing on two main, interrelated pillars: detailed contract terms (3.1), which act as a means of proactive risk allocation,

and property security methods (3.2), which provide structural protection. The work applies a comparative legal approach based on transaction cost theory to assess how historical distinctions in the legal differentiation of property rights between civil law and common law systems impact the effectiveness of security. Although civil law has historically favoured the concept of full ownership (dominion) and common law has tended toward the fragmentation of rights (estate system), both systems demonstrate a functional convergence by seeking to reduce transaction costs for creditors. It has been established that the rigidity and punitive character of contract terms (including prepayment penalties) are often inversely proportional to the perceived weakness and lack of transparency in the implementation of the in rem regime of collateral. High enforcement costs and deficiencies in legal systems associated with the opacity of the debtor's assets compel creditors to rely on strengthened contracts and restrictive factors. The research also covers national legislative reforms in civil law jurisdictions aimed at increasing enforcement speed and aligning with international standards, emphasizing the necessity of balancing consumer protection with the safeguarding of bank liquidity.

***Keywords:*** *credit risk, contract terms, security interests, comparative law, civil law, common law, enforcement mechanisms*

## Giriş

*Hüquqi müəyyənlik və icra imperative, tədqiqat probleminin tərifi və əsaslandırılması:* Qloballaşma və kapitalın sərbəst hərəkəti şəraitində maliyyə sistemi müxtəlif ölkələrdən və hüquq sistemlərindən olan bazar iştirakçılarını bir-birinə bağlayan, hüquqi cəhətdən məcburi maliyyə öhdəliklərinə əsaslanır. Maliyyə institutlarının əsas borcun və faizlərin ödənilməsi öhdəliklərini effektiv şəkildə strukturlaşdıran, eyni zamanda tənzimləmə xərclərini və riskləri minimuma endirən alətlər yaratmaq qabiliyyəti müasir maliyyə sektorunun inkişafının müəyyənedici amilidir. Kredit müqavilələri sadə istiqrazlardan və kreditlərdən tutmuş mürəkkəb törəmə maliyyə alətlərinə və aktivlərlə təmin edilmiş qiymətli kağızlara qədər geniş spektrli alətləri əhatə edir. Bu sistemin uğuru və sabitliyi birbaşa hüququn müqavilələri tanımaq və onların məcburi gücünün sərhədlərini müəyyənləşdirmək qabiliyyətindən asılıdır. Nəzəri baxımdan, müqavilələrin qüsurlu icrası, kreditorların daşımaq məcburiyyətində qaldığı əlavə, əhəmiyyətli xərc kimi qəbul edilir, xüsusən də zəif hüquq sistemləri olan yurisdiksiyalarda borcalanlarla qarşılıqlı əlaqədə olduqda. Bu xərc nəinki kreditin qiymətinə təsir edir, həm də maliyyə sisteminə olan etimadı sarsıdır. Beləliklə, hazırkı tədqiqat hüquqi müəyyənliyin iki növ mexanizmin inteqrasiyası yolu ilə necə əldə edildiyini öyrənməyin zəruriliyini əsaslandırır: müqavilə tənzimlənməsi (kredit sazişinin mətnində təsbit edilmiş alətlər) və icranın təminatı (əşya hüququnda təsbit edilmiş hüquqlar).

*Əsas nəzəri konsepsiyalara baxış.* Müqayisəli mülkiyyət hüququ göstərir ki, mülki hüquq bütöv mülkiyyətə (*dominion*) fokuslandığı halda, ümumi hüquq "əmlak" sistemi və hüquqların parçalanması ilə işləsə də, hər iki sistem transaksiya xərclərini minimuma endirməklə istifadə maraqlarını qorumağa çalışdığı üçün funksional cəhətdən oxşardı. Əgər transaksiya xərcləri sıfır olsaydı, "tam" mülkiyyət sisteminə nail olmaq mümkün olardı, lakin praktikada hüquq sistemləri müdafiə məqsədinə çatmaq üçün "etiketlər" və ya istisna strategiyaları ilə xarakterizə olunan strukturlardan istifadə edir.

Mülkiyyət arxitekturası, mənşəyindən asılı olmayaraq, qaçılmaz olaraq kreditləşmə üçün vacib olan əsas xüsusiyyətləri yaradır: istisna hüquqları, *in rem* statusu və hüquqların varislərə keçməsi. Fərqlər son nəticədə (effektiv müdafiə) deyil, tarixi yoldan asılılığın əksi olan hüquqların *fərqləndirilmə tərzindədir*. Ümumi hüquqda bu, feodal parçalanmadan, mülki hüquqda isə Roma ilhamlı bütöv mülkiyyətdən asılılıqdır. Bu fundamental struktur fərqini başa düşmək, təminat mexanizmlərinin təhlili üçün həyati əhəmiyyət kəsb edir.

Burada "mülkiyyət arxitekturası"nın kreditləşmə mexanizmlərindəki rolu və hüquq sistemləri arasındakı fundamental fərqlərə diqqət yönəltmək lazımdır. Əsas vurğulanası məqam odur ki, istər mülki (kontinental) hüquq, istərsə də ümumi hüquq sistemlərində mülkiyyətin strukturlaşdırılması kredit prosesinin təməlini təşkil edən üç əsas xüsusiyyəti formalaşdırır: istisna hüquqları (yəni,

mülkiyyət sahibinin başqalarının müdaxiləsini hüquqla əngəlləmək imkanı), in rem statusu (mülkiyyətin bütün dünyaya qarşı müdafiə oluna bilən hüquq olması) və hüquqların varislərə keçməsi (mülkiyyətin nəsildən-nəslə ötürülməsi).

Bu xüsusiyyətlər hər iki hüquq sistemində mövcud olsa da, onların yaranma və fərqləndirilmə üsulu fərqlidir. Ümumi hüquq (common law) sistemində mülkiyyət hüququ feodal dövrdən gələn "parçalanmış" struktura – yəni, müxtəlif hüquqların ayrılıqda və ya birlikdə bir əmlak üzərində mövcud olmasına əsaslanır. Mülki hüquq (civil law) isə Roma hüququndan qaynaqlanan "bütöv mülkiyyət" konsepsiyasına – yəni, bir şəxsin əmlak üzərində tam və bölünməz hüquqa sahib olmasına üstünlük verir. Bu fərqlər, hüquq sistemlərinin tarixi inkişaf yolundan asılı olaraq formalaşıb və bu günə qədər kreditləşmə prosesində təminat mexanizmlərinin qurulmasında mühüm rol oynayır.

Təhlil baxımından, bu struktur fərqlər, kreditorların risklərinin idarə edilməsi və təminatın effektivliyi üçün vacibdir. Məsələn, ümumi hüquqda bir əmlak üzərində birdən çox "estate" və ya hüquq növü mövcud ola bilər, bu isə təminatın (girovun) hüquqi statusunu və icra imkanlarını təsir edə bilər. Kontinental hüquqda isə, mülkiyyət daha vahid olduğu üçün, təminatın icrası və hüquqların müdafiəsi daha sadə və şəffaf ola bilər. Lakin hər iki sistemin məqsədi kreditorun hüquqlarını qorumaq və kredit riskini azaltmaqdır, sadəcə bu məqsədə çatmaq üçün fərqli hüquqi yollar və mexanizmlər istifadə olunur. Hüquq və maliyyənin kəsişməsində dinamik bir problem ortaya çıxır: maliyyə alətləri tez-tez tənzimləmə xərclərini zəiflətmək məqsədi ilə hazırlanır, bu da tənzimləmə arbitrajına kömək edə bilər. Buna görə də, məcburi icra mexanizmlərinin hüquqi konstruksiyası bu dinamikaya müqavimət göstərəcək qədər etibarlı olmalı və maliyyə öhdəliklərinin uzunmüddətli dayanıqlığını təmin etməlidir.

**Tədqiqat**

Giriş hissəsində qeyd etdiyimiz kimi, ərəb ədəbiyyatı özünün inkişaf prosesində bir neçə mərhələdən keçib. Elmi tədqiqat işində hər mərhələni yaradan siyasi amillər və onun məşhur nümayəndələri haqda məlumat veriləcəkdir. Beləliklə, ərəb ədəbiyyatının ilk mərhələsi *İslamaqədər* və ya *Cahiliyə* dövrü adlanır. Bu ad o dövrdə insanların İslamdan bixəbər olduqları üçün verilib, zəmanəsinin insanlarının savadı ilə heç bir əlaqəsi yoxdur (Fil'shtinskii, 1985).

Cahiliyyə ərəb söz sənətinin fundamental dövrü hesab edilir. Yazının olmadığı zamanlarda ədəbiyyat şifahi inkişaf edirdi və şair bu işdə aparıcı rol daşıyırdı. Şairlər kollektiv yaddaşın daşıyıcısı, qəbilənin şərəfini müdafiə edən və onun ənənəsinin nümayəndəsi kimi çıxış edirdi.

Cahiliyyə dövrünün mərkəzi janrı Qəsidə dəyişməz struktura malik idi və bu əsrlər boyu bu cür qalır. Ətlal adlanan bu struktur Nəsib (sevgi), Vəsf (təsvir) və Mədh (qəbiləyə, onun başçısına həsr edilmiş tərif) adlanan janrlardan ibarət idi. İldə bir dəfə keçirilən bazarlarda hər şair öz qəsidəsi ilə çıxış etməli idi və ən çox bəyənilən, münsiflər tərəfindən səs toplayan qəsidə il boyunca Kəbə üzərində qızıl hərflə tikilmiş qara parçanın üzərindən asılı qalırdı. Bu qəbilənin mədəni və güclü olmasının göstəricisi idi. Çünki İslamaqədərki dövrdə Şair Allah tərəfindən qeyri-adi istedada malik biri kimi qiymətləndirilirdi və qəbilədə söz sahibi idi. Yeri gəlmişkən, seçilmiş qəsidələrə *"Müəlləqə"* deyilir və Cahiliyyə dövrü ərəb ədəbiyyatının ən önəmli şeir nümunəsi hesab edilir. "Müəlləqə" ərəb dilində "asılmaq" (alaka) feilindən yaranıb və "asılmış, asılı qalan" kimi tərcümə edilə bilir. Müəlləqə şeirinin ən önəmli müəlliflərindən İmrul Qeys, Əntərə ibn Şəddad, Zuheyr ibn əbi Sulma, Ləbid ibn Rəbia adlarını qeyd edə bilərik. Onlardan Əntərə ibn Şəddad fövqal-təbii gücə və iradəyə malik gənc yazar kimi sonralar ərəb siratlarının qəhrəmanına çevriləcəkdir. Cahiliyyə dövründən danışarkən ərəb tayfalarının adət-ənənəsini, məişətini, qəbilələr arası savaşı və barışı əks etdirən "Əyyamul-ərəb" adlı rəvayətlər toplusunu qeyd etməsək olmaz. "Ərəblərin günləri" kimi tərcümə edilən bu toplu nəzmdən fərqli olaraq qafiyəsiz nəql edildiyindən nəsr nümunəsi kimi yadda qalıb.

Ərəb ədəbiyyatının növbəti mərhələsi *Erkən İslam və Əməvilər* dövrü adlanır (Gibb, 1960; Hanna l-Fəxuri, 1951; Şauki, 1996). Adından da göründüyü kimi, bu dövrdə Məhəmməd peyğəmbərin (s.a.s) həyatı, İslamın yaranması və ərəb ədəbiyyatının Tacı sayılan Qurani-Kərimin nazil olmasına böyük yer verilir. Quranın ədəbi dili klassik ərəb dili nümunəsi hesab edilir (fusxa). Artıq klassik ədəbiyyat şivə və dialektlərdən azad olaraq xütbə (dini ibrətamiz ədəbiyyat) və sıra (tarixi xronikalar) kimi yeni janrlar tanıyır. Əməvilər dövrü ədəbiyyata gəldikdə isə burada daha çox nəzm inkişaf etməyə başlayır: 1.Məhəbbət poeziyası - Üzri və Hadari qəzəl növləri. Məhəbbət poeziyası şairin məxsus olduğu qəbiləyə görə ya ömürlük seçilən ölüm yolu, ya da ki, dərin sevgi hissləri olmasa belə, gözəl qızlara yazılan eşq etirafı idi. 2.Siyasi poeziya - zübeyrilər, şiələr və s. Bu dövr Əməvi xəlifələrindən narazı ünsürlər yaranır və onlar siyasi partiyalarda toplaşmağa başlayırlar. Bunun nəticəsində siyasi poeziya janrı formalaşır. 3.Nəqaid şeiri - iki şair arasında olan deyişmə. Dövrün ən görkəmli şairləri: Cərir, Fərəzdək və Əl-Əxtəl məhz nəqaid şeiri ilə məşhurluq tapıblar. Hər üç şair yaradıcılıqları boyu bir-biriləri ilə həcvləşərək bədahətən şeir qoşma məharətinə malik idilər.

Üçüncü mərhələ: çox böyük tarixi dövrü əhatə edən *Abbasilər* dövrü adlanır. Bu dövrə ərəb ədəbiyyatının Qızıl dövrü də deyirlər. VIII əsrdən başlayaraq Bağdad-Abbasilər xilafətinin paytaxtı - fəlsəfə, tibb, astronomiya və filologiya kimi elmlərin mərkəzi hesab edilməklə yanaşı, burada yunan, fars və hind ədəbiyyatından tərcümələr edilən "Dərul Hikmə" adlanan müdriklik evi yaranır, ictimai həyatda bir çox yeniliklər öz əksini tapır.

Abbasilər dövründə ərəb ədəbiyyatı ictimai-siyasi həyatda olduğu kimi əsaslı şəkildə dəyişməyə başlayır, bir çox yeni janrlar yaranır. Əbu-Nüvar (həmriyyə- şəraba həsr edilmiş ədəbi janr), Bəşşar ibn Burd kimi yenilikçi şairlər novatorluq ideyaları ilə ərəb şeirinin strukturunu dəyişməyə müvəffəq olurlar, Əbu Təmmam və Buhturi kimi yazıçılar klassik ədəbiyyat nümunələrini toplayıb onu kənar təsirlərdən qorumağa çalışırlar, Əl Mütənəbbi, Əbul Əla əl-Maari kimi şairlər isə Abbasilər dövrünün qızıl çağını təşkil edirlər (Əzizov, 2004; Alizade, 1974).

Nəzmlə yanaşı, bu dövrdə nəsr də iri addımlarla inkişaf edərək adını klassik ədəbiyyata yazdıracaq korifeylər yetişdirir. Cahizin müəllifi olduğu "Heyvanlar haqda", "Ritorika elmi haqda" və s. kimi kitabları, İbn əl-Müqəffanın tərcümə etdiyi "Kəlilə və Dimnə", məqamə janrının əsasını qoyan Əl-Həmədani və Əl-Həriri kimi nəsr ustaları ərəb estetikasının klassik normalarını müəyyən etməklə onu yeni mərhələyə ucaldırlar.

Ərəb ədəbiyyatının *Əl-Əndəlüs* dövrü ərəb, yəhudi və İber yarımadasının mədəni elementlərinin unikal kombinasiyasını təşkil edir. 711-ci ildən başlayaraq Ərəblər İber yarımadasına yürüşlər

həyata keçirməyə başlayır və nəticədə, çoxdan gücdən və nüfuzdan düşmüş Vestqotlar monarxiyasının hakimiyyətinə son qoyurlar. Beləliklə, növbəti səkkiz əsrə yaxın bir zamanda bu ərazilərdə müsəlman mədəniyyəti hökm sürməyə başlayır. Bu mədəni sintez nəticəsində Müvəşşəh və Zəcəl adlanan lirik şeir növü yaranır ki, hər ikisi həm ərəb, həm də ispan nəsrinin elementlərini özündə birləşdirirlər (Kudelin, 1973). Bundan başqa, Əndəlüs ədəbiyyatında məhəbbət poeziyası fəlsəfi anlam daşımağa başlayır. Bu dövrün görkəmli müəllifləri arasında İbn Zeydun (şairə Valladaya olan sevgisi ilə), Vallada (qadın azadlığının simvolu kimi), İbn Xəzm ("Göyərçin boyunbağı" adlı əsərin müəllifi), İbn Tüfeyl (gələcəkdə Avropa İntibahına təsir göstərəcək "Həyy ibn Yakzan" fəlsəfi romanı ilə) kimi yazıçıların adlarını qeyd etmək olar.

Ədəbiyyatla yanaşı, Əndəlüsdə Kordova şəhərində tərcümə mərkəzləri mövcud idi ki, məhz onların sayəsində sonralar Avropa bir çox Antik dövr filosoflarının tədqiqatlarını tanımağa başlayır. Əl-Əndəlüsdə güclü musiqi məktəbləri də formalaşır ki, bunun da səbəbi müsəlman əsilli İbn Ziryab adlı musiqiçi olur.

Ərəb ədəbiyyatının *"Durğunluq dövrü"* adlanan mərhələsi XIV-XVIII əsrləri əhatə edir. Orta əsrlər ərəb ədəbiyyatının tənəzzülünün səbəblərini professor Aida İmanquliyeva belə izah edirdi: "Bəziləri tənəzzülü ərəb dünyasının Osmanlı ağalığı altına düşməsi ilə izah edirlər. Bizim fikrimizcə, burada ərəb ədəbiyyatının daim bəhrələndiyi güclü bir resursdan uzaq düşməsi əsas amillərdən sayıla bilər. Tənəzzül dövründə ərəb ədəbiyyatı özünün iki mühüm qolundan aralanır, indiyədək ərəbcə yazan fars və türk şair və ədibləri indi öz dillərində yazıb yaradırlar. Bu səbəbdən də, daim çiçəklənən yerli ədəbiyyatlar ərəb ədəbiyyatını müsəlman dünyasının bir çox yerlərində ikinci plana keçirir (İmanquliyeva, 1975; Imanguliyeva, 1991). Lakin buna baxmayaraq, ərəb ədəbiyyatının tənəzzül dövründə üç böyük ədəbi nailiyyəti qeyd etməsək, insafsızlıq olar:

*Birincisi*, biz ərəb şifahi xalq yaradıcılığının məhz bu dövrdə çiçəkləndiyini nəzərə almalıyıq. Xüsusilə, ərəb xalq dastanları inkişaf edir. Kino, teatr, televizor, radio olmadığı bir dövrdə bu dastanlar həm teatrı, həm kinonu və s. əvəz edirdi.

*İkincisi*, tənəzzül dövründə kompilyativ ədəbiyyat inkişaf edir, müntəxəbatlar, lüğətlər, "tabaqat" adlanan əsərlər çoxalır. Yəni bu dövrdə əvvəlki dövrlərin ədəbi nümunələrini toplamaq sahəsində böyük işlər görülür.

*Üçüncüsü,* isə, bu dövrdə sufi ədəbiyyatı inkişaf edir. Doğrudan da, Sufizm olmasaydı, ərəb ədəbiyyatının və mədəniyyətinin nə qədər itkilər verə biləcəyini sözlə ifadə etmək mümkün olmazdı. Burada həm sufi fəlsəfi düşüncəsinin, həm də mistik yönümlü ədəbiyyatın inkişafı nəzərə alınmalıdır. Məhz "durğunluq" dövrü adlanan o illərdə İbn əl-Ərəbi kimi bir dahi yetişir.

Ümumiyyətlə isə, bu dövrdə hər bir tənəzzül ədəbiyyatına xas cəhətlərin üstünlük təşkil etdiyini ayrıca qeyd etməliyik. Bunlar kəmiyyət göstəricilərinin keyfiyyət göstəricilərini üstələməsidir. Yəni, sayca artım böyük olsa da, ədəbiyyat, xüsusilə poeziya köhnə mövzular ətrafında dövr edib, demək olar ki, yerində sayırdı" (Qasımova, 2002). Bu dövr bir çox tarixi, coğrafi və milli janrların formalaşması ilə zəngindir: İbn Xaldun "Müqəddimə", İbn Batutta "Səyahət", həmçinin, "Min bir gecə" nağılları da daxil olmaqla xalq ədəbiyyatı.

Ərəb ədəbiyyatının önəmli qolu *Sufi ədəbiyyatı* hesab edilir. XII-XIV əsrlərdə yaranıb formalaşan sufi yazıları mistika və poeziyanın unikal vəhdətidir. Sufizmin əsas xüsusiyyəti onun ilahi sevgi ideyasından doğaraq idrakın yoluna çatmaqdır. Sufizmin nümayəndələri arasında ilk olaraq İbn əl-Fəridin adını qeyd etmək olar. Onun əsərləri mistik poeziyanın simvolu kimi qəbul edilir. Daha sonra İbn Arabi və Rumini yaradıcılığı Sufilik ideyalarında əsaslı önəm kəsb edir. Sufi ənənəsi ərəb ədəbiyyatını daxili mənəvi təcrübənin ifadə vasitəsinə çevirir.

*Müasir dövrün* başlanğıcını ifadə edən "Ən Nəhda" hərəkatı Ərəb ədəbiyyatının İntibahını ifadə edərək ərəb cəmiyyətinə yeni şüur, yeni ideya, yeni düşüncə tərzi gətirir. Bu dövrün görkəmli nümayəndələri arasında ərəb ədəbiyyatının tarixi boyunca yeganə Nobel mükafatı almış Nəcib Məhfuz, mühacirət ədəbiyyatının görkəmli nümayəndələri Cübran Xəlil Cübran, Mixail Nüaymə, tarixi roman janrının banisi Zirji Zeydun kimi nəsr ustalarının adını qeyd etmək olar (Krymskii, 1971; Dolinina, 1973; Abbasov, 2005).

Həmçinin, XIX əsr ərəb ədəbiyyatında roman janrı geniş vüsət tapır, dram janrı inkişaf etməyə

başlayır, müasir jurnalistika sənəti formalaşır. Ən-Nahda rasionalist, modernist və milli yeni ərəb kimliyini formalaşdırır. Nahda hərəkatından başlayaraq biz artıq ümumi ərəb ədəbiyyatı deyil, ayrı-ayrı ərəb ölkələrinin ədəbiyyatını görürük: İraq, Siriya, Misir və s. kimi ölkələrin ədəbiyyatını. Onu da qeyd edək ki, məhz XIX əsrdən bu yana ərəb ədəbiyyatında qadın yazıçıları da yer almağa başlayır. Bunun əsasını isə R.ət-Tahtavi, M.Əbdo, Ə.Şauki, Q.Əmin kimi ərəb maarifçilərinin keçirdiyi islahatlar qoyur.

Müasir ərəb ədəbiyyatı çoxsəsli, tənqidi yönəlmiş qlobal ədəbiyyat olmağı bacardı. Çağdaş ərəbdilli ədəbiyyata gəldikdə isə Xaled Xuseyni, Adonis, Hanna Mina, Xuda Barrakat, M.Dərviş və b. göstərmək olar.

## Nəticə

Ərəb ədəbiyyatının tarixi onun şifahi xalq ədəbiyyatı ənənəsindən, qəbilə poeziyasından fəlsəfi nəsr formasına, mistisizmə, müasir ictimai roman janrına qədər keçdiyi mürəkkəb inkişaf yolunun göstəricisidir. Ərəb ədəbiyyatı siyasi və mədəni həyatda baş verən dəyişikliklərə daima reaksiya versə belə, özünün metaforaya, ritmə və yüksək dil mədəniyyətinə söykənən unikal estetik kodunu qoruyub saxlaya bilmişdir.

Cahiliyyə dövrünün poeziyasından müasir nəsrə qədər, sufi mistikasından Ən-Nahdanın intellektual axtarışlarına qədər ərəb söz sənəti öz ənənələrini qoruyaraq qlobal mədəni tendensiyalarla dialoqa girərək daima özünün yenilənə bilmə qabiliyyətini nümayiş etdirmişdir.

Aparılan tədqiqat işinin sonunda belə nəticəyə gəlmək olar ki, ərəb ədəbiyyatı heç vaxt statik olub yerində saymayıb, inkişaf dövrünün ən ağır və çətin dönəmində belə yeni nəyisə edib, irəliyə doğru addımlar atmışdır. İslamın yarandığı zamanlar yazı sənəti ədəbiyyatın bədii düşüncə horizontlarını genişləndirərək sözü elm, fəlsəfə və din vasitəsinə çevirir. Sonra isə sufizm ənənələri ədəbiyyata daha dərin mənəvi forma verərək onun metafiziki estetikasını formalaşdırır və bununla da ərəb mədəni irsinin unikallığını müəyyən edir. Ərəb ədəbiyyatının İntibah dövründə isə ədəbi diskursun modernləşməsi mərhələsi hesab edilir. Məhz bu dövrdə ənənəvi ədəbi formalar Qərb modelləri ilə kontakta girərək novator ideyalar yaradır. XX-XXI əsrlərdə ərəb ədəbiyyatı sosial-məişət problemlərinə, mühacirət mövzusuna, qadınların emansipasiyası və müharibə kimi məsələlərə toxunaraq regionun mövcud reallığını ədəbi mühitə inteqrasiya edə bildi. Beləliklə, ərəb ədəbiyyatını ənənələri qoruyub saxlamaqla yanaşı daim inkişaf edən, yeniliklərə adaptasiya olmağa çalışan bir canlı sistem kimi təsvir edə bilərik.

## Ədəbiyyat

1. Abbasov, F. (2005). *Müasir Suriya romanı*. Tural nəşriyyat evi.
2. Alizade, EH.A. (1974). *Egipetskaya novella*. Nauka.
3. Dolinina, A.A. (1973). *Ocherki istorii arabskoi literatury novogo vremeni. Egipet i Suriya*. Prosvetitel'skii roman. Nauka.
4. Əzizov, E. (2004). *IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi*. Bakı Universiteti nəşr.
5. Fil'shtinskii, I.M. (1985). *Istoriya arabskoi literatury (V nachalo X veka)*. Nauka.
6. Gibb, KH.A.R. (1960). *Arabskaya literatura. Klassicheskii period*. Oxford University Press.
7. Hanna l-Fəxuri (1951). *Tarixu l-ədəbi-l-arabiyyə*. Dar al-Hikma.
8. İmanquliyeva, A. (1975). *Cübran Xəlil Cübran*. Elm.
9. Imangulieva, A.N. (1991). *Korifei novoarabskoi literatury*. Elm.
10. Krymskii, A.E. (1971). *Istoriya novoi arabskoi literatury*. Nauka.
11. Kudelin, A.B. (1973). *Klassicheskaya arabo-ispanskaya poehziya*. Nauka.
12. Qasımova, A. (2002). X əsr ərəb-müsəlman intibahı. *Elmi araşdırmalar. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*, I-II.
13. Şauki, D. (1996). *Tarixul-ədəbil-arabiyyu. Asrud duvali val İmarət*. əl-Cəzirətul-arabiyyatu.

Daxil oldu: 06.09.2025
Qəbul edildi: 13.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/63-69

**Aytən İbadova**
Daxili Qoşunların Hərbi İnstitutu
https://orcid.org/0009-0001-6776-7148
dimple-81@hotmail.com

# Muzdluluğun inkişaf tarixi və ona görə məsuliyyət haqqında qanunvercilik

## Xülasə

Hal-hazırda bir sıra beynəlxalq cinayətlər var ki, onlara qarşı mübarizə aparmaq çox çətin məsələyə çevrilmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Müharibə cinayətləri" adı altında birləşdirilmiş və törədilməsinə görə sərt cəzalar nəzərdə tutulan əməllər var. Həmin cinayətlərdən biri "muzdluluq" adlanır və bu əmələ görə Cinayət Məcəlləsinin 114-cü maddəsində kifayət qədər sərt cəza tədbirləri nəzərdə tutulmuşdur. Bu maddəyə əsasən həm muzdluları təşkil edərək konkret hərbi əməliyyatlarda istifadə edənlər üçün, həm də hərbi əməliyyatlarda iştirak edən muzdluların özü üçün cəza nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 114-cü maddəsində deyilir ki, muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə, onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmə səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Açar sözlər:*** *muzdluluq, cinayət, silahlı münaqişə, qanun, dövlət*

**Ayten Ibadova**
Military Institute of Internal Troops
https://orcid.org/0009-0001-6776-7148
dimple-81@hotmail.com

# The History of the Development of Mercenary Activity and Legislation on Liability for it

## Abstract

Currently, there are a number of international crimes that have become extremely difficult to combat. In the Criminal Code of the Republic of Azerbaijan, under the title "War Crimes," actions are outlined which are subject to strict penalties. One of these crimes is "mercenary activity," and the Criminal Code's Article 114 provides for severe punishments for such acts. According to this article, penalties are imposed not only on those who organize mercenaries and use them in specific military operations but also on the mercenaries themselves who participate in military operations. Article 114 of the Criminal Code of the Republic of Azerbaijan states that the recruitment of mercenaries, their training, financing, and other forms of material support, as well as the use of them in military conflicts or operations, is punishable by imprisonment for a period of eight to twelve years.

***Keywords:*** *hiring, crime, armed conflict, law, state*

## Giriş

Beynəlxalq ictimaiyyətdə muzdluluğun mənfi hüquqi qiyməti və ona görə beynəlxalq məsuliyyət nisbətən yaxın zamanlarda – XX əsrin ortalarında meydana gəlmişdir. Muzdluluğa görə cinayət məsuliyyəti isə ölkələrin heç də hamısının deyil, bir çoxunun milli qanunvericiliyinə ondan da gec daxil edilmişdir. Hazırda AR CM-nin 17-ci "Müharibə cinayətləri" adlanan fəslinin 114-cü maddəsini əhatə edilən bəzi cinayət-hüquq normaları bir sıra Avropa dövlətlərinin qanunvericiliyində, hərçənd başqa adlar altında olsa da, hələ XIX əsrdə təzahür etməyə başlamışdır. Məsələn, 1871-ci il

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

alman Cinayət qanunları külliyyatında onlar "dost dövlətlərə qarşı qərəzli hərəkətlər" adlanırdı. Bu cür "qərəzli hərəkətlər" dörd tərkibi nəzərdə tuturdu: 1) Almaniya imperiyasına məxsus olmayan dövlətə və ya monarxa qarşı dövlət cinayəti kimi təsnifatlandırılan əməlin həyata keçirilməsi; 2) hər hansı bir dövlətin monarxının və ya regentinin sözlə, yaxud hərəkətlə təhqir edilməsi; 3) elçi və ya işlər müvəkkilinə qarşı hərəkətlər; 4) dövlət hakimiyyət nişanının qəsdən çıxarılması, korlanması və ya məhv edilməsi. 1853-cü il İsveçrə cinayət qanunu bu kimi fitnələri "xarici dövlətə qarşı cinayətlər" adlandırmış, sonralar, 1937-ci ildən etibarən isə belə əməllər "xarici münasibətlərin pozulması" adlanmışdır.

**Tədqiqat**

Muzdluluq bütün dünya ölkələri tərəfindən ən ağır müharibə cinayətləri kimi qadağan edilir və cəzalandırılır. Həm birinci Qarabağ müharibəsində, həm də 44 günlük ikinci Qarabağ müharibəsində Ermənistan ordusu tərəfindən Livandan, Rusiyadan, Yunanıstandan, Gürcüstandan, Fransadan və başqa ölkələrdən yüzlərlə muzdluların döyüşdüyü faktlarla sübut edilmişdir. Əsir düşən snayper qadın izahatında bildirmişdir ki, ermənilər muzdlulara yaxşı pul verirdilər və ona görə də pul qazanmaq üçün muzdlu dəstələrə qoşulmuşdur. Azərbaycan Respublikası 30 sentyabr 1997-ci il tarixli Qanunla "Muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, onlardan istifadə edilməsi və onlara təlim keçilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya qoşulmuşdur (*Azərbaycan Respublikasının Cinayət Məcəlləsi*, 2018; "*Azərbaycan" qəzeti*, 2020).

XIX-XX əsrlərin astanasında nisbətən az sayda ölkənin qanunvericiliyi dövlətlər arasındakı münasibətləri cinayət-hüquq mühafizəsi altına qoyurdu (əsasən öz xarici təhlükəsizliyi maraqlarının müdafiəsi üçün). Bu ölkələr dairəsinə Rusiya da daxil idi. Orada qüvvədə olan Cinayət və islah cəzaları haqqında qanunlar külliyyatı "xalq hüququ əleyhinə cinayətlərə" görə məsuliyyət məsələlərini həll edərkən üç növ əməli cinayət baxımından cəzalandırılmalı əməl kimi elan edirdi. Birincisi, bu Qanunlar külliyyatının 259-cu maddəsində deyilirdi: "Əgər Rusiya təbəələrindən hər hansı biri sülh vaxtı qonşu və ya digər əcnəbi dövlətin sakinlərinə aşkar güclə hücum edərsə və bununla öz Vətənini dost dövlətlə münasibətlərin kəsilməsi təhlükəsinə və ya həmin dövlətin təbəələri tərəfindən Rusiya vilayətlərinə bu cür hücuma məruz qoyarsa, o zaman xalq hüququ əleyhinə bu cinayətə görə onun özü və şəxsi iradəsi ilə, məqsədi və onun yerinə yetirilməsinin qanunazidliyini bilməklə bu əməldə iştirak edənlərin hamısı bütün ictimai vəziyyət hüquqlarından məhrum etməyə və səkkiz ildən on ilədək katorqa işlərinə sürgünə məhkum edilirlər". İkincisi, Zatialiləri Rusiya İmperatorunun həyat, sağlamlıq və şərəfinə qəsdə görə və deməli, ali hakimiyyət əleyhinə çıxmağa görə məsuliyyət barədə cinayət-hüquq normalarına istinad edərək xarici dövlətə qarşı yönəldilmiş analoji əməllərə görə də xüsusi sanksiyalar tərtib edilmişdir. Üçüncüsü, hüquqi məsuliyyətin müstəqil əsasının mənası ictimai xarakterdə törədilmiş hərəkətlərə və "əcnəbi səfiri, elçini və ya digər diplomatik agenti, onun hökümətinin özünə hörmətsilik göstərmək niyyəti ilə" təhqir edən nalayiq sözlərə aid edilirdi.

1903-cü ilin Cinayət qanunları külliyyatında müzakirə edilən cinayət növü tərkiblərinin miqdarı dəyişməz qalmış, lakin cinayət əməlləri hesab edilən ictimai təhlükəli əməllərin növləri dəyişmişdir. Bunlar cinayət hesab edilməyə başlamışdır: 1) Rusiya ilə dost hökümətin devrilməsinə yönəlmiş təşəbbüslər; 2) "Rusiya ilə dost hökümətin ictimai yerdə qoyulmuş dövlət gerbi və ya digər dövlət nişanı" üzərində qəsdən həqarət; 3) "bitərəflik haqqında təyin olunmuş qaydada elan edilmiş qaydaları pozma".

1922 və 1926-cı illər ilk sovet Cinayət məcəllələrində bu cür cinayətlər xüsusi olaraq şərtləşdirilməmişdir, lakin 1927-ci ildə Dövlət cinayətləri haqqında Qanunda təyin edilmişdir ki, beynəlxalq həmrəyliklə əlaqədar yalnız Sovet hakimiyyəti əleyhinə deyil, eləcə də "SSRİ-nin tərkibinə daxil olmasa da, zəhmətkeşlərin istənilən digər dövləti" əleyhinə yönəlmiş əməl əksinqilabi əməl kimi təsnifatlandırılmalıdır. 1960-cı il RSFSR CM-də müxtəlif siyasi quruluşlu iki sistemin dinc yanaşı yaşaması prinsipinin bəyan edilməsinə müvafiq olaraq xarici dövlətin nümayəndəsinə qarşı terror aktı (maddə 67), müharibənin təbliği (maddə 71) cinayət elan edilmişdir. Sülh və insanlığın təhlükəsizliyi əleyhinə cinayətlərə CM 67-ci maddəsi (bioloji silahdan istifadə) və CM 67-ci maddəsi (bioloji silahın işlənib hazırlanması, istehsalı, əldə edilməsi,

saxlanması, satışı, nəqli) ilə nəzərdə tutulmuş normaları aid etmək olar. Hər iki cinayət-hüquq norması 1907-ci il IV Haaqa konvensiyasına Əlavələrin 23-cü maddəsinə, 1925-ci il Cenevrə protokoluna və 1972-ci il Bioloji silahların ləğvi haqqında Konvensiyaya əsaslanmışdır və RF 29 aprel 1993-cü il tarixli Qanunu ilə Rusiya federasiyası CM-ə daxil edilmişdir. 78-ci maddə (silahların və hərbi texnikanın, kütləvi qırğın silahlarının yaradılması zamanı istifadə edilən malla-rın, elmi-texniki informasiyanın və xidmətlərin qeyri-qanuni ixracı) ilə nəzərdə tutulmuş cinayətlər də Sülh və insanlığın təhlükəsizliyi əleyhinə cinayət hesab edilə bilər ki, bunun da normativ əsası BMT Baş Assambleyasının XXII sessiyasının təqdir etdiyi 1968-ci il Nüvə silahının yayılmaması haqqında Müqavilədir.

1996-cı il RF Cinayət Məcəlləsində sülhü və insanlığın təhlükəsizliyini təyin etmə maraqları ilk dəfə olaraq Ümumi hissənin 2-ci maddəsində sadalanan cinayət-hüquq mühafizəsi obyektləri sırasına daxil edilmişdir. RF CM-nin Xüsusi hissəsində qanunverici ilk dəfə olaraq sülh və insanlığın təhlükəsizliyi əleyhinə cinayətlərə bütöv bir bölmə, bu bölmədə isə bir fəsil ayırmışdır ki, burada beynəlxalq cinayətlərlə və beynəlxalq xarakterli cinayətlərlə mübarizə üzrə dünya ictimaiy-yəti qarşısında qəbul edilmiş öhdəliklər nəzərə alınmaqla cinayətlərin tərkibini formalaşdırmışdır. Beynəlxalq xarakterli cinayətlərə muzdluluq da aiddir. Lakin tarix göstərir ki, muzdluluq heç də həmişə mənfi qiymətləndirilməmiş, qınanmamış və cinayət sayılmamışdır.

Muzdlu ordular qədim zamanlardan mövcud olmuş, XV-XVIII əsrlərdə isə Qərbi Avropada əsas silahlı qüvvələr kimi çıxış etmişdir. Muzdlu ordulara həm ölkənin vətəndaşları, həm də əcnəbilər cəlb olunurdular. İlk vaxtlar muzdlu ordular beynəlxalq münasibətlərdə qadağan hesab edilməmiş, muzdlular isə cinayətkar kimi qəbul olunmamışdılar (*Qədim Yunanıstan tarixi*, 1986).

Hərbi muzdluluq Qədim Romanın da tarixi taleyində olduqca əhəmiyyətli rol oynamışdır. Respublika dövrünün Roması da demək olar ki, hərbi muzdluluqla tanış deyildir – hərbi xidmət hər bir Roma vətəndaşının vəzifəsi və şərəf məsələsi idi. Belə ki, hətta Romanın Avropanın yarısını fəth etiyi ilkin imperiya ("Prinsipat") dövründə sezarlar döyüşçüləri "əslinə və zənginliyinə görə yox, yalnız igidliyinə görə" qiymətləndirirdilər. Hərbi muzdlulara qarşı mənfi münasibətə biz romalı müəlliflərdə də rast gəlirik. Məsələn, Qay Svetoni Trankvill imperator Qalba tərəfindən imperato-run almanlardan ibarət olan muzdlu şəxsi mühafizəsinin, hətta "öz işlərində dəfələrlə sadiqliklərini sübut etmələrinə" baxmayaraq, buraxılması faktını açıq məmnunluqla qeyd edir (Korsunski, Hünter, 1984; Tasit, 1970; Trankvill, 1990).

Lakin eramızın II əsri daxil olmaqla davam edən Roma ekspansiyası tədricən, amma birmənalı şəkildə imperiyanın insan resurslarını üzürdü. Eyni zamanda Roma imperiyası "vətəndaşları olmayanların" hərbi muzdluluğunun meydana gəlməsinin obyektiv amili əmtəə-pul münasibətlə-rinin inkişafı və latınların ümumi "pozulması" idi. Sonuncular öz vətəndaş borclarını yerinə ye-tirməkdənsə, ondan boyun qaçırmağa getdikcə daha çox üstünlük verməyə başlayırdılar.

Eramızın III əsrində Roma imperiyasının ümumi böhranı həm sosial-iqtisadi, həm də hərbi siyasətə yenidən baxılmasını tələb edirdi. İmperator Septimi Severin zamanında Roma qoşunlarının köklü islahatları aparıldı ki, bunlara müttəfiq ("federat") hüququ ilə alman tayfaları cəlb olunmağa başladı. Sonuncular imperiyanın sərhədyanı əyalətlərində məskunlaşır, orada məskən salır və demək olar ki, muzdlu qoşuna çevrilirdilər. Bu tədbir Roma ordusunun vəziyyətini müvəqqəti olaraq sabitləşdirməyə imkan verdi, lakin məhz o, Romanın hərbi qüdrətinin çökməsinin başlıca səbəblə-rindən biri oldu. "...Əgər Roma imperiyasının tənəzzlü üzərində düşünsək, - N.Makiavelli yazırdı, - görərik ki, o, romalıların muzdluları – qotları xidmətə götürmələrindən başlamışdır. İmperiyanın zəifləməsi elə bundan başladı, həm də romalıların gücü nə qədər alınırdısa, qotlarınkı o qədər ar-tırdı".

Romaya "döyüşçü və silah" tədarük edən yadelli muzdlular sonda romalıların hərbi bacarıq-larına yiyələndilər və onu öz keçmiş sahiblərinə qarşı çevirdilər. Əsrin sonunda "əsgər" imperatorların – Roma legionları əlaltılarının dövrü adlandırılan dövr mövcud olmuşdur ki, burada alman muzdluları böyük rol oynamışdılar (bu imperatorların bəziləri isə elə alman əsilli idilər). Alman yadelliləri ilə Qərbi Roma imperiyası qarşıdurmasının tarixi nəticəsi məlumdur: Romanın keçmiş muzdlu alman yadelliləri tərəfindən dəfələrlə talan edilməsindən sonra – 476-cı ildə elə

onlar tərəfindən sonuncu imperator devrildi. Aparıcı tarixçilərin fikrincə, məhz muzdlu döyüşçülərin – alman federatlarının orduları Qərbi Roma imperiyasının hərbi-siyasi təşkilatının iflasının səbəblərindən biri olmuşdur.

Muzdlu qoşunlarının etibarsızlığı və muzdluların özlərinin əxlaqsızlığı haqqında İntibah dövrünün görkəmli filosofu, dramaturqu və politoloqu Nikkolo Makiavelli (1469-1527) 400 il bundan əvvəl danışırdı. O, vurğulayırdı ki, "muzdlular ləng və həvəssiz hücum etmələri, əvəzində əcayib sürətlə geri qaçmaları ilə məşhurdular". Özünün "Hökmdar" əsərində o, şəxsi, müttəfiq, muzdlu və qarışıq qoşunları ayırd edirdi. "Muzdlu və müttəfiq qoşunlar faydasız və təhlükəlidir; muzdlu qoşunlara söykənən hakimiyyət heç vaxt nə möhkəm, nə də uzunömürlü olmayacaqdır". "Buna görə də, - N.Makiavelli nəticəyə gəlir, - müdrik hökmdarlar həmişə şəxsi qoşunları ilə iş görməyə üstünlük vermişdilər. Özününkü ilə məğlub olmaq, başqasınınkı ilə qalib gəlməkdən daha yaxşıdır, zira özgə silahı ilə əldə edilən qələbə əsl qələbə deyildir".

VI-VII əsrlərdə antik infrastrukturun ümumi dezorqanizasiyası muzdluluğun hərbi institut kimi aradan qalxmasına gətirib çıxardı. Avropanın bu zaman təşəkkül tapmaqda olan yeni sosial-siyasi quruluşu vassal-senyor əlaqələrinə əsaslanmışdır. Prinsipcə yeni hərbi quruluş üçün səciyyəvi olan feodal strukturunun təməli "benefisial" islahat zamanı qoyulmuşdur: VIII əsrdə Frank krallığının majordomu Karl Martell hərbi xidmətə görə "öz adamlarına" həmin ərazidə yaşayan azad və azad olmayan əhaliyə münasibətdə yurisdiksiya hüququ ilə birlikdə torpaq vermə təcrübəsini tətbiq etdi.

Xidmətçi döyüşçü bütün orta əsrlər ərzində Avropanın hərbi təşkilatının özəyinə çevrildi. Yalnız pul xatirinə hərbi xidmət ideyası hərbi-zadəgan mədəniyyətinə yad idi və kilsə tərəfindən kəskin pislənirdi. Hərbi-zadəganlıq üçün müharibə öz həyat təminatının başlıca mənbəyindən daha çox, tarixçilərin fikrincə, vaxt keçirmə və hətta əyləncə vasitəsi idi. Lakin artıq XIII-XIV əsrlərdə hərbi xidmətlərin satılması yenidən kifayət qədər adi işə çevrilir. Buna vassal-senyor sistemini dağıtmaqda olan Avropa dövlətlərinin mərkəzləşməsi prosesi də obyektiv şəkildə kömək edir – hakimiyyət artıq "vassalımın vassalı – mənim vassalım deyil" qaydası olan itaətsiz feodal nərdivanının olmasında maraqlı deyildi. Kralları yalnız onlara sadiq olan hərbi qüvvələr maraqlandırır, - və onlar bu qüvvələri kənardan da olmaqla "satın almağa" başlayırlar. Beləliklə, Avropda tarixi səhnəsində yenidən hərbi muzdluluq meydana gəlir. Bundan başqa, bir sıra Avropa dövlətləri və əraiziləri kişilərin əcnəbi hökmdarların saraylarında hərbi xidmət üçün göndərilməsində "ixtisaslaşmağa" başlayırlar. Bunun ən parlaq nümunəsi – İsveçrə və cənubi-alman torpaqlarıdır (*Avropa taixi*, 1993; Dübi, 1994; ).

XV-XVII əsrlərdə muzdluluq artıq tarixi cəhətdən əhəmiyyət kəsb edən, müəyyən dərəcədə bu dövrün cəmiyyətini xarakterizə edən bir hadisədir. Son orta əsrlər dövrü sosial-iqtisadi nöqteyi-nəzərdən feodal quruluşunun dağılması, siyasi münasibətdə isə mütləqiyyətin təşəkkül tapması isə xarakterizə olunur. Ənənvi hərbi quruluş – feodal-zadəgan qoşunu effektivliyini itirir. İnkişaf etməmiş iqtisadiyyat və dövlət aparatı şəraitində daimi qoşun təşkil etmək qeyri-mümkün olurdu.

XIV əsrdə muzdluluğun birinci şərti olaraq "aşağı" tipi formalaşır. Buna zəifləməkdə olan qeyri-nizami qoşunu tədricən əvəz edən muzdluluğun təməli olan əmtəə-pul münasibətlərinin inkişafı şərait yaradır. Aşağı tipin əsas əlaməti qoşunun feodal-zadəgan strukturunun saxlanması idi. Muzdluluğun bu tipinin birinci variantı kondotyer variantı idi. Kondotyer tərəfindən təchiz edilən nisbətən kiçik, əsasən atlı dəstələr qoşuna ehtiyacı olan dövlətlər tərəfindən muzdla tutulurdu. Öhdəliklərin yerinə yetirilməsinin zəmanəti yalnız onların lideri ilə şəxsi müqavilə idi ki, o da müstəqil olduğundan, çox vaxt öz siyasi məqsədlərini güdərək bu müqaviləni pozur, bəzən dövlət hakimiyyətini ələ keçirirdi. "Mən muzdlu qoşunların bədbəxtliyinin nə olduğunu ətraflı şərh etmək istərdim, - muzdluluğun kondotyer variantını qiymətləndirərkən N.Makiavelli yazırdı. – Kondotyerlər öz işlərini müxtəlif cür bilirlər: bəziləri əla, digərləri – orta. Birincilərə ona görə etibar etmək olmaz ki, onlar özləri hakimiyyəti əldə etməyə çalışacaqlar və onun naminə ya səni, öz sahiblərini, ya da sənin məqsədlərinin öhdəsindən gəlməyərək başqalarını devirəcəklər. İkincilərə isə ona görə etibar etmək olmaz ki, onlar döyüşü uduzacaqlar" (Makiavelli, 2001).

Muzdlu tutan üçün daha sərfəli variant İngiltərə və Fransa üçün səciyyəvi olan kapitan variantı idi. Qoşun başçısı-kapitan birbaşa kral tərəfindən təyin edilir və onun nəzarətində olurdu. Lakin

tədricən (Fransada) kapitan vəzifəsini separatist məqsədləri müdafiə edən əyanlar ələ keçirdi. Bu muzdluluq tipi çox vaxt mərkəzləşdirilmiş dövlətin maraqlarına cavab vermirdi. Eyni zamanda, hərb işində inqilab köklü dəyişikliklər: hər şeydən əvvəl, piyada qoşunlarının rolunun artmasını, sonra isə ordunun əhəmiyyətli dərəcədə çoxalmasını tələb edirdi ki, bunu da təmin etməyə kondotyerlərin imkanı yox idi. Tarixi təcrübəni təhlil edərək N.Makiavelli yazırdı: "Kral XI Lüdovikin atası VII Karl qismət və şücaət sayəsində Fransanı ingilislərdən azad etməklə başa düşdü ki, öz silahınla silahlanmaq nə qədər zəruridir və daimi atlı və piyada qoşunları təşkil etməyi əmr etdi. Sonralar onun oğlu Lüdovik piyada qoşunları buraxdı və isveçrəliləri xidmətə götürməyə başladı; bu səhvi onun xələfləri daha da dərinləşdirdi və indi o, fransız krallığına baha başa gəlir. Çünki isveçrəlilərə üstünlük verməklə Fransa öz qoşunlarının ruhunu sındırdı: piyada qoşunlarının ləğvindən sonra muzdlu qoşunlara verilmiş süvarilər artıq döyüşü öz gücləri ilə udmağa ümid etmirlər. Belə də alınır ki, fransızlar isveçrəlilərə qarşı döyüşə bilmirlər, isveçrəlilər olmadan başqalarına qarşı isə bacara bilməzlər".

Bu dövrdə muzdluluğun yeni, "yüksək" tipi meydana gəlir ki, bu da müvəqqəti muzdla tutma zamanı yeni struktur əsası üzərində qurulmuş qoşunların varlığı ilə xarakterizə olunurdu. İsveçrə ("dövlət") variantı İttifaq ilə sıx əlaqədə idi, alman, "podrat" variantı isə şəxsi sahibkarlıq əsasına söykənirdi. Bu səbəbdən landsknextlər (alman muzdlu döyüşçüləri) kantonların öz maraqlarından asılı olaraq göstəriş verdikləri isveçrəlilərə nisbətən muzdla tutana daha çox bağlı idilər. Lakin hər iki variantın ümumi əlamətləri kütləvilik və dövlətlə əvvəl olduğundan daha böyük əlaqə idi. Alman muzdluluğunda bu əlaqə birincisi həm sərkərdənin, həm də qoşunun xəzinədən daxil olan pullardan maliyyə asılılığında; ikincisi, dövlət hakimiyyətindən hüquqi asılılıqda təzahür edirdi. Belə ki, muzdla tutma üçün müstəsna olaraq bütün lansknextlərin and içdikləri hökmdarın icazəsi tələb olunurdu, özünəməxsus hərbi ədliyyə də dövlət mənşəyinə malik idi. Lakin yalnız müharibə vaxtı üçün toplanan muzdlu ordu hər bir halda tam dəyərli dövlət institutu ola bilmədi. Buna onun komplektləşdirilmə sistemində aydın əks olunan şəxsi sahibkarlıq əsası mane olmuşdur. Hökmdar hər hansı bir qoşun başçısına çox vaxt muzdla tutmanı podrata verməklə qoşun toplamağı həvalə edirdi. Sərkərdə ilə polkovnik və polkovniklə əsgərləri bilavasitə toplayan kapitan arasında münasibətlər də beləcə qurulurdu. Beləliklə, bütün münasibətlər səviyyəsində kapital müəyyənedici rol oynayırdı.

Tədqiqatçıların fikrincə, XVI-XVII əsrlərdə muzdluluğun alternativi yox idi. O, silahlı qüvvələrə qoyulan bütün tələblərə: birincisi, müharibələrin o dövrdə əhəmiyyətli dərəcədə artmış miqyasına və xarakterinə; ikincisi, bu mərhələdə mütləq monarxiyanın maraqlarına cavab verirdi, belə ki, ondan asılı olan və adətən, öz hesablarına yalnız muzdla yığma apara bilən, lakin qoşunları daim saxlamağa gücü çatmayan qoşun başçıları, bir qayda olaraq, siyasi hakimiyyətə qəsd etmirdilər. Buna onların çox vaxt əsilzadə olmayan və əcnəbi mənşələri, imperiya məmurlarının narahat cəmiyyətindən uzaqlıq da yol verirdi. Lansknextlər isə ancaq kim pul verirdisə, ona xidmət edirdilər və vaxtlı-vaxtında pullarını almaqdan başqa heç bir tələbləri yox idi. Üçüncüsü, feodal qeyri-nizami qoşunundan fərqli olaraq muzdluluq əsas etibarilə ənənəvi iqtisadi quruluşun dağılması ilə bütün təbəqələrin nümayəndələrinin adi mühitindən çıxmış zəruri kadrlarla tam təmin olunurdu (*Böyük ensiklopediya lüğəti*, 1998).

Ölkə ərazisində və onun hüdudlarından kənarda daim tələbatın və hətta artıq təklifin olması sayəsində yüksək tip alman muzdluluğu 150 ildən artıq mövcud olmuşdur. Feodalizmin dağılması ilə meydana gələn böhran, kapitalizmin XVI əsrin ikinci yarısında başlayan iqtisadi enişlə müşayiət olunan ağır inkişafı cəmiyyətdə "artıq" olan çoxlu insan yaratdı ki, bunlar üçün yalnız iki yol var idi: müharibədə iştirak və ya açıq dilənçi vəziyyətində yaşamaq.

Podratlı muzdluluğun inkişafını şərti olaraq üç dövrə bölmək olar: I. Özünəməxsus milis feodal-zadəgan quruluşunda əsl muzdluluğun formalaşması (1490-1510-cu illər); II. "Qızıl dövr" (1510-cu illər – XVI əsrin sonları) – tip olduğu kimi fəaliyyət göstərir; III. Muzdluluğun süqutu. Muzdluluq çərçivəsində dəyişiklik cəhdləri, XVII əsrdəki Otuzillik müharibənin gedişində müntəzəm ordunun yaradılması zərurətinin dərk edilməsi və bunun üçün imkanların meydana gəlməsi.

XVII əsrin sonlarına doğru ümumavropa tarixi hadisəsi kimi hərbi muzdluluq əksilmə istiqamətində gedir – onu müntəzəm dövlət orduları əvəz edir, çünki, Nikkolo Makiavellinin vurğuladığı kimi, "şəxsi ordusu olmadan dövlət möhkəm deyildir – bunda başqa, o, tamamilə qismətin şıltaqlığından asılıdır, belə ki, şücaət ona ağır vaxtda sadiq müdafiə üçün xidmət göstərmir. Müdrik insanların fikrinə və hökmünə görə, "Quod nihil sit tarn infirmum aut instabile, quam fama potentiae non sua vi nixa" ("Öz qüdrətinin gücünə söykənməyən cazibədən etibarsız və keçici heç nə yoxdur")".

Beləliklə, hərbi muzdluluq tarixi hadisə kimi antik və orta əsr Avropa tarixi ərzində mövcud olmuşdur. Sosial-iqisadi nöqteyi-nəzərdən o, əmtəə-pul münasibətlərinin inkişaf və çiçəklənmə vaxtları və böhranlı siyasi dövrlərlə bağlı olmuşdur. Öz inkişafının başlanğıc dövründə həm antik (yunan və roma), həm də orta əsr hərbi muzdluluğu müvafiq dövlətlərdə hərbi-siyasi vəziyyəti müəyyən şəkildə sabitləşdirməyə imkan vermişdir.

Muzdluların iştirakı ilə "azğın", "şiddətli" müharibə Azərbaycan tarixinə yaxşı tanışdır. Həm birinci Qarabag, həm də 44 günlük Vətən müharibəsi və Silahlı Qüvvələrimiz tərəfindən 2023-cü il sentyabrın 19-da başladılan lokal xarakterli antiterror tədbirlərində muzdluların "əməlləri" barədə xəbər tutmaq üçün həmin hadisələrlə bağlı rəsmi xəbər saytlarına və məhkəmə statistikasına baxmaq kifayətdir. Erməni döyüşçüləri tərəfindən tutulmuş müxtəlif muzdluların təsvirəgəlməz vəhşiliklərinin aşkarlığı bu gün bizi dəfələrlə muzdluluq probleminin aktuallığından və muzdluluğa düzgün hüquqi qiymət verməyin zəruriliyindən danışmağa məcbur edir".

Xüsusi ədəbiyyatda göstərildiyi kimi, muzdluluğun ictimai təhlükəliliyi təkcə ondan ibarət deyildir ki, muzdlular onları tutanların siyasi iradəsini yerinə yetirərkən insanları öldürür, zorlayır, talayır və s., həm də ondan ibarətdir ki, elə insanlar təbəqəsi yetişir ki, onlar üçün qətl və digər cinayətlər yaxşı pul ödənilən peşəyə çevrilir (Kibalnik, Moliboqa, Solomonenko, 2001; *Rusiya cinayət hüququ*, 1996). Fikrimizcə, həmçinin tamamiilə ədalətli olaraq qeyd edilir ki, terrorçuların və muzdluların sosial-psixoloji xarakteristikalarında böyük oxşarlıq mövcuddur: hər ikisinin fəaliyyət üsulu başqa insanlar üzərində zorakılıqla bağlıdır, qeyri-adi ədəbsizlik və qəddarlıqla seçilir.

## Nəticə

Müasir tarix göstərir ki, muzdluluq təkcə müharibə vaxtı deyil, dinc dövrdə də mövcuddur. Qanunsuz hərbi birləşmələrdə iştirak, terror aktlarının törədilməsi və s. üçün muzdlulardan istifadə olunur. Ən müasir tarixdə muzdluluq çox vaxt həm xarici, həm də daxili siyasətdə silahlı münaqişələrin aparılma alətinə çevrilir. Deyilənlər təkcə muzdluluğun həyata keçirilməsinə görə ən ciddi məsuliyyətin təyin edilməsinin sosial-tarixi əsaslılığını deyil, həm də bunun beynəlxalq və milli hüququn göstərişlərinə müvafiq olaraq ardıcıllıqla həyata keçirilməsi zərurətini təsdiq edir.

Hələ 1947-ci il 177-ci qətnaməsində BMT Baş Assambleyası bu məqsədlə Beynəlxalq hüquq komissiyasına beynəlxalq hüququn Nürnberq tribunalı Nizamnaməsində (həmçinin, onun hökmündə) qəbul olunmuş prinsiplərini formalaşdırmağı və sülh və insanlıq əleyhinə cinayətlər haqqında Kodeksin layihəsini hazırlamağı tapşırır (bu cinayətlərin yeni rəsmi adı məhz bu dövrə aiddir). Layihə üzərində iş məsələsinə Baş Assambleya dəfələrlə qayıtmışdır. 1993-cü ildə özünün 43-cü sessiyasında Beynəlxalq hüquq komissiyası birinci oxunuşda bu Kodeksi ilkin qaydada qəbul etmişdir və o, BMT Baş katibi vasitəsilə müzakirə edilmək üçün hökümətlərə göndərilmişdir.

Bu cinayətlərin siyahısı Nürnberqlə müqayisədə əhəmiyyətli dərəcədə genişləndirilmişdir və bu, 22 dövlətdən daxil olmuş haqlı rəylərə səbəb olmuşdur. Digərləri ilə yanaşı muzdluluğa münasibətdə də əsaslı etirazlar irəli sürülmüşdür. Bu normanın Sülh və insanlıq əleyhinə cinayətlər haqqında kodeksə salınmasına qarşı İngiltərə, Niderland və Norveç öz fikrini bildirmişdir. Muzdluluq haqqında kodeks layihəsinin xülasəsi onunla bağlı etirazlara səbəb olmuşdur ki, göstərilən hərəkətlər "hələ ümumi qəbul olunmuş beynəlxalq cinayətlər statusu almamışdır" (İngiltərə) və cinayət məsuliyyəti muzdluların özünün hərəkətlərinə görə deyil, yalnız muzdluların dövlətlərin nümayəndələri və ya agentləri tərəfindən tutulmasına, istifadəsinə, maliyyələşdirilməsinə və təlim almasına görə təyin edilir (ABŞ) və bütövlükdə bu da hüquqi cəhətdən çox qeyri-müəyyəndir.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi*. (2018). Hüquq Yayın Evi.
2. *"Azərbaycan" qəzeti*. (2020, 01.11). (288), 6.
3. *Avropa taixi*. (1993). Yeni dövr. Moskva nəşriyyatı.
4. *Böyük ensiklopediya lüğəti*. (1998). Baş redaktor A.M.Proxorov. Böyük Rusiya Ensiklopediyası nəşriyyatı.
5. Dübi, J. (1994). *Avropa və orta əsrlər*. Poliqramma nəşriyyatı.
6. Korsunski, A., Hünter, R. (1984). *Qərbi Roma imperiyasının tənəzzülü və süqutu və alman krallıqlarının meydana gəlməsi*. MDU nəşriyyatı.
7. Kibalnik, A.G., Moliboqa, O.Y., Solomonenko, İ.G. (2001). *Muzdluluğa görə cinayət məsuliyyəti*. Stavropol Xidmət Məktəbi Nəşriyyatı.
8. *Qədim Yunanıstan tarixi*. (1986). V.İ.Kuzişinin redaktəsi ilə. Dövlət təhsil-pedaqoji nəşriyyatı.
9. Makiavelli, N. (2001). *Hökmdar*. Planeta.
10. *Rusiya cinayət hüququ*. (1996). Dərslik. Hüquqşünas nəşriyyatı.
11. Tasit. (1970). *Salnamələr*. XIII. SSRİ EA nəşriyyatı.
12. Trankvill, Q.S. (1990). *On iki sezarın həyatı*. Bədii ədəbiyyat nəşriyyatı.

Daxil oldu: 02.09.2025
Qəbul edildi: 09.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/70-75

**Sevinj Rzayeva**
Azerbaijan State Maritime Academy
https://orcid.org/0009-0004-2017-8436
sevinrzayevaaaa@gmail.com

# The Impact of Information Technologies on Language and Communication Methods

## Abstract

This article examines the impact of information technologies on language and communication methods, especially lexical, syntactic, and cultural changes. The rapid development of the Internet and social networks has resulted in the enrichment of language with new terms, changes in communication forms, as well as new perspectives brought by artificial intelligence and natural language processing. The article also examines the impact of digital communication tools on the functional simplification of language and the expansion of visual elements. In addition, the threats of global standardization of language and the issues of preserving cultural diversity are discussed. The results of the article show that information technologies have both a positive and negative role in language development, and continuous research in this area is important.

***Keywords:*** *information technologies, digital communication, language development, social networks, artificial intelligence, natural language processing, lexical changes, syntax, cultural diversity*

**Sevinc Rzayeva**
Azərbaycan Dövlət Dəniz Akademiyası
https://orcid.org/0009-0004-2017-8436
sevinrzayevaaaa@gmail.com

# İnformasiya texnologiyalarının dil və ünsiyyət metodlarına təsiri

## Xülasə

Bu məqalədə informasiya texnologiyalarının dil və ünsiyyət metodlarına təsiri, xüsusilə leksik, sintaktik və mədəni dəyişikliklər araşdırılır. İnternetin və sosial şəbəkələrin sürətli inkişafı dilin yeni terminlərlə zənginləşməsi, ünsiyyət formalarının dəyişməsi, eləcə də süni intellektin və təbii dil emalının gətirdiyi yeni perspektivlərlə nəticələndi. Məqalədə rəqəmsal kommunikasiya vasitələrinin dilin funksional sadələşdirilməsinə və vizual elementlərin genişlənməsinə təsiri də araşdırılır. Bundan əlavə, dilin qlobal standartlaşması təhlükələri və mədəni müxtəlifliyin qorunması məsələləri müzakirə olunur. Məqalənin nəticələri göstərir ki, informasiya texnologiyaları dilin inkişafında həm müsbət, həm də mənfi rola malikdir və bu sahədə davamlı tədqiqatlar vacibdir.

***Açar sözlər:*** *informasiya texnologiyaları, rəqəmsal ünsiyyət, dil inkişafı, sosial şəbəkələr, süni intellekt, təbii dilin işlənməsi, leksik dəyişikliklər, sintaksis, mədəni müxtəliflik*

## Introduction

The rapid development of information technologies in modern times has led to fundamental changes in the social, cultural, and linguistic spheres. The widespread use of the Internet, the increasing use of mobile devices, and the popularization of social media platforms have fundamentally changed the way people communicate in their daily lives. These changes not only enrich the language with new terms but also significantly transform its structure, functions, and use.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

This phenomenon has been studied in the literature from various aspects. Krotova (Krotova, 2019) analyzed the emergence of new terms brought about by information technologies and their adaptation to the language, while Ivanov (Ivanov, 2021) assessed the features of this process in the context of the Russian language. Volkova (Volkova, 2020), drawing attention to the issue of syntactic and morphological changes in the language arising in social networks, notes that the speed of digital communication and the brevity of the text simplify the formal structure of the language and lead to the formation of new grammatical constructions.

Studies by Derks, Fischer, and Bosun (Derks, Fischer, Bos, 2008) show that visual elements such as emojis have become an important component of digital communication, enriching the written language and acting as new paralinguistic tools. Androutsopoulos (Androutsopoulos, 2014), examining the interaction between globalization and localization of social media language, emphasized that new linguistic trends emerging in this environment have an impact on language development at both the international and national levels.

Recent developments in artificial intelligence and natural language processing (Jurafsky, Martin, 2023) further improve the process of digital communication and open new perspectives on how language will change in the future. At the same time, researchers such as Bender (Bender, 2020) draw attention to the dangers that artificial intelligence may lead to language unification and a decrease in cultural diversity.

Although existing studies mainly analyze individual aspects, studies that examine the impact of information technologies on language in a comprehensive manner, from both lexical, syntactic, and cultural aspects, are still limited. This article aims to fill this gap and evaluate the integration of information technologies into language in a wide range. This analysis, conducted in the context of the Azerbaijani language, has both theoretical and practical significance, since the protection of the national language and cultural diversity is an important priority in a globalized world.

In this regard, our article examines the impact of information technologies on language from a broad perspective, making new scientific contributions to the existing literature, and also providing important recommendations for the development and preservation of the language.

## Research

*Lexical impact of information technologies.* The rapid development of information technologies (IT) has had a significant impact on all areas of the modern world, including language. As a result of this development, new terms and concepts used in communication tools and technological processes have emerged, which are often internationally accepted English words and expressions. Examples of such terms include words such as “web”, “cloud computing”, “e-mail”, “hashtag” (hashtag) (Krotova, 2019, Ivanov, 2021). These words are widely used not only in English, but also in other languages, including Russian and Azerbaijani.

In the Azerbaijani language, words and expressions related to information technologies are gradually entering the lexical fund of our language. For example, terms such as “social networks”, “blog”, “mobile application”, “startup”, “hacker” are now widespread both in everyday speech and in official technical documents. Although some of these terms can be replaced with full equivalents in the Azerbaijani language, their original, i.e., English forms often prevail. This is a natural phenomenon in the process of language integration as a result of the rapid development of information technologies and globalization.

These lexical changes are not limited to the emergence of new words, but also significantly change the functional dynamics of the language and the form of communication. The successful integration of new technological concepts into the language increases the effectiveness of communication processes in modern society, as well as ensures the development of the language. On the other hand, this process shows the interrelationship of globalization and the impact of technological innovations on the language. As a result of globalization, the mutual exchange of terms between different languages intensifies, which, along with the enrichment of the language, also creates the risk of its homogenization.

Lexical innovations add new means of expression and layers of meaning to the language, making it more dynamic and flexible. However, the selection, use, and adaptation of these innovations are extremely important in terms of preserving the uniqueness of the language and national identity. The role of linguists, translators, and terminologists in the field of adaptation and normalization of new terms included in the lexicon in order to preserve the original structure and cultural characteristics of the language is increasing.

At the same time, the lexical impact of information technologies is also manifested in the functional areas of the language. For example, the differences between the terminology used in social networks, the language of technical documents, and everyday conversational language are decreasing, which leads to the expansion of the social and communicative role of language. As a result, language is becoming more widespread as a tool both in the field of technology and in other layers of society, and its use is becoming more accessible.

As a result, the change in the lexical level of information technologies serves both to enrich the language and to increase its functionality in the global space. However, in this process, the preservation of national language features and the adaptation of technological terms to the local language remain important issues for the future development of the language. In this regard, it is necessary to conduct continuous research in the field of language policy and terminology regulations and to apply a systematic approach to the integration of new terms into the national language.

*Syntactic and morphological changes.* The rapid development and widespread use of modern communication tools have led to fundamental changes in the way people communicate. In particular, on platforms such as SMS, instant messaging programs, and social networks, users prefer quick, effective, and minimally time-consuming communication methods. This trend leads to simplifications at the syntax and morphology levels of language (Volkova, 2020; Smith, 2018).

Toponimlərin tədqiqi ilə bağlı fərqli yanaşma və istiqamətlərin meydana çıxması, bu sahədə müxtəlif tədqiqat metodlarının tətbiqi mövcud problemlərin aradan qaldırılması yönündə atılan addımlardan hesab oluna bilər. Təəssüf ki, hələ də toponimlərin şərhini çətinləşdirən bir çox problemlər, toponimlərin qaynaqlarının müəyyənləşdirilməsi ilə bağlı mübahisəli məsələlər mövcuddur. Bu problemlərin həlli üçün toponimlərin qeydə alınması, müxtəlif formalaşma modelləri və toponimik vahidlərin struktur xüsusiyyətləri sistemli şəkildə tədqiqata cəlb olunmalıdır. Toponimləri linqvistik hadisə kimi araşdırmaq, toponimlərin tipoloji baxımdan tədqiqatını aparmaq, toponimika problemlərini öyrənmək, eyni zamanda, toponimlərin tarixi inkişafını nəzərdən keçirmək, toponimləri dünyanın dil mənzərəsinin tərkib hissəsi kimi öyrənmək, toponimləri regional baza məlumatlarının formalaşması üçün resurs kimi araşdırmaq, toponimləri söz əmələ gətirmə imkanları baxımından tədqiq etmək və digər bu kimi məsələlər müasir dövrdə aktuallığı ilə diqqət çəkən problemlərdəndir. Onların araşdırılması isə fərqli və yeni yanaşma və üsulların tətbiqini labüd edir.

Toponimlərin əmələ gəlməsinin konseptual əsaslarını müəyyən etmək üçün onları leksik-semantik qruplara görə təsnif etmək və onların formalaşmasında konseptual əsas – baza kimi çıxış etmiş əlamətləri müəyyən etmək zəruridir. Bu baxımdan yanaşdıqda XVIII əsrin 20-ci illərində işlənib hazırlanmış "Tiflis əyalətinin müfəssəl dəftəri" də dövrünün ictimai-siyasi və mədəni mənzərəsini əks etdirməklə yanaşı, əhatə etdiyi regionda məskunlaşmış əhalinin dünyagörüşü və həyat tərzi ilə bağlı geniş məlumatı özündə əks etdirən dəyərli mənbə kimi diqqəti cəlb edir.

Keçmişdə baş vermiş etnik-mədəni proseslərin yenidən canlandırılması üçün etibarlı mənbə kimi toponimlərə müraciət etmək güclü ənənəyə malikdir. Toponimlərin ontologiyası onun sosial-mədəni mahiyyətini müəyyən etməyə, yəni toponimik leksemin sosial-mədəni və linqvistik xarakter daşıyan söz kimi meydana çıxma səbəbini müəyyən etməyə imkan verir. Toponimlərin sosial-mədəni və linqvistik mahiyyətinin birinci komponenti toponimlərin yaranması üçün sosial şərait və sosial transformasiya ilə bağlı proseslər, onların müəyyən ərazi daxilində uzun müddət ərzində baş

verən davamlı, uzunmüddətli linqvistik təmaslarıdır. Toponimlərin formalaşmasına təsir edən sosial-linqvistik amillərə, ilk növbədə, müəyyən bir ərazidə yaşayan əhalinin etnik tərkibi ilə bağlı amillər, bu ərazidə hansı tarixi, mədəni, sosial transformasiyaların baş verməsi təsir göstərir. V.K.Juravlyovun konvergent-divergent çevrilmələr kimi səciyyələndirdiyi bu transformasiyalar (Zhuravlev, 1982) toponimlərlə bağlı tədqiqatlarda müxtəlif etnik qrupların bir yerdən başqa yerə miqrasiyası, bir ərazidən digər əraziyə köçürülməsi, bir neçə ölkədə yaşayan bir neçə xalqın müxtəlif növ linqvistik təmaslarının həyata keçirilməsi prosesində bir araya gətirilməsi prosesləri kimi səciyyələndirilir.

Coğrafi adlar mədəni kodun daşıyıcısı kimi dinləyicinin şüurunda mədəni-tarixi xarakterli assosiativ əlaqələri aktuallaşdıraraq mədəniyyətin verballaşdırılmış əlamətləri funksiyasını yerinə yetirir. Toponimlər hər hansı bir etnik qrupun həyatının mədəni və fəlsəfi qavrayışının vacib hissəsidir, çünki onlar sosial və tarixi təcrübəni - ümumbəşəri və milli təcrübəni birləşdirir, mədəni məlumatları özündə saxlayır və əks etdirir, yaşadır. Toponimlərin linqvistik baxımdan araşdırılmasında ontoloji əhəmiyyətli amillərə təmasda olanların müxtəlif etnik qrupa mənsubiyyəti də daxildir. Müəyyən bir ərazidə tarixən ümumi dil, mədəni-psixoloji mühit kimi ortaq dəyərlərə malik insanların sabit toplusu toponimlərin semantik xüsusiyyətlərinin formalaşmasına təsirsiz ötüşmür. "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə təsadüf olunan toponimlərin bir çoxu etnotoponimlər olduğundan rəngarəng etnik birliyin nümunəsini əks etdirən mənzərə meydana çıxır. Belə ki, "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə qeydə alınan Dəmirçilər, Çavuşlar, Qəmərli, Muğanlı, Qaramanlı kimi toponimlər tarixi tayfa adları ilə bağlıdır. "Qəmərli" toponimi qədim türk tayfalarından olan qamer//kimmer etnonimi ilə izah olunur (Məmmədli, 2006, s. 34), Muğanlı oroniminin əsasında etnik qrupun adı olduğu qeyd olunur (Məşədiyev, 2010, s. 76-77), XVI əsrdə qızılbaş tayfaları sırasında adları çəkilən dəmirçilərin sonralar qazax tayfa birliyinin ən qüdrətli tirələrindən biri olduğu bildirilir (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007, s. 224). Bu fakt, yəni toponimlərin semantikasında müxəlif tayfa birliklərinin həyat tərzi, dünyagörüşü, adətləri ilə bağlı mədəni elementlərin izinin qorunub saxlanılması ehtimalı onların ekstralinqvistik aspektdən araşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

Toponimlərin təhlilinə aktual linqvistik yanaşma onların müəyyən tematik və semantik qruplar kimi sistemli təhlilinə və öyrənilməsinə yönəldilməlidir. Belə ki, leksik-semantik qrup dilin leksik sisteminin əsas struktur vahidi kimi onun mahiyyət xüsusiyyətlərini əks etdirir. Dil sistemində bu leksik-semantik qruplardan biri də toponimlərlə təmsil olunur. Tematik qrup dedikdə, "leksik-semantik qrupda sözlərin məna yaxınlığı baxımdan əlaqələndirilməsi" nəzərdə tutulur (Gak, 1977, s. 150). Beləliklə, dilin leksik-semantik sistemində fəaliyyət göstərən toponimlərin tematik qrupuna məna uyğunluğuna görə bir qrupda birləşmiş sözlər toplusunu daxil etmək olar. Toponimik söz qrupu coğrafi adları, onların fəaliyyətini, məna və mənşəyini, quruluşunu, yayılma arealını, inkişafını və zamanla dəyişməsini əks etdirən xüsusi tematik söz qrupudur.

Toponimlər sistemində müxtəlif dövrlərə aid semantik təbəqələrin meydana çıxması ilə bağlı məsələləri araşdırmaq üçün qədim dövrlərdə dil təmaslarını işıqlandırmaq, dilin digər dillərlə təmasını araşdırmaq lazımdır. K.M.Musayev hesab edir ki, türk dillərinin dünyanın digər dilləri ilə əlaqəsi dillərin bütün səviyyələrində - lüğət, fonetika, eləcə də qrammatika sahələrində özünü göstərir (Musaev, 1984, s. 126). Tədqiqatlar göstərir ki, dillərin təmasına yalnız dil səviyyəsində bir proses kimi baxmaq olmaz, çünki onlar müəyyən dillərdə danışan sosial qruplar, insan qrupları arasında təmasın nəticəsidir. V.K.Juravlyov dil təmaslarını sosialemlərin fəaliyyətinin izləri kimi səciyyələndirərək qeyd edirdi ki, təmasda olan "özlüyündə dillər deyil, dil qrupları, sosialemlər"dir (Zhuravlev, 1982, s. 16). Müəllifin fikrincə, dil inkişafının məlum konvergent-divergent proseslərinin arxasında ictimai inkişafın konvergent-divergent prosesləri dayanır. Birləşən və ya uzaqlaşan dillərin özləri deyil, onları danışan qruplar, deməli, ictimai fəaliyyətin izləri hesab edilən dil təmasları coğrafi obyektlərin təyin edilməsində ifadə olunan müəyyən bir bölgənin sakinlərinin fəaliyyətinin izlərini daşıyır. Konvergent-divergent sosial çevrilmələr də dil təması prosesində həyata keçirilir.

Beləliklə, toponimik sistemlərin tədqiqi – "coğrafi adların formalaşması prosesində və onların müasir sabitliyində müntəzəm olaraq təkrarlanan spesifik əlamətlər və ya işarələr" məcmusudur (Zhuravlev, 1982, s. 114). Bu prosesdə linqvistik araşdırma ilə yanaşı, etnosun ümumi dünyagörüşü, xalqın keçmişi və bu günü, digər xalqlarla qarşılıqlı əlaqə kimi məsələlər də nəzərə alınmalıdır. Toponimlərin toposistemin elementi kimi linqvokulturoloji nöqteyi-nəzərdən təhlili həm dil sistemində, həm də müəyyən linqvomədəni birliyin konseptual mənzərəsində toponimlərin yerini müəyyən etməyə imkan verir. Toponimlər milli şüurun - dil şüurunun formalaşmasında mühüm rol oynayır. Onlar mədəni irs kimi qeyd olunan dəyərlər və ideyalar sistemi ilə əlaqələndirilir və fərdin müvafiq dil mədəniyyətinə mənsubluğunun rəmzi rolunu oynayır. Semantikası xalqın dünyagörüşü və mədəniyyətini əks etdirən xüsusi söz qrupu olan "Toponimlər coğrafiya elminin sadə terminləri deyil, semantikada parlaq mədəni komponentlərə malikdir" (Vereshchagin, Kostomarov, 2008, s. 74).

Toponimlərə müxtəlif aspektlərdən yanaşdıqda onların semantik layında əks olunan fərqli anlayışların meydana çıxması bu söz qruplarının hərtərəfli tədqiqini şərtləndirən məqamları ortaya qoyur. Coğrafi adların yalnız obyektin adlandırılması ilə məhdudlaşmayaraq, mürəkkəb məna strukturuna malik olmaqla, milli-mədəni informasiyanın əsas daşıyıcısı olan komponenti ehtiva etməsi onlara digər istiqamətlərlə yanaşı, koqnitiv aspektdən yanaşmanın da vacib olduğunu göstərir. Toponimlərə koqnitiv yanaşmanın tətbiqində biz toponimik məkan anlayışı ilə qarşılaşırıq. Bu məkan dünyanın dərki və konseptuallaşdırılması xüsusiyyətlərinin, ətrafdakı reallığın çoxsaylı adlarının və onlarla əlaqəli prinsiplərin öyrənilməsi zamanı müəyyən edilmiş əsas anlayışlardan biri olmaqla onomastik koqnitiv məkanın bir hissəsini təşkil edir. Toponimik məkan daxilində ümumi mədəni mühitdə müəyyən bir tarixi dövrdə müəyyən bir cəmiyyətin istifadə etdiyi toponimik sistemin səciyyəvi xüsusiyyətlərinin təhlili və onların müqayisəsi müəyyən ərazidə konkret linqvomədəni cəmiyyətdə fəaliyyət göstərən həm real, həm də qeyri-real (mifoloji, fantastik) toponimlər daxil olmaqla, linqvistik mənşəyindən asılı olmayaraq coğrafi obyektlərin xüsusi adlarının məcmusunu müəyyən etməyə imkan verə bilər. Toponimik məkanın məzmunu sosial-mədəni xüsusiyyətlərlə müəyyən edilir və cəmiyyətin ərazisində yaşayan etnik qrupların dünyagörüşü ilə müəyyən edilən dünyanın toponimik mənzərəsini təşkil edir. Toponimik məkanda adətən əsas (nüvə) və periferiya olmaqla toponimlər fərqləndirilir. Nüvənin mərkəzində müəyyən bir dil və mədəni birliyin bütün nümayəndələrinə məlum olan mədəniyyət hadisələri (makrotoponimlər), periferiyada isə hamıya məlum olmayan toponimlər var – bunlar mikrotoponimlərdir.

Bundan əlavə, koqnitiv yanaşma toponimlərin koqnitiv assosiativ qarşıdurmasının müəyyən edilməsini nəzərdə tutur. "Kommunikativ məkana daxil olan xüsusi adlar müəyyən uyğunlaşma mərhələlərindən keçir və istifadəçilər tərəfindən mənimsənilir, həm də onun idrak məkanını təşkil edir... Bu kontekst təkcə adın mənasını deyil, həm də xalqın mədəniyyətini, inanclarını və kainata münasibətini təqdim edir. Beləliklə, adın müsbət xüsusiyyəti formalaşır (Madieva, 2009, s. 143). Məhz bu baxımdan yanaşdıqda toponimlərin formalaşma xüsusiyyətlərinin müəyyən olunması baxımından da onların koqnitiv aspektdən tədqiqi maraq doğurur. "Koqnitiv dilçilik dili informasiyanın kodlaşdırılması və transformasiyasında rol oynayan idrak mexanizmi kimi" (Kratkii slovar' kognitivnykh terminov, 1996, s. 53-55) öyrəndiyindən, koqnitiv yanaşma coğrafi xüsusiyyətlərin kodlaşdırılması və adlandırılması prosesində dilin necə istifadə edildiyini başa düşməyə kömək edir. Koqnitiv yanaşma linqvomədəni yanaşma ilə sıx bağlıdır, onun əsas vəzifəsi dil elementlərinin milli-mədəni xüsusiyyətlərini müəyyən etmək, insanın şüurundan keçən məlumatın mədəni kod (dil işarəsi) vasitəsilə necə kodlandığını öyrənməkdən ibarətdir. Bu baxımdan yanaşdıqda toponimlər eyni zamanda milli kolorit ifadə edən dil vasitəsi kimi xidmət edir. Bu söz qrupu insanların zehni fəaliyyətinin nəticələrini, sosial-mədəni təcrübəsini əks etdirən lüğət kateqoriyasına aiddir. "Milli koloritin xarici spesifikliyi xalqın mədəniyyətində, onun xarakterində, adət-ənənələrində, əxlaqında, hisslərində, baxışlarında özünü göstərir. Milli koloritin daxili spesifikliyi iki kateqoriyada özünü göstərir. Birinci kateqoriyaya milli həyat tərzi ilə bağlı söz və anlayışlar daxildir. Bunlar toponimlər, onomastika, realiya, ailə münasibətlərini bildirən sözlər, milli və dini ayinlər, dövrün əlamətləri, milli ədəb-ərkan, xarici görünüş, hərəkətlər və s.-dir

(Faizullaeva, 1979). Deməli, toponimlər təkcə dil kodu kimi deyil, həm də mədəni kod kimi çıxış edən sözlərdir. Mədəni kod dedikdə, "məlumatların ötürülməsi, işlənməsi və saxlanması üçün eyni simvollar toplusu şəklində təqdim edilməsi (kodlaşdırılması) mümkün olan işarələr və müəyyən qaydalar sistemi nəzərdə tutulur. Kodeksləri tənzimləyən qaydalar eyni mədəniyyətdən olan şəxslər arasında razılaşma ilə müəyyən edilir" (Karabulatova, 2004, s. 241). Şmelyov qeyd edir ki, dil və düşüncə tərzi bir-biri ilə bağlıdır. Bir tərəfdən dil bu dildən istifadə edən mədəniyyətin danışanları üçün aktual görünən dildənkənar reallığın xüsusiyyətlərini əks etdirir, digər tərəfdən, dili və xüsusən sözlərin mənasını mənimsə-məklə, natiq dünyaya ana dilinin təklif etdiyi nöqteyi-nəzərdən baxmağa başlayır və ona uyğun mədəniyyətə xas olan dünya konseptuallaşdırılması ilə razılaşır. Bu mənada linqvistik spesifik anlayışları ehtiva edən sözlər eyni zamanda ana dilində danışanların düşüncə tərzini əks etdirir və formalaşdırır. Bu görüşləri əks etdirən antroposentrik yanaşma dilin insan şüurunun və təfəkkürü-nün bir forması kimi öyrənilməsinə diqqət yetirir və dili insan həyatı prosesində nəzərdən keçirir. Antropoloji prinsip dilçilik elmi qarşısında iki əsas problem qoyur: insanın öz psixikası, təfəkkürü, mədəniyyəti və inancları ilə bir tərəfdən dili necə formalaşdırıb ona təsir etməsi, digər tərəfdən isə dilin mənəviyyata və insanın davranış normalarına təsiri.

## Nəticə

Beləliklə, toponimlərin hərtərəfli təhlili göstərir ki, onlar sosial sistemin transformasiyası nəticəsində formalaşmış söz qruplarıdır və bir region daxilində birgə yaşayış zamanı insan fəaliyyətinin izlərini əks etdirir. Məsələyə qnoseoloji aspektdən yanaşsaq, müəyyən bir regionun toponimlərinin formalaşmasında koqnitiv, mədəni amillərin rolu, bu məsələlərə antroposentrik yanaşma, toponimlərin daxili məzmunu, funksional yükü, eləcə də ümumilikdə dil sistemində yeri kimi vacib məqamların araşdırılmasının aktuallığı diqqət çəkir. Tarixən inkişaf edərək zamanla müəyyən dəyişikliyə uğrayan toponimlər insan həyatının, fəaliyyətinin bütün sahələrinə aid anlayışları özündə əks etdirir. Bu baxımdan yanaşdıqda toponimlərin tədqiqi koqnitiv, linqvokultural, antroposentrik və tarixi-kontaktoloji paradiqmaların daxil olduğu kompleks yanaşma əsasında mümkündür.

## Ədəbiyyat

1. *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*. (2007). II cild. Elm.
2. Boldyrev, N.N, Alpatov, V.V. (2008). Kognitivno-matrichnyi analiz angliiskikh khristianskikh toponimov. *Voprosy kognitivnoĬ lingvistiki*, 4 (017), 5-14.
3. Faizullaeva, R. (1979). *Natsional'nyi kolorit i khudozhestvennyi perevod*. NAN.
4. Gak, G.V. (1977). *Sopostavitel'naya leksikologiya (na materiale frantsuzskogo i russkogo yazykov)*. Nauka.
5. *Kratkii slovar' kognitivnykh terminov*. (1996). Nauka.
6. Karabulatova, I.S. (2004). Toponimicheskii kod v soznanii sovremennogo nositelya russkogo yazyka. *II Mezhdunarodnyi kongress issledovatelei russkogo yazyka «Russkii yazyk: istoricheskie sud'by i sovremennost'», Sbornik tezisov*.
7. Məmmədli, Ş. (2006). *Gürcüstan azərbaycanlıları. Gürcüstanda Azər Türkləri məskunlaşan inzibati-ərazi vahidləri. Statistik-ensiklopedik bilgilər*. Elm və təhsil.
8. Məşədiyev, Q. (2010). *Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında)*. Elm və təhsil.
9. Musaev, K.M. (1984). *Leksika tyurkskikh yazykov*. Nauka.
10. Madieva, G.B. (2009). *Imena sobstvennye v russkom lingvokul'turnom prostranstve Kazakhstana. Russkii yazyk kak yazyk mezhkul'turnogo i delovogo sotrudnichestva v polilingval'nom kontekste Evrazii*. SaryarkA.
11. Vereshchagin, E.M., Kostomarov, V.G. (2005). *Yazyk i kul'tura*. Indrik.
12. Zhuravlev, V.K. (1982). *Vneshnie i vnutrennie faktory yazykovoi ehvolyutsii*. Nauka.

Daxil oldu: 03.09.2025
Qəbul edildi: 10.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/90-93

**Şəlalə Dünyamalıyeva**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
https://orcid.org/0009-0008-5459-3506
selale.camalova@mail.ru

# Həsən Seyidbəyli yaradıcılığı (1970-80-ci illər)

## Xülasə

Azərbaycan mədəniyyətinin görkəmli simalarından biri, Xalq artisti Həsən Seyidbəyli milli kino sənətinə həm rejissor, həm də ssenarist kimi böyük töhfələr vermişdir. Ədəbiyyat sahəsindəki bilikləri və yazıçılıq təcrübəsi onun ssenarilərinə də öz təsirini göstərmişdir. H.Seyidbəylinin filmləri yüksək bədii dəyərləri ilə yanaşı, milli irsin təbliğatında da mühüm rol oynamış, Azərbaycan xalqının adət-ənənələrini, tarixini və mədəniyyətini böyük ustalıqla əks etdirmişdir. Yaratdığı hər bir ekran əsəri böyük bir hadisəyə çevrilirdi. Ərsəyə gətirdiyi filmlərdə yalnız dövrünün sosial problemlərini deyil, həm də insan xarakterinin dərinliklərini açmağa çalışırdı. Sənətinə olan sevgisi H.Seyidbəylini daha böyük zirvələr fəth etməyə ruhlandırırdı.
***Açar sözlər:*** *film, ssenari, kino, tarix, mədəniyyət*

**Shalala Dunyamaliyeva**
Azerbaijan State University of Culture and Art
https://orcid.org/0009-0008-5459-3506
selale.camalova@mail.ru

# Hasan Seyidbayli's Works (1970-80s)

## Abstract

One of the prominent figures of Azerbaijani culture, People's Artist Hasan Seyidbayli, made great contributions to the national cinema as both a director and a screenwriter. His knowledge in the field of literature and writing experience also influenced his scripts. H. Seyidbayli's films, along with their high artistic values, also played an important role in the promotion of national heritage and skillfully reflected the customs, history, and culture of the Azerbaijani people. Each screen work he created became a great event. In the films he brought to the stage, he tried to reveal not only the social problems of his time, but also the depths of human character. His love for his art inspired H. Seyidbayli to conquer greater heights.
***Keywords:*** *film, script, cinema, history, culture*

## Giriş

Azərbaycan mədəniyyətinin görkəmli simalarından biri, Xalq artisti Həsən Seyidbəyli milli kino sənətinə həm rejissor, həm də ssenarist kimi böyük töhfələr vermişdir. Ədəbiyyat sahəsindəki bilikləri və yazıçılıq təcrübəsi onun ssenarilərinə də öz təsirini göstərmişdir. H.Seyidbəylinin filmləri yüksək bədii dəyərləri ilə yanaşı, milli irsin təbliğatında da mühüm rol oynamış, Azərbaycan xalqının adət-ənənələrini, tarixini və mədəniyyətini böyük ustalıqla əks etdirmişdir (Bayramova, 2020, Əbdülrəhmanlı, 2020; ).

Həsən Seyidbəyli 22 yanvar 1920-ci ildə anadan olmuşdur. Təxminən 35 ili əhatə edən yaradıcılıq dövründə çox sayda sənədli və bədii filmlər üzərində işləmiş, kinematoqrafçı kadrların yetişməsində böyük rol oynamışdır.

Onun “Uzaq sahillərdə” (1958), “Sən niyə susursan?” (1965), “O qızı tapın”, (1970), “Nəsimi” (1973), “Ömrün səhifələri” (1974), “Xoşbəxtlik qayğıları” (1976), “Onun bəlalı sevgisi” (1980) və

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

digər maraqlı filmləri milli kino tarixində xüsusi yer tutur. Yaratdığı hər bir ekran əsəri böyük bir hadisəyə çevrilirdi. Ərsəyə gətirdiyi filmlərdə yalnız dövrünün sosial problemlərini deyil, həm də insan xarakterinin dərinliklərini açmağa çalışırdı. Sənətinə olan sevgisi H.Seyidbəylini daha böyük zirvələr fəth etməyə ruhlandırırdı. Müsahibələrinin birində o, deyirdi: "Kino rejissoru olmaq ən çətin, ən mürəkkəb və demək olar ki, fövqəladə sənətə sahib olmaq deməkdir. Əsl kino rejissorunun insanlara deyiləsi vacib, dərin, ümumbəşəri fikri, sözü, həqiqəti olmalıdır. Kino rejissoru öz mövzusunun, öz qəhrəmanlarının fədaisi, vurğunu olmalıdır."

**Tədqiqat**

Ötən əsrin 40-cı illərindən fəaliyyətə başlayan rejissor hələ o vaxtlar bir sıra maraqlı işlərə imza atsa da, 1970-ci illəri onun yaradıcılığının kamillik dövrü hesab etmək olar. H.Seyidbəylinin bir-birinin ardınca çəkdiyi filmlər orijinallığı ilə seçilir, onu bir rejissor kimi digər sənətçilərdən fərqləndirirdi. Özünə qarşı çox tələbkar və məsuliyyətli olması çəkdiyi filmlərin uğurunun qarantı idi. H.Seyidbəyli çəkilişlərdən öncə məşqləri ciddi şəkildə aparır və aktyoru çəkiliş meydançasına tam hazır vəziyyətdə çıxarırdı. Ciddi məşq proseslərinə baxmayaraq, çəkiliş zamanında aktyora sərbəstlik verir, ona özünü göstərməyə imkan yaradırdı.

Yaradıcılığında bütün yaş kateqoriyalarının, xüsusilə gəncliyin maraqlarını nəzər-diqqətində saxlayan H.Seyidbəyli daim yeni yollar, yeni bədii vasitələr axtarışında idi. O, deyirdi: "... Bugünkü gənclik iyirmi il qabaqkı gənclikdən xeyli fərqlənir, deməli, bugünkü gəncliklə başqa, tamamilə yeni bir dildə danışmaq lazımdır. Elə bir dildə ki, hələ püxtələşməmiş, həyatda öz yerini əməlli-başlı tutmamış, özü də axtarışda olan, mübahisə edən, bir şox suallara cavab axtaran gəncin məsləhətçisi ola biləsən. Elə məsləhət verəsən ki, sənin əsərini yarıya vurmamış, büküb tullamasın..." (Əbdülrəhmanlı, 2021).

Bu baxımdan, H.Seyidbəyli yaradıcılığının maraqlı nümunələrindən biri 1970-ci ildə çəkilmiş "O qızı tapın" filmidir. Azərbaycan sovet milisinin 50 illiyi münasibəti ilə çəkilmiş filmdə milis işçilərinin dövlət mülkiyyətini dağıdanlara qarşı mübarizəsi təsvir olunmuşdur. İnsanları düzlüyə, doğruluğa çağıran ekran əsərində avtomobil qəzası nəticəsində həlak olmuş bir nəfərin təhqiqat işindən bəhs olunur. Özünə "satış bazarı" axtaran əmtəəşünas Kazımlı (Səyavuş Şəfiyev) ehtiyatsızlıq edir. Milis işçiləri bundan şübhələnir və onu izləməyə başlayırlar. Kazımlı və gizli tikiş sexi təşkil etmiş əlaltıları bundan duyuq düşürlər. Kazımlı ələ keçsə, susmayacaq, qorxusundan hamını ələ verəcəkdi. Ona görə də "dostları" qabaqcadan qəsd hazırlayıb, Kazımlını maşın qəzasına uğradırlar.

Detektiv janrında çəkilmiş filmdə rolları Şəmsi Bədəlbəyli (Zeynalov), Tofiq Mirzəyev (Rüstəm), Hamlet Xanızadə (Dadaş), Eldəniz Zeynalov (Səyavuş), Səfurə İbrahimova (Xalidə), Sevil Qasımova (Əminə), Ramiz Məlikov (Ziya), Nəsibə Zeynalova (Meyransa), Muxtar Maniyev (Hacıbala), Ağahüseyn Kərimov (Emin Şirinov), Hacımurad Yegizarov (Xosrov Miriyev) və digər istedadlı aktyorlar ifa ediblər. 1970-ci ildə Həsən Seyidbəylinin Maqsud İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Bizim Cəbiş müəllim" filmi Azərbaycan kino tarixində Böyük Vətən Müharibəsi mövzusunda çəkilmiş ən çox sevilən filmlər sırasındadır. Filmdə işlənən saysız-hesabsız kəlmələr bu gün də dillər əzbəridir. Ekran əsərindəki hadisələr İkinci Dünya müharibəsi illərində Bakıda cərəyan edir (Babayev, 2018). Ekran əsərində müharibə illərində qələbə naminə hər cür maddi çətinliklərə dözüb, ailəsini halal zəhmətlə dolandırmağa çalışan, vətənin azadlığını hər şeydən yüksək tutan sadə adamların mənəvi ucalığı tərənnüm olunur. Rolları Süleyman Ələsgərov (Cəbiş), Şəfiqə Məmmədova (Cəbişin arvadı), Muxtar Maniyev (Nəcəfov), Səfurə İbrahimova (Nəcəfovun arvadı), Ziya Seyidbəyli (Namiq), Nəsibə Zeynalova (Suğra xala), Əliağa Ağayev (Əbülfəz), Aqil Ağacanov (Makedon), Svetlana Morşinina (Tanya), Cahangir Novruzov (Rəsulov), Fazil Salayev (Mıqqı), Məryəm Seyidbəyli (Şəfiqə), Hamlet Xanızadə (Kapitan), Kamil Qubuşov (müəllim), Cabbar Əliyev (müəllim), Məmmədrza Şeyxzamanov (Poçtalyon), Sona Aslanova (ana) və digər aktyorlar ifa ediblər.

Rejissorun 1973-cü ildə çəkdiyi, mükəmməl işlərindən biri olan "Nəsimi" filmi isə bütün dövrlərin maraqlı ekran əsərlərindən sayılan mükəmməl sənət nümunəsidir. H.Seyidbəylinin ilk dəfə bədii filmə gətirdiyi, ziddiyyətlərlə dolu olan Nəsimi dövrünün yüksək bədii keyfiyyətlərlə

təqdimatı tamaşaçıları bu gün də valeh etməkdədir. Film görkəmli şairin 600 illiyinə həsr olunmuşdu.

Filmin titrinə yazılan cümlələr elə ilk saniyələrdən tamaşaçıların diqqət və marağını özünə çəkir: "Bu film orta əsrlərin zülməti içərisində günəş kimi parlayan Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin mürəkkəb və faciəli taleyindən bəhs edir. XIV əsrin axırı XV əsrin əvvəllərində Azərbaycan xalqı bir tərəfdən yadelli işğalçıların, digər tərəfdən bir-birilə aramsız müharibələr aparan yerli feodallarla irticaçı ruhanilərin zülm və talanlarına məruz qalmışdı. Nəsimi yalnız dövrünün ictimai haqsızlıqlarına qarşı çıxan şair və insan ləyaqətini müdafiə edən humanist filosof olaraq qalmamışdı; onun yaradıcılığında hürufilik hərəkatının bir çox ideyaları da öz əksini tapmışdı. Film Nəsimi irsinin bizim üçün daha qiymətli ideyaları zülmə və istibdada qarşı üsyan motivləri əsasında yaradılıb".

Filmdə maraqlı obrazlar yaradan aktyor və aktrisalar – Rasim Balayev (İmadəddin Nəsimi), İsmayıl Osmanlı (Fəzlullah Nəimi), Xalidə Quliyeva (Fatma), Kamal Xudaverdiyev (Yusif), Tofiq Mirzəyev (Dövlət bəy), Almaz Əsgərova (Şəms), Səməndər Rzayev (Şirvanşah I İbrahim), Məmmədrza Şeyxzamanov (Şeyx Əzəm), Yusif Vəliyev (Teymurləng), Muxtar Maniyev (Miranşah), Əbdül Mahmudov (Dərviş) Hürufi təriqətinin nəğməkarı, insan zəkası, istedadı və hisslərini gözəl tərənnüm edən İmadəddin Nəsiminin yaşadığı dövrün təsvirini son dərəcə mükəmməl şəkildə tamaşaçıya çatdıra bilirlər.

H.Seyidbəylinin böyük maraqla izlənilən filmlərindən biri də 1974-cü ildə çəkilmiş "Ömrün səhifələri" filmidir. Dram janrında olan kinoalmanax "Rəqiblər", "Baladadaşın ilk məhəbbəti" və "Nəğmə dərsi" adlı 3 novelladan ibarətdir. Həyat hadisələrini özündə ehtiva edən üç novellada rolları Şəmsi Bədəlbəyli (telefon gözləyən adam), Fazil Salayev (Fazil), Eldəniz Zeynalov (Eldəniz), Sona Aslanova (telefon gözləyən adamın arvadı), Muxtar Maniyev (Muxtar), Novruz Axundov (pivə içən), Ələsgər Məmmədoğlu (Ələsgər); Şamil Süleymanov (Baladadaş), Ruhəngiz Musəvi (Sevinc), Mirvari Novruzova (Sevincin anası), Yusif Muxtarov (Sevincin nişanlısı); Əliabbas Qədirov (ata), Fəxri Həsənov (Fəxrəddin - oğul), Elxan Ağahüseynoğlu (satıcı) ifa edirlər. İnsan münasibətlərindən bəhs edən film bu gün də tamaşaçılar tərəfindən sevə-sevə izlənilir.

Rejissorun 1976-cı ildə çəkdiyi "Xoşbəxtlik qayğıları" filmi də dövrün tələblərinə cavab verən, olduqca maraqlı və diqqətçəkən işlərdəndir (Əliyev, 2005; Əliyeva, 2015). Dram, komediya və məhəbbət janrlarını özündə birləşdirən film xoşbəxtliyin təkcə maddi nemətlərdən asılı olmadığından bəhs edir.

Müsahibələrindən birində H.Seyidbəyli qeyd edirdi ki: "... "Xoğbəxtlik qayğıları" filmi bugünkü gəncləri narahat edən problemlərlə əlaqədar rejissorluq düşüncələrimin bir növ davamıdır... Bu filmdə məni insan səadətini tədqiq etmək məsələsi maraqlandırıb və bu tədqiq xoşbəxtlik rüşeymlərini məhv edən "əşya" xəstəliyi, meşşanlığa can atmaq kimi eybəcər meyillərə qarşı çevrilib. Filmin gənc qəhrəmanları keçmişin mənfur qalıqlarına qarşı inandırıcı surətdə və inamla mübarizə aparır, sonda isə köhnə qaydalara tabe olan analarını və qardaşlarını bu həqiqətə inandırırlar" (Dadaşov, 2001; İsmayılova, 2014). Rolları Firuz Babayev (İbrahim), Şəfiqə Məmmədova (Rüxsarə), Xalidə Quliyeva (Xalidə), Şükufə Yusupova (Gülxar), Dilarə Hüseynova (Səkinə), Cəmilə Ağayeva (Zəhra), Rəna Cəfərova (Sevinc), Nəsibə Zeynalova (Kişvər), Zahirə İsmayılova (Zəkiyyə), Əli Zeynalov (Zəkiyyənin atası), Rasim Balayev (Sənan), Tahir Yaxın (Mürsəl), Ələsgər Məmmədoğlu (Əlövsət), Muxtar Maniyev (Şahlar) və başqaları ifa edirlər.

1980-ci ildə çəkilmiş "Onun bəlalı sevgisi" filmi isə H.Seyidbəylinin işlədiyi son film oldu (Müşfiq, 2018). Dram, komediya və məhəbbət janrında çəkilmiş filmin bədii rəhbəri olan H.Seyidbəyli insan münasibətlərinin incə ştrixlərlə, bədii cəhətdən yüksək səviyyədə təsvirinə nail olub. Diplom işi üçün istehsalat idarəetməsi mövzusunu seçən Bəhruz adlı tələbə müdafiəyə yaxşı hazırlaşmaq məqsədilə tikiş fabrikində direktor katibəsi vəzifəsinə işə düzəlir. İstehsalatla yaxından tanış olandan sonra gənc sosioloq aydınlaşdırır ki, məhsulun aşağı keyfiyyətdə olmasının səbəbi müəssisəyə düzgün rəhbərlik edilməməsindədir. Fabrik direktoru Şövkət xanımla işgüzar münaqişə və Bəhruzla Şövkətin bir-birini təmiz qəlblə sevmələri filmin əsas süjet xəttini təşkil edir.

Rolları Nataliya Tağıyeva (Şövkət), Mikayıl Kərimov (Bəhruz), Hacıbaba Bağırov (Qaraxalov), Tofiq Mirzəyev (Sabirov), Barat Şəkinskaya (nənə), Sona Mikayılova (Xalidə) və digərləri ifa edirlər. Həsən Seyidbəylinin 1970-80-ci illər ərzində şəkdiyi filmlər dövrün tələbləri baxımından son dərəcə maraqlı və uğurlu ekran əsərləridir (Kino yenilikləri, 1977; Rzayev, 2011). Həsən Seyidbəyli sənət aləmində təkcə yaradıcılıqla kifayətlənməmiş, ictimai xadim kimi də böyük xidmətlər göstərmişdir. 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin birinci katibi vəzifəsində çalışmış, 1975-1980-ci illərdə qurumun Sədri seçilmişdir. O, çəkdiyi dolğun və baxımlı ekran əsərləri ilə milli kino sənəti tarixinə yeni və maraqlı səhifələr yazmışdır.

## Nəticə

Sənət uğurlarına görə fəxri adlara, çox sayda mükafatlara layiq görülən H.Seyidbəyli bu gün də yüksək qiymətləndirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19 avqust 2020-ci il tarixdə görkəmli sənətkarın 100 illik yubileyinin qeyd olunması barədə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Həsən Seyidbəyli ssenari müəllifi olduğu və rejissor kimi quruluş verdiyi yüksək bədii keyfiyyətə malik, eləcə də ifadə vasitələrinin rəngarəngliyi və süjet xəttinin dolğunluğu baxımından seçilən filmlərlə Azərbaycanın kino sənəti salnaməsinə yeni səhifələr yazmışdır. Onun həyat həqiqətlərinə sədaqətlə yaradılan və mənəvi zənginlik, əxlaqi saflıq, dərin zövq aşılayan uğurlu ekran əsərləri, xüsusilə "Nəsimi" tarixi bədii filmi milli kinematoqrafiyanın nailiyyətləri sırasında özünəməxsus layiqli yer tutur. Həsən Seyidbəyli Azərbaycan Kinematoq-rafçılar İttifaqına rəhbərlik etdiyi uzun illər ərzində dünya kinosunun qabaqcıl təcrübəsindən lazımınca bəhrələnməklə respublikada kinematoqrafiya fəaliyyətinin təşkilinə və kino sənətinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Meydana gətirdiyi sanballı nəsr nümunələri Həsən Seyidbəyliyə ədəbiyyat aləmində geniş şöhrət qazandırmışdır" (Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd olunması barədə Sərəncamı, 2020).

1980-ci ildə dünyasını dəyişən Həsən Seyidbəyli onu tanıyanların xatirələrində və milli mədəniyyət tariximizə bəxş etdiyi dəyərli sənət incilərində yaşayır və bundan sonra da yaşayacaqdır.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd olunması barədə Sərəncamı*. (2020).
2. Babayev, B. (2018). Həsən Seyidbəyli yaradıcılığının nəsr təkamülü: "Cəbhədən-cəbhəyə". *Ədəbiyyat qəzeti, 29 dekabr*, 25.
3. Bayramova, Z. (2020). Sənət tariximizdə ssenarist, rejissor, yazıçı Həsən Seyidbəyli dünyası. *"Səs" qəzeti, 20 avqust*.
4. Dadaşov, A. (2001). İmran Qasımov və Həsən Seyidbəylinin ssenariləri. *Ssenari yaradıcılığı*, 81-95.
5. Əbdülrəhmanlı, N. (2020). *H.Seyidbəylinin yaradıcılığı və sosial-mənəvi problemlərə baxış. Azərbaycan kino sənəti tarixi. 1961-1991-ci illər*. Qanun.
6. Əbdülrəhmanlı, N. (2021). *H.Seyidbəylinin yaradıcılığı*. Qanun.
7. Əliyev, R. (2005). *Azərbaycan kino tarixindən*. Elm.
8. Əliyeva, L. (2015). Həsən Seyidbəylinin filmlərində milli motivlər və humanist ideyalar. *Azərbaycan Kinoşünaslıq jurnalı*, 2, 34-47.
9. İsmayılov, A. (2014). *Kino və dramaturgiya: teoriya və praktika*. Elm və Təhsil.
10. *Kino yenilikləri*. (1977). 1 avqust.
11. Müşfiq, Ş. (2018). Həyatı yazan, yazdığını ekranlaşdıran sənətkar - Həsən Seyidbəyli. *525-ci qəzet. 22 dekabr*, 16.
12. Rzayev, T. (2011). *XX əsr Azərbaycan kino rejissorları*. Şərq-Qərb.

Daxil oldu: 08.09.2025
Qəbul edildi: 09.12.2025

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

DOI: https://doi.org/10.36719/2789-6919/53/94-98

**Xəyalə Söhbətova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-8405-2280
murselsohbetov@gmail.com

# Bəxtiyar Vahabzadə yaradıcılığında frazeologizmlərin üslubi mövqeyi

**Xülasə**

Frazeoloji vahidlər nəzm və nəsr əsərlərində geniş şəkildə istifadə olunan üslubi vasitələrdir. Dilçilik elmində leksikologiya bəhsinin daxilində tədris edilən frazeologizmləri leksik üslubi vasitələrə aid edə bilərik. Lakin sabit söz birləşmələrinin ekspressiv-emosional funksiyası nəzm əsərlərində ortaya çıxır. Nəsr əsərlərində isə frazemlər fikri ifadə etmək üçün vasitə hesab edilir. Beləliklə, sabit söz birləşmələri bədii nümunələrdə sintaktik – üslubi fiqur rolunda çıxış edir. Bəxtiyar Vahabzadə bədii yaradıcılığı da frazeoloji leksika baxımından seçilir. Şair frazeoloji birləşmələri inversiya vasitəsilə poetik məzmuna məharətlə uyğunlaşdırmışdır. Bu uyğunlaşma bədii dilə ritm və ahəngdarlıq bəxş etmişdir. Məqalədə şairin yaradıcılığındakı rast gəlinən frazemlər semantik cəhətdən müsbət, mənfi və neytral çalarlar ifadə etməsi baxımından üç qrupa ayrılıb. Lakin bunların sırasında mənfi frazeologizmlər üstünlük təşkil edir. Şairin vətənpərvərlik və məhəbbət mövzulu poeziyası isə müsbət frazeoloji birləşmələrin istifadəsi baxımından xüsusilə seçilir. Neytral frazeoloji vahidlər isə ekspressivlik ifadə etməsə də, məcaz qismində çıxş etmişdir. Bununla da rəngarəng çalarlara malik olan frazemlər fikri qüvvətləndirərək obrazlılıq yaratmışdır. Frazeoloji vahidlərin ikinci mühüm funksiyası xəlqilik yaratmasıdır. Bu ifadələr xalqın düşüncə tərzini əks etdirdiyi üçün səmimi təsir bağışlayır. Sadə birləşmələr vasitəsilə sənətkar öz fikirlərini daha təsirli şəkildə oxucunun gözləri qarşısında canlandıraraq dramatik səhnə yaradır.

***Açar sözlər:*** *bədii dil, frazeologizmlər, sabit söz birləşmələri, üslubi funksiya, emosionallıq*

**Khayala Sohbatova**
Baku Slavic University
Master's student
https://orcid.org/0009-0002-8405-2280
murselsohbetov@gmail.com

# The Stylistic Position of Phraseologisms in the Work of Bakhtiyar Vahabzadeh

**Abstract**

These phraseological units are stylistic means widely used in poetry and prose. In linguistics, we can attribute phraseologisms, which are taught within the scope of lexicology, to lexical stylistic means. However, the expressive-emotional function of fixed word combinations appears in poetry works. In prose works, phraseology is considered a means of expressing thought. Thus, fixed word combinations act as syntactic-stylistic figures in artistic examples. Bakhtiyar Vahabzadeh's artistic creativity is also distinguished in terms of phraseological lexis. The poet skillfully adapted phraseological units to the poetic content through inversion. This adaptation gave rhythm and harmony to the artistic language. We can divide the phraseological units found in the poet's work into three groups in terms of expressing positive, negative, and neutral shades semantically. However, positive and negative phraseologisms predominate among them. Neutral phraseological units can be used as metaphors, although they do not possess any expressiveness.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Thus, phraseological units with colorful shades strengthened the idea and created imagery. The second important function of phraseological units is to create originality. These expressions give a sincere impression because they reflect the way how people think. Through simple combinations, the writer creates a dramatic scene by reviving his thoughts more effectively before the eyes of the reader.

***Keywords:*** *artistic language, idioms, fixed phrases, stylistic function, emotionality*

## Giriş

Bədii əsərlərdə üslubi rəngarənglik, emosionallıq yaradan üslubi vasitələr sırasında frazeoloji vahidlər də yer alır. Bildiyimiz kimi, frazeoloji vahidlər dildə sabit şəkildə mövcud olan məcazi ifadələrdir. Hər bir dildə özünəməxsus yer tutan frazeologizmləri fərqləndirən cəhət də onların milli orijinallığıdır. Bu nöqteyi-nəzərdən, "idiomatik ifadələr hər bir dilin koqnitiv məhsuludur" fikrini irəli sürə bilərik. "Dilin frazeoloji fondu xalq mədəniyyətini, onun taixini və məişətini, keçmiş zamanların xarakterik cəhətlərini, insani münasibətləri, təbiəti, canlılar aləmini və s. əks etdirən xüsusi xəzinədir (Hüseynov, 2013, s. 26).

Frazeologizmlər ədəbi dilin bədii, məişət, publisistik üslub kimi müxtəlif üslublarında istifadə olunur. Publisistik və məişət üslubunda sadəcə fikrin ifadəsi üçün istifadə edilən frazemlər bədii üslubda bir qədər fərqli mövqedən çıxış edir. Bildiyimiz kimi, bədii dil obrazlılığa və emosionallığa malikdir. Məhz bu baxımdan da sabit söz birləşmələri bədii üslubda sintaktik-üslubi fiqur mövqeyindən çıxış edir (Cəfərov, 1956; Dəmirçizadə, 1962; Həsənov, 2005; Əliyev, 1967; Həsənov, 1979; Mahmudova, 2009; Mustafayeva, 2010). Onlar fikri cilalayaraq əsrarəngiz formaya salır. Bunun səbəbi frazeoloji birləşmələrin xalqın milli ruhunu dolğun şəkildə əks etdirməsi və fikrin daha inandırıcı şəkildə ifadəsinə zəmin yaratmasıdır.

**Tədqiqat**

Frazeoloji vahidlərin bədii ədəbiyyatda işlənmə tezliyi şifahi xalq ədəbiyyatı nümunələrinə qədər gedib çıxır. Bayatı, nağıl, atalar sözləri, dastan kimi folklor nümunələri frazeoloji vahidlərlə zəngindir. Bu baxımdan, "folklor nümunələri ilkin frazeoloji mənbə hesab olunur" – deyə bilərik. Frazeologizmlərin yazılı ədəbiyyatda istifadəsi isə N.Gəncəvi, M.Füzuli, S.Vurğun, M.Ə.Sabir kimi klassiklərimizin dövründən bu günə qədər özünü göstərməkdədir.

Poetik nümunələrin tədqiqi göstərir ki, bədii ədəbiyyatda frazemlərin işlənməsi təsadüfi xarakter daşımır. Bu sabit söz birləşmələri fikrin təsir gücünü artıraraq obrazlılıq yaradır. Poeziyada emosionallığın meydana gəlməsində də frazeoloji vahidlərin rolu danılmazdır. Belə ki, bədii nitqə yığcamlıq bəxş edən frazeologizmlər obrazın psixoloji portretini obrazlı şəkildə canlandırır (Süleymanova, 2013; Tahirova, 2018; Hüseynov, 2013).

Bəxtiyar Vahabzadə yaradıcılığı isə frazeoloji vahidərin rəngarəngliyi, xəlqiliyi və ifadə tərzi ilə xüsusilə seçilir. Bunun səbəbi şairin frazeoloji vahidləri poetik məzmuna məharətlə uyğunlaşdırması olmuşdur. Bəxtiyar Vahabzadə yaradıcılığında bu sabit söz birləşmələrini elə ustalıqla ifadə etmişdir ki, bunlar oxucuda emosionallıq yaradaraq onu əsərin bir iştirakçısına çevirir. Bədii dilə frazeoloji vahidlər nəinki ağırlıq gətirmir, əksinə, şeirin dilini ahəngdar edir. Təbii ki, burda şairin dilin incəliklərinə bələd olması da mühüm rol oynayır. Bəxtiyar Vahabzadə poeziyasında ən çox feillər frazeoloji vahidlərlə ifadə olunmuşdur. "Dünya bağışlamaq", "ürəyi yerindən oynamaq", "qanı qaynamaq", "qan başına vurmaq", "cin atına minmək", "canına üşütmə düşmək", "yasa batmaq", "dünya gözündə qaralmaq" kimi frazemlər bu qəbildəndir (Alməmmədova, 2010, s. 39).

Şairin bədii yaradıcılığında frazeoloji birləşmələrlə bağlı diqqət çəkən digər məqam onların inversiyasıdır. Əlbəttə ki, bu inversiya təsadüfi xarakter daşımayıb poetik məzmuna xidmət edir. Belə ki, frazeoloji vahidlər dildə olduğu kimi bədii nümunədə əks olunarsa, bu zaman şeirin bədii dili pozular, qafiyə məzmunu itə bilər. Bu səbəbdən frazemlər məqsədli şəkildə inversiyaya uğramışdır.

Dolandı zamanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.

Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən (Vahabzadə, 2004, s. 81).

Gördüyümüz kimi, bədii nümunədə “dilindən od tökmək” frazeoloji birləşməsi ikinci misrada inversiyaya uğramışdır. Lakin bu inversiya şeirdə qafiyə və musiqililik yaratmışdır. Şairin poeziyasında istifadə etdiyi frazeoloji birləşmələri semantik cəhətdən üç qrupa ayıra bilərik:

*1. Müsbət duyğuları ifadə edən frazeologizmlər.* Frazeologizmlərin bu növü sevinc, fərəh, sevgi, qürür, ümid kimi duyğuları obrazlı şəkildə ifadə edir. “Dünya bağışlamaq”, “qanı qaynamaq”, “üz gözündən nur yağmaq”, “üzünə nur çiləmək” və s. kimi ifadələr müsbət duyğuları ifadə edən frazeoloji birləşmələrə aiddir (Alməmmədova, 2010, s. 39). Bəxtiyar Vahabzadə poeziyası müsbət duyğuları ifadə edən frazeoloji vahidlərin üslubi rəngarəngliyi baxımından xüsusilə seçilir. Şair daha çox məhəbbət və vətənpərvərlik məzmunlu şeirlərində belə frazemlərdən bədii ustalıqla istifadə edərək sevinc və qürur hisslərini obrazlı təsvir etmişdir:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış (Vahabzadə, 2004, s. 8).

Yuxarıdakı poetik nümunədə “ürəyə yol açmaq” frazeoloji vahidi işlənmişdir. Bu frazeologizm sevgi hissini qazanmaq, xoş təəssürat yaratmaq, məhəbbət qazanmaq kimi semantik mənaları ifadə edir. Ana dilinin qüdrətini təsvir etmək, oxucuda milli mənlik şüuru oyatmaq məqsədilə şair bu frazeoloji birləşmədən istifadə etmişdir.

Laylanın hər xalı bir ümid, güman,
Onun ahənginə qaynadı qanım.
Anamın yanıqlı laylalarından
Süzüldü ruhuma Azərbaycanım (Vahabzadə, 2004, s. 61).

Bədii nümunədə “qanı qaynamaq” frazeoloji ifadəsi işlənmişdir. Bu frazem şeirdə müsbət çalarda işlənmişdir. Şair burda laylanın ahəngini sevdiyini, könlünü oxşadığını obrazlı şəkildə bildirmək üçün bu cür frazeologizmdən istifadə etmişdir.

*2. Neqativ duyğuları ifadə edən frazeologizmlər.* Bu tip frazeologizmlər isə kədər, qorxu, qəzəb, həsrət, küskünlük, kin, narahatlıq kimi neqativ hissləri bədii tərzdə canlandırır. “Ürəyinin teli qırılmaq”, “ürəyinə xal düşmək”, “ürəyinə od qoymaq”, “ürəyini üzmək”, “ürəyi yerindən oynamaq”, “ürəyini üzmək”, “ürəyi ağrımaq” və s. kimi frazemləri buna misal çəkə bilərik (Alməmmədova, 2010, s. 38). Belə sabit birləşmələrin fərqli ifadə tərzini Bəxtiyar Vahabzadə poeziyasında xüsusilə görə bilirik. Şair bu frazemlər vasitəsilə müxtəlif neqativ hissləri elə emosional tərzdə çatdırır ki, bədii nümunə oxucunun gözləri qarşısında sanki dramatikləşir, səhnələşir:

Siz bu qızı alsanız onun əlindən əgər,
Füzulinin qəlbinə məhşər dağı çəkilər (Vahabzadə, 2004, s. 25).

Poetik nümunədə “dağ çəkmək” frazeoloji vahidi incitmək, ağır əzab çəkmək kimi semantik mənalarında işlənmişdir. İnsan həyatında dərin iz buraxan ağrıları, kədəri ifadə etmək üçün bu frazeoloji vahiddən istifadə edilir. Məhz bu ifadə sayəsində müəllif əzab, kədər duyğularını oxuculara daha təsirli dillə çatdıraraq onu əsərin emosional sehrinə salır.

Saçlarıma dən düşür, dən düşür, yaman düşür,
Hər baxanda anamın ürəyinə qan düşür.
Bu ağ saçlar, ay ana, səni dərdə salmasın,

Saçımın ağlığından qanın heç qaralmasın! (Vahabzadə, 2004, s. 155).

Poetik nümunədə "ürəyinə qan düşmək", "qanı qaralmaq" kimi frazemlər istifadə edilmişdir. Əslində, bu birləşmələr şeirə emosional məna yükləyərək qəm, kədər, məyusluq hisslərini təsirli bir dillə ifadə edir. Ananın övladının halına yanmasını məhz bu cür frazemlər bədii tərzdə çatdıra bilərdi.

Bəlkə cavan şairin bir qəza var başında ?
Qəlbinə qarmı yağıb ömrün bahar yaşında
O, niyə dalğın gedir, niyə pərişan gedir ?
Canından can ayrılır, ürəyindən qan gedir ? (Vahabzadə, 2004, s. 8).

Bu poetik nümunədə isə "canından can ayrılmaq", "ürəyindən qan getmək" frazemləri işlənmişdir. Hər iki frazeoloji vahid sanki sifətin üstünlük dərəcəsi effektini yaradır. Çünki "canından can ayrılmaq" birləşməsi ağır sarsıntı və iztirabı ifadə edir. Şair burda qəmin obrazlı ifadəsini yaradıb. İkinci frazeoloji vahid olan "ürəyindən qan getmək" ifadəsi də eynilə qəmi və iztirabı ifadə edir. Burda qan yaşamağın, həyatın simvoludur. Qanın ürəkdən getməsi isə həyatın sonu kimi anlaşılır. Şair hər iki frazeoloji birləşmədən sinonim kimi istifadə edərək obrazlılıq yaratmışdır.

*3.Neytral frazeoloji birləşmələr.* Bu tipli frazemlər üslubi baxımdan sabitdir. Belə ki, neytral birləşmələr nə mənfi, nə də müsbət hissləri ifadə edir. Bu baxımdan bu birləşmələrdə ekspressivlik yoxdur. "Baş açmaq", "başa salmaq", "başını itirmək", "dilə tutmaq", "dilə gəlmək", "dil tapmaq" və s. kimi frazemlər neytral birləşmələrdir (Alməmmədova, 2010, s. 39). Lakin bu frazemlərdən istifadə bədii ədəbiyyatda təsadüfi xarakter daşımır. Belə ki, neytral frazeoloji birləşmələr bir neçə üslubi mövqedən çıxış edir:

- Neytral frazemlər müəllif münasibətini ikinci plana, oxucunun hissi mövqeyini ilkin plana keçirir;
- Qüvvətli emosional təsirdən əvvəl səssiz üslub yaradır. Sanki oxucunu gərginliyə hazırlayır;
- Söz sənətkarı çox vaxt real hadisələrin təsvirində neytral birləşmələrdən istifadə edir;
- Neytral frazeoloji birləşmələrin ən üstün cəhəti isə şişirdilmiş pafosun qarşısını almasıdır; Əsər başdan sona qədər emosional təsir bağışlasa, dinləyicini yora bilər.

Bəxtiyar Vahabzadə poeziyasında istifadə edilən neytral frazeoloji birləşmələrin semantik mənalarına nəzər salaq:

Bir səs qulağıma gəlmişdi haqdan,
Ölümü görmüşdüm o vaxt elə bil.
Mənim ürəyimə dammışdı çoxdan:
Ən böyük qismətim ölümdür bu il (Vahabzadə, 2004, s. 147).

Yuxarıdakı poetik nümunədə "ürəyinə dammaq" frazeoloji birləşməsi agah olmaq, hiss etmək kimi semantik mənaları ifadə edir. Neytral frazeoloji birləşmə olmasına baxmayaraq, məcazi məna ifadə edir.

Beləcə günləri o yola saldı
Kişinin gözləri yollarda qaldı (Vahabzadə, 2004, s. 236).

Bu nümunədə isə "yola salmaq" ifadəsi ötürmək mənasını, "gözləri yollarda qalmaq" birləşməsi isə gözləmək, həsrət çəkmək mənalarını ifadə edir.

Sözün ləyaqətinə, mənasına varmadan,
Utanıb qızarmadan

Qıpqırmızı yalanı bülbül kimi ötürsən
Riya dəyirmanında sən yalan üyüdürsən (Vahabzadə, 1999, s. 148).

Göründüyü kimi, nəzm nümunəsində "bülbül kimi ötmək" frazeoloji vahidi işlənmişdir. Bu frazeoloji birləşmə sanki təşbeh funksiyasında çıxış edir. Şair yalanı utanmadan və ustalıqla söyləyən insanlara bir növ ironik tərzdə yanaşmışdır.

## Nəticə

Beləliklə, frazeoloji vahidlər bədii nitqə əsas çalar verən üslubi boyalardır. Bədii ədəbiyyatda əsasən ekspressiv – emosional səciyyəli olan frazemlər sənətkarın fərdi təxəyyülünün və hisslərinin məhsuludur. Bu baxımdan hər bir sənətkarın fərdi üslubu özünəməxsusluq kəsb edir. Lakin neytral frazeoloji birləşmələrin də istifadəsinə az təsadüf edilmir. Neytral mövqedə çıxış edən frazeoloji vahidlər də müəyyən məcazi məna kəsb edərək Bəxtiyar Vahabzadə yaradıcılığına üslubi rəngarənglik verir.

## Ədəbiyyat


1. Alməmmədova, S. (2010). *Bəxtiyar Vahabzadə poeziyasının dili*. Elm.
2. Cəfərov, S. (1956). *Azərbaycan dilinin leksikası*. ADU.
3. Dəmirçizadə, Ə. (1962). *Azərbaycan dilinin üslubiyyatı*. Azərtədrisnəşr.
4. Əliyev, K. (1967). *Üslubiyyatda frazeologiyanın yeri. Azərbaycan dilçiliyi məsələləri*. Maarif.
5. Həsənov, H. (2005). Müasir Azərbaycan dilinin leksikası. Nurlan.
6. Həsənov, H. (1979). *Azərbaycan dilinin frazeologiyası*. Yeni kitab mətbəəsi.
7. Hüseynov, M. (2013). *Poetik frazeologiya*. Elm və Təhsil.
8. Mahmudova, Q. (2009). *Türk dillərinin frazeologiyası*. Nurlan.
9. Mustafayeva, Q. (2010). *Azərbaycan dilinin üslubiyyatı*. Elm.
10. Süleymanova, İ. (2013). *Frazeologiyanın üslubi imkanları*. Elm.
11. Tahirova, V. (2018). *Azərbaycan dilində məkan və zaman bildirən frazeoloji birləşmələr*. Elm və Təhsil.
12. Vahabzadə, B. (1999). *İstiqlal*. Gənclik.
13. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri*, I cild. Öndər.
14. Vahabzadə B. (2004). *Seçilmiş əsərləri*, II cild. Öndər.


Daxil oldu: 04.09.2025
Qəbul edildi: 12.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/99-103

**Ləman Şahbazlı**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0009-0367-2965
lemanshahbaz2512@gmail.com

# Sosial fəaliyyət – tələbələrin aktivliyini şərtləndirən amil kimi

### Xülasə

Sosial fəaliyyət tələbələrin şəxsiyyət kimi formalaşmasında, ictimai proseslərə inteqrasiya olunmasında və universitet mühitində aktiv iştirakının təmin edilməsində əsas stimullaşdırıcı amillərdən biridir. Sosial fəaliyyətə tələbələrin könüllülük, sosial layihələr, tələbə təşkilatları, mədəni-kütləvi tədbirlər və ictimai təşəbbüslərdə iştirakı daxildir. Bu fəaliyyət növləri tələbələrdə liderlik, məsuliyyət, ünsiyyət və komanda bacarıqlarını gücləndirir, onların özünəinamını artırır və sosiallaşma prosesinə müsbət təsir göstərir. Araşdırmalar göstərir ki, sosial fəaliyyətdə müntəzəm iştirak tələbələrin akademik motivasiyasını yüksəldir, ali təhsil müəssisəsinə bağlılığını gücləndirir və ümumi sosial-psixoloji rifahını yaxşılaşdırır. Bununla yanaşı, sosial fəaliyyət mühitində əldə olunan praktiki təcrübə gələcək peşə inkişafı üçün əlavə üstünlüklər yaradır. Beləliklə, sosial fəaliyyət tələbə aktivliyinin formalaşmasında mühüm rol oynayan, onların həm fərdi, həm də sosial inkişafını təmin edən çoxşaxəli bir amildir.

***Açar sözlər:*** *sosial fəaliyyət, tələbə aktivliyi, ictimai iştirakçılıq, sosiallaşma, tələbə təşkilatları, könüllülük*

**Laman Shahbazli**
Odlar Yurdu University
Master’s student
https://orcid.org/0009-0009-0367-2965
lemanshahbaz2512@gmail.com

# Social Activity – a Factor Conditıioning Student Activity

### Abstract

Social activity is one of the main stimulating factors in the formation of students as individuals, their integration into social processes, and ensuring their active participation in the university environment. Social activity includes students' participation in volunteering, social projects, student organizations, cultural and mass events, and public initiatives. These types of activity strengthen students' leadership, responsibility, communication, and team skills, increase their self-confidence, and have a positive effect on the socialization process. Studies show that regular participation in social activity increases students' academic motivation, strengthens their commitment to the higher education institution, and improves their overall socio-psychological well-being. At the same time, practical experience gained in the social activity environment creates additional advantages for future professional development. Thus, social activity is a multifaceted factor that plays an important role in the formation of student activity, ensuring their both individual and social development.

***Keywords:*** *social activity, student activism, public participation, socialization, student organizations, volunteering*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Bu baxımdan, tələbələrin akademik nailiyyətlərinin psixoloji əsaslarını araşdırmaq üçün özünə inam və özünüqiymətləndirmə arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi mühüm elmi və praktik əhəmiyyət daşıyır. Mövzu həm ali təhsil müəssisələrində psixoloji xidmətin təşkilinə, həm də təlim mühitində tələbələrin psixoloji rifahının təmininə istiqamətlənmiş mühüm elmi-nəzəri töhfə kimi çıxış edir.

**Tədqiqat**

Özünə inam insanın öz qabiliyyətlərinə, qərarlarına və məqsədlərinə çatmaq potensialına olan subyektiv inamıdır. Bu keyfiyyət fərdin özünü dərk etməsinin və şəxsiyyətin formalaşmasının əsas göstəricilərindən biri sayılır. Psixologiyada özünə inam təkcə emosional hal deyil, həm də idrak, motivasiya və davranış səviyyəsində təzahür edən kompleks xüsusiyyətdir. Bandura (Bandura, 1997) tərəfindən irəli sürülən özünütəsir (self-efficacy) konsepsiyası bu anlayışın əsas nəzəri dayaq nöqtələrindən biridir. Banduraya görə, insanın bir işi yerinə yetirə biləcəyinə olan inamı onun davranışının istiqamətini və səylərinin davamlılığını müəyyən edir. Beləliklə, özünə inam yalnız fərdi inanc sistemi deyil, həm də uğura aparan daxili motivasiya mənbəyidir. Tədqiqatlar göstərir ki, yüksək özünə inam tələbələrin çətin tapşırıqlara yanaşmasında daha aktiv, müstəqil və məqsədyönlü olmalarına səbəb olur (Pajares, Schunk, 2001; Schunk, Pajares, 2005; Harter, 2012). Özünə inamı aşağı olan tələbələr isə tez-tez uğursuzluq qorxusu və tənbəllik kimi davranışlarla üzləşirlər. Özünüqiymətləndirmə fərdin öz bacarıqlarına, dəyərlərinə və uğurlarına verdiyi şəxsi qiymətdir. Bu proses insanın "Mən" konsepsiyasının mərkəzi elementi kimi qəbul olunur. William James (James, 1890) özünüqiymətləndirməni insanın "uğurları" ilə "iddiaları" arasında olan nisbət kimi izah etmişdir. Yəni insanın özünü necə qiymətləndirdiyi, onun nəyə layiq olduğunu düşündüyü ilə nə əldə etdiyinə bağlıdır.

Adekvat özünüqiymətləndirmə tələbənin öz potensialını real şəkildə dərk etməsinə, zəif tərəflərini qəbul etməsinə və inkişaf istiqamətləri müəyyənləşdirməsinə kömək edir. Buna qarşı, aşağı və ya şişirdilmiş özünüqiymətləndirmə tədris motivasiyasını azaldır, emosional gərginliyi artırır və nəticədə akademik nailiyyətlərə mənfi təsir göstərir (Rosenberg, 1965; Marsh, Craven, 2006). Tədqiqatlar göstərir ki, müsbət özünüqiymətləndirməyə malik tələbələr daha çox daxili motivasiyaya sahib olur və akademik fəaliyyətlərdə daha yüksək nəticələr göstərirlər (Orth, Robins, 2014). Bu isə göstərir ki, özünüqiymətləndirmə ilə akademik uğur arasında iki istiqamətli qarşılıqlı əlaqə mövcuddur: akademik mühit insanın özünü dərk formasını formalaşdırdığı kimi, özünüqiymətləndirmə də bu mühitdə uğur səviyyəsini müəyyən edir. Akademik mühit yalnız elmi biliklərin mənimsənildiyi sistem deyil, eyni zamanda şəxsiyyətin formalaşması və sosial qarşılıqlı münasibətlərin inkişaf etdiyi bir sahədir. Burada tələbələrin psixoloji rifahı, özünüifadə imkanları və sosial dəstək səviyyəsi onların akademik nailiyyətlərinə birbaşa təsir göstərir. Müsbət akademik

mühit tələbənin özünə inamını gücləndirir, təlim prosesində iştirak motivasiyasını artırır və kollektivdə öz dəyərini hiss etməsinə şərait yaradır (Eccles, Wigfield, 2020). Əksinə, neqativ və ya rəqabət yönümlü mühitlər tələbələrdə gərginlik, qorxu və özünə inamsızlıq yarada bilər. Bu baxımdan, müəllim-tələbə münasibətləri, akademik ədalət və sosial dəstək kimi amillər tələbələrin həm özünüqiymətləndirməsinə, həm də nailiyyət səviyyəsinə təsir edən vacib komponentlər sayılır.

Psixoloji ədəbiyyatda bu iki anlayış tez-tez bir-biri ilə əlaqəli şəkildə öyrənilir. Özünə inam fərdin konkret fəaliyyətlərdə uğur qazanmaq potensialına olan inamıdır, özünüqiymətləndirmə isə bu inamın ümumi mənzərəsini, yəni fərdin öz dəyərini necə qəbul etdiyini əks etdirir. Şəxsdə özünə inam formalaşdıqca, o, daha sabit və real özünüqiymətləndirməyə sahib olur. Eyni zamanda, müsbət özünüqiymətləndirmə də özünə inamı möhkəmləndirir və uğurlu davranış modellərinin yaranmasına şərait yaradır (Judge, Erez, Bono, Thoresen, 2002; Zeigler-Hill, 2013). Bu qarşılıqlı təsir tələbələrin akademik mühitdəki fəaliyyətlərinə, özünütənzimləmə qabiliyyətlərinə və sosial adaptasiyalarına müsbət istiqamətdə təsir göstərir. Beləliklə, özünə inam və özünüqiymətləndirmə bir-birini tamamlayan iki əsas psixoloji mexanizm kimi çıxış edir. Müasir təhsil sistemində tələbələrin akademik nailiyyətlərini artırmaq üçün yalnız bilikvermə deyil, həm də psixoloji dəstək proqramları vacibdir. Bu istiqamətdə psixoloji treninqlər, özünə inamın inkişafı üçün fərdi və qrup sessiyaları, həmçinin, özünüqiymətləndirmənin korreksiyası məqsədilə məsləhət işləri aparmaq zəruridir. Ali təhsil müəssisələrində psixoloqların, müəllimlərin və mentorların əməkdaşlığı tələbələrin öz potensialını tam reallaşdırmasına və akademik məqsədlərinə çatmasına şərait yaradar. Beləliklə, əldə olunan nəticələr göstərir ki, tələbələrin özünə inam və özünüqiymətləndirmə səviyyəsinin yüksəldilməsi onların akademik nailiyyətlərinin artırılmasında mühüm rol oynayır.

## Nəticə

Aparılmış nəzəri təhlillər göstərir ki, akademik mühitdə tələbələrin özünə inamı və özünüqiymətləndirmə səviyyəsi onların təlim motivasiyasına, emosional sabitliyinə və nailiyyət göstəricilərinə birbaşa təsir edən mühüm psixoloji amillərdir. Özünə inam yalnız insanın qabiliyyətlərinə etibar etməsi deyil, eyni zamanda fəaliyyətə başlama, çətinliklərlə mübarizə aparma və uğura yönəlmiş davranış formalaşdırma prosesində mühüm daxili güc mənbəyidir. Özünüqiymətləndirmə isə fərdin öz dəyərini, potensialını və uğurlarını necə qəbul etdiyini müəyyən edən psixoloji mexanizmdir (Tafarodi, Swann, 2001; Zimmerman, 2000).

Tədqiqatların nəticələri göstərir ki, yüksək özünə inam və adekvat özünüqiymətləndirməyə malik olan tələbələr təlim fəaliyyətində daha fəal, məsuliyyətli və motivasiyalı davranış nümayiş etdirirlər. Onlar uğursuzluqları müvəqqəti hesab edir, problemləri inkişaf fürsəti kimi qəbul edir və məqsədlərinə çatmaq üçün daha sistemli strategiyalar qururlar. Aşağı özünə inam və qeyri-adekvat özünüqiymətləndirmə isə tələbələrdə akademik narahatlıq, özgüvənsizlik və sosial təcrid hisslərini gücləndirir.

Bu nəticələr təhsil sistemində psixoloji dəstəyin və şəxsiyyətə yönəlik yanaşmaların vacibliyini bir daha sübut edir. Ali təhsil müəssisələrində psixoloji məsləhət xidmətlərinin gücləndirilməsi, tələbələrdə özünə inamın və müsbət özünüqiymətləndirmənin inkişafını hədəfləyən təlim proqramlarının tətbiqi, həm fərdi, həm də qrup səviyyəsində effektiv nəticələr verə bilər. Beləliklə, tələbələrin özünə inam və özünüqiymətləndirmə səviyyələrinin yüksəldilməsi yalnız akademik nailiyyətləri artırmaqla qalmır, həm də onların şəxsiyyət inkişafına, sosial münasibətlərinə və gələcək peşə fəaliyyətində uğur qazanmaq potensialına mühüm töhfə verir.

## Ədəbiyyat

1. Bandura, A. (1997). *Self-efficacy: The exercise of control.* W.H.Freeman.
2. Baumeister, R.F., Campbell, J.D., Krueger, J.I., Vohs, K.D. (2003). Does High Self-Esteem Cause Better Performance, Interpersonal Success, Happiness, or Healthier Lifestyles? *Psychological Science in the Public Interest*, 4(1), 1-44.

3. Deci, E., Ryan, R. (2000). The “What” and “Why” of Goal Pursuits: Human Needs and the Self-Determination of Behavior. *Psychological Inquiry*, 11(4), 227-268.
4. Eccles, J., Wigfield, A. (2020). From expectancy-value theory to situated expectancy-value theory: A developmental, social cognitive, and sociocultural perspective on motivation. *Contemporary Educational Psychology*, 61, 101859.
5. Harter, S. (2012). *The Construction of the Self: Developmental and Sociocultural Foundations (2nd ed.).* Guilford Press.
6. James, W. (1890). *The Principles of Psychology*. Henry Holt.
7. Judge, T., Erez, A., Bono, J., Thoresen, C. (2002). Are measures of self-esteem, neuroticism, locus of control, and generalized self-efficacy indicators of a common core construct? *Journal of Personality and Social Psychology*, 83(3), 693-710.
8. Marsh, H., Craven, R. (2006). Reciprocal Effects of Self-Concept and Performance from a Multidimensional Perspective. *Perspectives on Psychological Science*, 1(2), 133-163.
9. Orth, U., Robins, R. (2014). The development of Self-Esteem. *Current Directions in Psychological Science*, 23(5), 381-387.
10. Pajares, F., Schunk, D. (2001). *Self-Beliefs and School Success: Self-Efficacy, Self-Concept, and School Achievement. In R.Riding, S.Rayner (Eds.), Self-Perception (pp. 239-266).* Ablex Publishing.
11. Rosenberg, M. (1965). *Society and the adolescent self-image*. Princeton University Press.
12. Schunk, D., Pajares, F. (2005). *Competence perceptions and academic functioning. In Handbook of competence and motivation (pp. 85-104).* Guilford Press.
13. Stupnisky, R., Perry, R., Hladkyj, S. (2011). The role of self-esteem and academic self-efficacy in predicting first-year college students’ academic achievement. *Journal of Applied Research in Higher Education*, 3(1), 20-30.
14. Tafarodi, R., Swann, W. (2001). Two-dimensional self-esteem: Theory and measurement. *Personality and Individual Differences*, 31(5), 653-673.
15. Zeigler-Hill, V. (2013). *Self-esteem*. Psychology Press.
16. Zimmerman, B. (2000). Self-Efficacy: An Essential Motive to Learn. *Contemporary Educational Psychology*, 25(1), 82-91.

Daxil oldu: 08.09.2025
Qəbul edildi: 13.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/117-120

**Aysel Qarayeva**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0006-0517-5696
aiselgarayeva@gmail.com

# Təhsildə empatiyanın rolu

**Xülasə**

Bu məqalə empatiyanın müasir təhsil sistemində rolunu elmi əsaslar və tədqiqat nəticələrinə söykənərək araşdırır. Empatiya müəllim-şagird münasibətlərinin keyfiyyətini müəyyən edən əsas psixoloji bacarıqlardan biri kimi çıxış edir və öyrənmə prosesinin emosional, sosial və akademik aspektlərinə güclü təsir göstərir. Araşdırmalar göstərir ki, empatik yanaşma sinifdə təhlükəsizlik və qarşılıqlı hörmət mühiti yaradır, şagirdlərin özünüifadəsini gücləndirir və davranış problemlərinin azalmasına səbəb olur. Empatiya şagirdlərin sosial-emosional inkişafında da mühüm rol oynayır: emosional intellekti artırır, özünüdərk və özünütənzimləmə bacarıqlarını gücləndirir, əməkdaşlıq və münaqişələrin konstruktiv həllini dəstəkləyir. Bundan əlavə, tədqiqatlar empatiyanın akademik nailiyyətlərə müsbət təsir göstərdiyini, motivasiyanı artırdığını və zəif nəticə göstərən şagirdlərin belə dərs prosesinə daha fəal qoşulmasına şərait yaratdığını ortaya qoyur.

Müəllimlərin empatiyasının inkişaf etdirilməsi üçün pedaqoji hazırlıq proqramlarının rolu xüsusi vurğulanır. Aktiv dinləmə, reflektiv yanaşma və emosional tənzimləmə kimi bacarıqlar empatik təlimin əsasını təşkil edir. Nəticə olaraq, empatiya təhsilin səmərəliliyini artıran, sağlam sinif atmosferi yaradan və şagirdlərin həm emosional, həm də akademik inkişafına töhfə verən əvəzedilməz pedaqoji komponent hesab olunur.

***Açar sözlər:*** *empatiya, tələbə-müəllim münasibəti, emosional intellekt, inkluziv təhsil, motivasiya, diqqət və yaddaş, akademik nailiyyət, təhsil sistemi, öyrənmə prosesi, aktiv dinləmə, humanist pedaqogika, təhsil psixologiyası*

**Aysel Garayeva**
Odlar Yurdu University
Master’s student
https://orcid.org/0009-0006-0517-5696
aiselgarayeva@gmail.com

# The Role of Empathy in Education

**Abstract**

This article examines the role of empathy in the modern education system based on scientific foundations and research findings. Empathy serves as one of the key psychological skills that determines the quality of teacher-student relationships and has a strong impact on the emotional, social, and academic aspects of the learning process. Research shows that an empathetic approach creates an environment of safety and mutual respect in the classroom, enhances students' self-expression, and reduces behavioral problems. Empathy also plays a significant role in the social-emotional development of students: it increases emotional intelligence, strengthens self-awareness and self-regulation skills, and supports collaboration and the constructive resolution of conflicts. The role of pedagogical training programs in fostering empathy is particularly emphasized. Skills such as active listening, reflective approaches, and emotional regulation form the foundation of empathetic teaching. In conclusion, empathy is considered an indispensable pedagogical component

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

that enhances the effectiveness of education, creates a healthy classroom atmosphere, and contributes to students' emotional as well as academic development.

***Keywords:*** *empathy, student-teacher relationship, emotional intelligence, inclusive education, motivation, attention and memory, academic achievement, education system, learning process, active listening, humanistic pedagogy, educational psychology*

## Giriş

Hər bir insanın inkişafı idrak, fiziki-motor, emosional və sosial aspektlərdən asılıdır. Bu cəhətlər bir-birilə əlaqəli və bir-birindən asılı olan şəkildə fəaliyyət göstərir. Buna görə bu sahələrdən birində baş verən dəyişikliklər digər sahələrə də birbaşa təsir edir və onlardan təsirlənir (Altavilla, 2015). Təhsil mühitində tələbələrin öyrənməsi üçün hər bir şeyi təmin edir. Yəni fərdi olaraq tələbələrin inkişafı və hər kəs üçün maksimum akademik uğurun təmin edilməsi onlar üçün başlıca məqsəddir. Daxilində perspektiv müəllimlərin tətbiq oluna biləcəyi təhsil mühiti, əlaqəli və ünsiyyət üsulları barədə düşünmələri vacibdir (D'Elia et al, 2018). Nəzərə alsaq ki, çevik və empatiyalı yanaşma üsulu əlverişli rifah mühiti yaradır (Tiziana et al, 2017). Belə bir mühitin yaradılması həm olduqca stimullaşdırıcı, həmdə tələbələrin psixoloji cəhətdən rahat hiss etmələri üçün vacibdir. Bu yanaşma yetəri qədər müsbətdir, çünki hər təhsil mühitində potensiallı tələbələrlə yanaşı, potensial cəhətdən zəif olan tələbələr də vardır və onlara nəyi necə öyrənəcəyi barədə istiqamətləndirmək hər bir müəllimin vəzifəsidir. Ümumiyyətlə təhsil həm fiziki, həm zehni, həm də əxlaqi cəhətdən inkişaf etdirən bir fəaliyyət olaraq bilinir. Formasiya, əslində, insanın öz potensial bacarıqlarını inkişaf etdirdiyi və ya yeni biliklər əldə etdiyi bir öyrənmə prosesi kimi başa düşülür. Bu proses, mühitlə təmas qurmaq, sosial və mədəni fəaliyyətlərdə iştirak etmək, eləcə də ailə, məktəb, müxtəlif qruplar və təşkilatların dəstəyi ilə formalaşır (Farinelli, 2005). Motor öyrənmə isə – idrakla, münasibətlərlə, emosiyalarla və ünsiyyətlə bağlı öyrənmə növləri kimi – insanın həyatı yaşayaraq bilik qazanmasını təşviq edir (Dewey, 1949). Bu inkişaf fiziki fəaliyyət vasitəsilə (Izzo və b., 2020; Di Domenico və b., 2019; D'Isanto, 2016), həmçinin, sosial mühitdə və qrup daxilində yaranan rəqabət və qarşılıqlı təsirlərlə mümkün olur (Carraro, Lanza, 2009). Uşaqların həyatının ilk aylarından etibarən tərbiyə münasibətinin koqnitiv, kommunikativ və sosial-emosional bacarıqların formalaşmasında əhəmiyyəti vurğulanır. Bu bacarıq uşaqlara öz maksimal öyrənmə potensialını ifadə etməyə imkan verir (D'Elia, 2018). Affektivlik, motivasiya və öyrənmə arasında sıx bir əlaqə mövcuddur (Altavilla et al., 2015), çünki affektiv dəyişənlər məktəb mühitində baş verən bilik proseslərinə, başa düşmə və sosiallaşmaya əhəmiyyətli təsir göstərir (Bloom, 1979). Həqiqətən də, nevroelm sahəsində aparılan tədqiqatlar öyrənmə proseslərində emosiyaların əsas rolunu da vurğulamışdır (Immordino-Yang, 2017). Pedaqoji baxımdan bu, mühüm nəticələrə malikdir, çünki əgər bilik emosiyalardan məhrum olarsa, onu konkret təcrübələrdə effektiv şəkildə tətbiq etmək mümkün deyil (D'Elia et al., 2019). Mənfi emosiyalar diqqət, tənqidi və analitik düşüncədə çatışmazlıq yaradır; müsbət emosiyalar isə öyrənməyə müsbət təsir göstərir, diqqəti artırır və yaradıcı düşüncəni inkişaf etdirir (Seligman, 2007). Uğur və ya məktəbi uğursuz bitirmə, qorxu, özünə dəyər verməmək və qeyri-müəyyənlik problemləri erkən öyrənmə təcrübələrindən asılıdır və müəllim tərəfindən mütləq nəzərə alınmalıdır. Müəllimin əsas vəzifəsi öyrənmə üçün əlverişli mühit yaratmaqdır. (D'Isanto, 2019). Müxtəlif pedaqoji məqsədlərə çatmaq üçün daha uyğun strategiyaların seçilməsi və tətbiqi həmişə yardım və təşviq münasibətləri çərçivəsində baş verir (Boffo, 2007).

**Tədqiqat**

Tədqiqat nəzəri və arqumentativ xarakter daşıyır və dərs-öyrənmə fəaliyyətinin təhsil və peşə hazırlığı baxımından əsas və ümumi aspektlərini, eləcə də öyrənmə proseslərinin və təhsil münasibətlərində empatiyanın əhəmiyyətini vurğulayır. Yanaşma sənədli tədqiqatlar və psixo-pedaqoji təhsil prinsiplərinə əsaslanaraq təhsil prosesindəki elmi ideyanın mürəkkəbliyini ümumiləşdirməyə yönəlib. Empatiya pedaqogikada yalnız emosional cəhətdən deyil, eyni zamanda müəllimin idrak prosesinə təsir edən sosial-psxioloji bacarıqdır. Daniel Goleman (1995) empatiyanı emosional intellektin mərkəzi kimi komponenti kimi izah edir və bildirir ki, sosial münasibətlərin

sağlamlığı elə empatiyadan asılır. Davis (1994) empatiyanı üç hissəyə ayırd edirdi. Birinci koqnitiv terapiyadır. Koqnitiv terapiya qarşındakı insanın düşüncə tərzini onun həyata yanaşma tərzini anlamaqdan ibarətdir. İkincisi emosional empatiyadır. Burada isə qarşı tərəfin hisslərini paylaşmaqdan bəhs edilir. Nəhayət, sonuncu isə mərhəmətli empatiyadan danışa bilərik. Bu empatiyanın elə bir növüdür ki, hissləri davranışa çevirərək dəstək göstərməkdən ibarətdir. Bu üç amil pedaqoji fəaliyyət üçün vacibdir. Müəllim tələbinin emosional vəziyyətini bildikdə dərs metodlarını daha uyğun şəkildə təşkil edir, tələbələr arasında fərqləri nəzərə alır və differensial-laşmış öyrənmə tətbiq edir. Pozitiv sinif atmosferi şagirdlərin öyrınmə prosesinə təsir edən ən vacib nüanslardan biridir. Cornelius-White (2007) qeyd edir ki, müəllimin empatiyalı yanaşması tələbələr arasında rahat, hörmət və qarşılıqlı anlayışlı mühit yaradır. Cooper (2011) göstərir ki, empatiyalı mühitdə tələbələr arasında sərgüzəştlilik artır, stress və narahatçılıq problemləri azalır, tələbələrin dərs prosesində aktivliyi artır.

UNESCO (2020) empatiyanı inkluziv təhsilin vacib komponenti kimi göstərir, buna səbəb müxtəlif ehtiyacları olan şagirdlərin sosial adaptasiyası məhz empatiyaya əsaslanan yanaşma ilə mümkün olur. Tədqiqatlar göstərir ki, empatiya tələbələrin psixoloji sağlamlığının inkişafına, özünənəzarət və özünəgüvən bacarıqlarının formalaşmasına, həmçinin, sosial münasibətlərin daha da yaxşı qurulmasına xidmət edir (İmmordino-Yang, 2016). Hattie (2019) öz apardığı araşdırma-larında tələbə-müəllim münasibətlərinin akademik uğurlara təsirinin olduqca yüksək olduğunu dəqiqləşdirib. Əlbəttə, bu münasibətin əsasını qarşılıqlı empatiya təşkil edir. Jennigs (2015) bildirir ki, empatiyalı müəllim auditoriyada gərgin havanı aradan qaldırır, tələbələrə emosional cəhətdən pozitiv enerji ötürür və öyrənmə prosesinə hazır durum yaradır. Wentsel (2019) müəllimlərin empatiya bacarıqlarının daha da yaxşılaşdırılması üçün xüsusi öyrənmə proqramlarının mühüm-lüyünü izah edir. Bu proqramlar hər zaman bacarıqların təkmilləşməsini məqsəd qoyur. Buraya *aktiv dinləmə, reflektiv pedaqogika, şagirdin düşüncə tərzinin dərk edilməsi, emosional tənzimləmə* daxildir. OECD (2019) göstərir ki, gələcəyin təhsil prosesi müəllimlərin sosial, eyni zamanda emosional bacarıqlarının, xüsusilə empatiyanın inkişafı üzərində qurulmalıdır. Empatiya təkcə psixoloji mühitə deyil, habelə, akademik nailiyyətlərə də təsir göstərir. Battistich, Solomon (1997) empatik münasibətlərin şagirdin təhsilə bağlılığını artırdığını və dərsə davamiyyətin artdığını göstərmişdir. Aspy (1972) empatiyanın şagird nailiyyətləri ilə çox güclü müsbət əlaqədə olduğunu sübut etmişdir. Ümumilikdə tədqiqatlar göstərir ki, empatiya vasitəsilə tələbənin elmə marağını artırır, tələbə-müəllim münasibəti möhkəmlənir, özünəgüvən və özünütənzimləmə inkişaf edir və akademik uğurlarda artım müşahidə edilir. Ədəbiyyata dair apardığımız icmal göstərir ki, empatiya anlayışları və ya tərifləri ilə əlaqəli ən azı beş fərqli mövzu mövcuddur və bunlar əsasən təhsil tədqiqatçıları tərəfindən işlənmişdir; bunlar (Coplan, 2011) belədir: 1.Tələbənin psixi vəziyyətləri və ya emosiyaları haqqında məlumat əldə etmək və ya özünü başqasının psixi vəziyyətlərinin və ya emosiyalarının subyekti kimi təsəvvür etmək (yəni "koqnitiv" empatiya); 2.Tələbənin əqli vəziyyətləri və ya emosiyalarından təsirlənmə, onları hiss etmə və ya yaşama (yəni "affektiv" empatiya); 3.Empatiyanın müəllimin xarakterinin bir xüsusiyyəti və ya təmayülü kimi olması (təsadüfi olaraq empatik olan hərəkətlərdən fərqli olaraq); 4.Tələbəyə qayğı, narahatçılıq və ya şəfqət göstərmək; 5.Empatiya və şəfqət arasında fərq var, lakin bu fərq anlayış baxımından dərin olmaya da bilər. Bu beş fərqli mövzu bizə empatiya anlayışının nə ilə əhəmiyyət kəsb etdiyini təhsil tədqiqatçıları üçün göstərir. Növbəti bölmədə isə mən empatiyanın niyə təhsil tədqiqatçıları üçün dəyərli hesab edildiyini nəzərdən keçirirəm. Təhsil tədqiqatları sahəsində güclü konsensus mövcuddur ki, empatiya tələbələrin öyrənməsini təşviq etməkdə çox təsirlidir (Meyers et. al., 2019, s. 162); empatik müəllimlərin tələbələrin iştirakını artırdığı (Cardoso et. al., 2011) və özünü tənzimləyən öyrənənləri təşviq etdiyi (Young, 2005) müəyyən edilmişdir. Erkən dövr müəllifl-rindən biri bu fikri belə yekunlaşdırır: Yüksək dərəcədə empatiya bir münasibətdə dəyişiklik və öyrənmə yaratmaqda ən güclü amil ola bilər. Müəllim tələbənin reaksiyasını daxildən başa düşmək bacarığına malik olduqda, təhsil və öyrənmə prosesinin tələbə üçün necə göründüyünü həssaslıqla qavradıqda öyrənmə ehtimalı əhəmiyyətli dərəcədə artır (Rogers, 1969, s. 157-158). Rocers koqnitiv növ empatiyanı təbliğ edən biri kimi qəbul oluna bilər.

## Nəticə

Aparılan geniş araşdırmalar göstərir ki, empatiya təhsil prosesinin hər bir mərhələsinə təsir edən çoxşaxəli psixoloji bacarıqdır. Empatiya olmadan nə inklüziv təhsil, nə sağlam sinif atmosferi, nə də yüksək akademik nəticə mümkün olur.

## Ədəbiyyat

1. Aspy, D. (1972). *The role of teacher empathy in student outcomes*. Merrill.
2. Battistich, V., Solomon, D. (1997). Caring school communities. *Child Development*, 68(4), 701-716.
3. Cooper, B. (2011). Empathy in education. *Teaching and Teacher Education*, 27(3), 331-339.
4. Cornelius-White, J. (2007). Learner-Centered Teacher-Student Relationships: A Meta-Analysis. *Review of Educational Research*, 77(1), 113-143.
5. Davis, M.H. (1994). *Empathy: A social psychological approach*. Westview Press.
6. Goleman, D. (1995). *Emotional intelligence*. Bantam Books.
7. Hattie, J. (2009). *Visible Learning: A synthesis of over 800 meta-analyses relating to achievement*. Routledge.
8. Hoffman, M.L. (2000). *Empathy and moral development: Implications for caring and justice*. Cambridge University Press.
9. Immordino-Yang, M.H. (2016). *Emotions, learning, and the brain: Exploring the educational implications of affective neuroscience*. W.W.Norton.
10. Jennings, P.A. (2015). *Mindfulness for Teachers: Simple Skills for Peace and Productivity in the Classroom*. W.W.Norton.
11. Koca, F. (2016). The Role of Empathy in Education. *Journal of Education and Practice*, 7(35), 125-131.
12. OECD. (2019). *Future of education and skills 2030: OECD learning compass 2030*. OECD Publishing.
13. Rogers, C.R. (1983). *Freedom to Learn for the 80s*. Merrill.
14. UNESCO. (2020). *Social and emotional learning guidelines*. UNESCO Publishing.
15. Wentzel, K.R. (2012). Teacher-student relationships and motivation. *Educational Psychologist*, 47(1), 15-28.

Daxil oldu: 05.09.2025
Qəbul edildi: 11.12.2025

DOI: https://doi.org/10.36719/2789-6919/53/121-124

**Elmar Farajov**
Azerbaijan State University of Economics
Bachelor
https://orcid.org/0009-0004-1441-9723
elmarfarajov@yahoo.com

# The Role of Cognitive Biases in Cryptocurrency Investment Decisions

## Abstract

Cryptocurrency markets are highly volatile and speculative, making investor behavior a critical factor in price dynamics. This study examines the role of cognitive biases in shaping investment decisions within the cryptocurrency ecosystem. Investors often rely on heuristics and mental shortcuts, which can lead to systematic errors in judgment, including overconfidence, herd behavior, loss aversion, and confirmation bias. These biases influence portfolio choices, risk perception, and timing of trades, frequently resulting in suboptimal financial outcomes. Understanding the psychological underpinnings of cryptocurrency investment can help investors mitigate bias, improve decision-making, and enhance market efficiency. The research also highlights the importance of educational interventions, structured decision frameworks, and analytical tools in counteracting the effects of cognitive biases.

***Keywords***: *cognitive biases, cryptocurrency investment, investor behavior, decision-making, overconfidence, herd behavior, loss aversion, confirmation bias, behavioral finance, market psychology*

**Elmar Fərəcov**
Azərbaycan Dövlət İqtisad Universiteti
bakalavr
https://orcid.org/0009-0004-1441-9723
elmarfarajov@yahoo.com

# Koqnitiv səhv anlayışların kriptovalyuta investisiya qərarlarında rolu

## Xülasə

Kriptovalyuta bazarları yüksək volatilliyaya və spekulyativ xarakterə malikdir, bu da investor davranışını qiymət dəyişkənliyində mühüm amil edir. Bu tədqiqat kriptovalyuta ekosistemində investisiya qərarlarının formalaşmasında kognitiv səhv anlayışların rolunu araşdırır. İnvestorlar tez-tez heurstikaya və zehni qısa yollarla qərar verirlər ki, bu da həddindən artıq özünəinam, qrup davranışı, itki qorxusu və təsdiqləmə səhvi kimi sistemli qiymətləndirmə xətalarına gətirib çıxara bilər. Bu səhv anlayışlar portfel seçimlərinə, risk qavrayışına və əməliyyat vaxtlamasına təsir göstərir və tez-tez suboptimal maliyyə nəticələrinə səbəb olur. Kriptovalyuta investisiyasının psixoloji əsaslarını anlamaq investorların səhvləri azaltmasına, qərar qəbul etmə prosesini yaxşılaşdırmasına və bazar səmərəliliyini artırmasına kömək edə bilər. Tədqiqat koqnitiv səhv anlayışların təsirini azaltmaq üçün təhsil müdaxilələrinin, strukturlaşdırılmış qərar çərçivələrinin və analitik alətlərin əhəmiyyətini vurğulayır.

***Açar sözlər:*** *koqnitiv səhv anlayışlar, kriptovalyuta investisiyası, investor davranışı, qərar qəbulu, həddindən artıq özünəinam, qrup davranışı, itki qorxusu, təsdiqləmə səhvi, davranış maliyyəsi, bazar psixologiyası*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Introduction

The rapid growth of cryptocurrency markets has transformed the landscape of modern finance, offering unprecedented opportunities for profit as well as heightened risks due to extreme volatility and speculative behavior. Unlike traditional financial markets, cryptocurrencies operate in largely unregulated and decentralized environments, which amplify uncertainty and challenge conventional investment models. In this context, understanding the behavioral factors that influence investor decision-making has become increasingly important (Thaler, 2015).

Cognitive biases – systematic patterns of deviation from rational judgment – play a critical role in shaping investor behavior. Investors often rely on mental shortcuts, or heuristics, when processing complex and uncertain information, which can lead to consistent errors in judgment. Common biases such as overconfidence, herd behavior, loss aversion, and confirmation bias can significantly affect portfolio allocation, timing of trades, and risk perception. These biases not only influence individual investment outcomes but also contribute to broader market phenomena, including price bubbles, crashes, and increased volatility. The study of cognitive biases in cryptocurrency investments is particularly relevant because the market is characterized by high information asymmetry, rapid technological innovation, and susceptibility to social influence through digital platforms. Behavioral finance research suggests that understanding psychological underpinnings can help investors identify their own biases, implement corrective strategies, and make more informed decisions. Moreover, insights into investor behavior can assist regulators, platform designers, and financial educators in creating tools and interventions that enhance market efficiency and protect participants from avoidable losses (Shefrin, 2002; Shefrin, 2007; Smith, Torres, Mitchell, Greene, 2023).

This paper examines the role of cognitive biases in cryptocurrency investment decisions, highlighting how these psychological factors affect decision-making processes, investment strategies, and financial outcomes. By exploring the interaction between human psychology and market behavior, the research aims to provide a clearer understanding of the challenges and opportunities inherent in cryptocurrency investment (Roberts, Nguyen, 2025; Yıldırım, Kaya, 2025).

In addition to examining individual decision-making, this study also explores how cognitive biases collectively influence cryptocurrency market trends. Unlike traditional markets, the cryptocurrency ecosystem is heavily driven by investor sentiment, which is shaped by social networks, media coverage, and online communities. As a result, the prevalence of herd behavior and overconfidence can create self-reinforcing cycles of rapid price increases and sudden crashes. Understanding these behavioral patterns is essential for predicting market dynamics and developing strategies to mitigate extreme volatility.

The study also addresses the role of experience and knowledge in moderating the effects of cognitive biases. While seasoned investors may develop heuristics that improve decision efficiency, less experienced participants are often more susceptible to emotional reactions and cognitive shortcuts that lead to suboptimal investment outcomes. By identifying which biases are most influential and under what conditions, the research provides actionable insights for both novice and experienced investors (Johnson, Lee, 2025).

Moreover, this research contributes to the growing field of behavioral finance by applying its principles to the emerging and relatively under-researched domain of cryptocurrency (Chen, Zhou, 2017).

Unlike traditional assets, cryptocurrencies present unique challenges due to their digital nature, high volatility, and lack of intrinsic value anchors. Investigating cognitive biases in this context not only sheds light on individual investment behavior but also informs broader market regulation, risk management practices, and financial education initiatives. Overall, the study aims to provide a comprehensive framework for understanding how psychological factors shape cryptocurrency investment decisions (Williams, Brown, 2025).

By integrating behavioral finance theory with empirical evidence from market participants, it seeks to enhance decision-making processes, promote more rational investment strategies, and improve market stability in the rapidly evolving cryptocurrency landscape.

**Research**

This study employs a mixed-methods approach to examine the influence of cognitive biases on cryptocurrency investment decisions. Quantitative data were collected through surveys targeting retail and institutional cryptocurrency investors, focusing on their investment patterns, risk tolerance, and decision-making processes. The survey included questions designed to identify common cognitive biases, such as overconfidence, herd behavior, loss aversion, and confirmation bias.

In addition to surveys, qualitative data were gathered through semi-structured interviews with selected investors to gain deeper insights into their thought processes, motivations, and strategies when making cryptocurrency investments. This combination of quantitative and qualitative data allows for a comprehensive analysis of both observable behaviors and the psychological factors underlying investment decisions.

Data analysis involved statistical methods to identify correlations between specific cognitive biases and investment outcomes, as well as thematic analysis of interview responses to highlight patterns and recurring decision-making heuristics. The study also incorporated a review of existing literature on behavioral finance and cryptocurrency markets to contextualize the findings and compare them with previous research.

Additionally, the methodological framework of the study was designed to ensure both depth and rigor. Quantitative data were processed using multivariate regression models to examine not only simple correlations but also the predictive strength of various cognitive biases on investment performance across different market conditions. This approach allowed the study to assess whether biases such as overconfidence, loss aversion, herd behavior, and confirmation bias had varying impacts during periods of market volatility compared to more stable phases.

On the qualitative side, interview transcripts were coded using an inductive approach, ensuring that emerging themes were grounded in participant perspectives rather than predefined categories. The thematic clusters identified – such as emotional triggers, reliance on social media signals, trust in algorithmic platforms, and perceived risk tolerance – provided valuable insights into the psychological mechanisms shaping investor behavior. These qualitative findings complemented the statistical results by offering richer explanations for observed patterns (Williams, Brown, 2025; Khan, Ahmed, 2024; Li, Wang, 2024; Li, Zang, 2017).

The integration of mixed-methods analysis significantly strengthened the study's validity. By triangulating quantitative findings, qualitative insights, and existing academic literature, the research was able to develop a more holistic understanding of behavioral drivers in cryptocurrency investment. This comparative approach also highlighted areas where current investor behavior diverges from traditional financial theories, particularly in environments characterized by high uncertainty, rapid technological change, and limited regulatory oversight.

## Conclusion

Cognitive biases significantly shape investor behavior in the cryptocurrency market, which is characterized by high volatility, uncertainty, and speculative trading. This study demonstrates that biases such as overconfidence, herd behavior, loss aversion, and confirmation bias can strongly influence investment decisions, affecting portfolio choices, timing of trades, and risk assessment. These biases often lead investors to deviate from rational decision-making, resulting in suboptimal financial outcomes, excessive risk-taking, and contributing to market phenomena such as rapid price surges and sudden crashes (Sattar, Toseef, Sattar, 2020; Kumar, Sharma, 2023).

The findings underscore the importance of understanding the psychological foundations of investor behavior. By recognizing the influence of cognitive biases, investors can develop strategies to mitigate their effects, including structured decision-making frameworks, analytical tools, and

reflective investment practices. Moreover, educational interventions and awareness programs can equip investors with the knowledge to identify common cognitive errors and make more disciplined and informed decisions.

The study also highlights the broader implications for market stability and efficiency. Since cryptocurrency markets are largely driven by sentiment and social influence, collective biases can amplify volatility and create systemic risks. By integrating behavioral insights into regulatory policies, platform design, and risk management strategies, stakeholders can promote a more transparent, stable, and resilient market environment.

Furthermore, understanding cognitive biases enables investors to design strategies that reduce emotional decision-making and improve long-term portfolio performance. Financial platforms and advisory services can leverage these insights to offer tools that alert investors to potential bias-driven errors. Educational programs that emphasize behavioral awareness can empower both novice and experienced investors to make more rational choices. Regulators can also benefit from these findings by developing policies that enhance market transparency and protect investors from systematic psychological pitfalls. Ultimately, incorporating behavioral finance principles into cryptocurrency investing promotes not only individual success but also the overall stability and maturity of the emerging digital asset market.

## References

1. Chen, L., Zhou, Q. (2017). *Asymmetric return rates and wealth distribution influenced by the introduction of technical analysis into a behavioral agent-based model.*
2. Johnson, K., Lee, S. (2025). *Cognitive biases at play? Insights from a Bayesian game framework.*
3. Khan, A., Ahmed, S. (2024). Impact of behavioral biases on investment decisions and the moderation effect of financial literacy: Evidence from Pakistan. *Journal of Behavioral and Experimental Finance,* 34, 100750.
4. Kumar, P., Sharma, R. (2023). Behavioral finance: Understanding investor behavior and market anomalies. *Academy of Accounting and Financial Studies Journal,* 27(5), 1-15.
5. Li, J., Wang, H. (2024). Behavioral risk management in investment strategies: Analyzing investor psychology. *Finance Research Letters,* 51, 103512.
6. Li, X., Zhang, Y. (2017). *Tales of emotion and stock in China: Volatility, causality and prediction.*
7. Roberts, T., Nguyen, P. (2025). Trading psychology under pressure: Cognitive bias evolution in a simulated bear market. *International Journal of Financial Behavioral Studies,* 12(2), 55-70.
8. Shefrin, H. (2007). *Behavioral Corporate Finance*. McGraw-Hill.
9. Shefrin, H. (2002). *Beyond Greed and Fear: Understanding Behavioral Finance and the Psychology of Investing*. Oxford University Press.
10. Sattar, M.A., Toseef, M., Sattar, M.F. (2020). Behavioral Finance Biases in Investment Decision Making. *International Journal of Accounting and Financial Reporting,* 10(2), 45-63.
11. Smith, S., Torres, P., Mitchell, J., Greene, R. (2023). Behavioral Finance and Investment Decisions. *International Journal of Management Studies,* 15(1), 101-120.
12. Thaler, R.H. (2015). *Misbehaving: The making of behavioral economics*. W. W. Norton & Company.
13. Yıldırım, M., Kaya, F. (2025). The effects of behavioral biases on investment decisions: The stock exchange Istanbul sample. *Journal of Economic Studies,* 52(3), 412-430.
14. Williams, D., Brown, J. (2025). Behavioral finance and investor psychology: Examining the role of cognitive biases in stock market fluctuations. *Academy of Accounting and Financial Studies Journal,* 29(2), 1-18.

Received: 04.09.2025
Approved: 11.12.2025

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/53/125-130

**Zeynəb Novruzova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
https://orcid.org/0000-0001-6185-792X
zeynab.novruzova@azmiu.edu.az

## Xəzər dənizinin külək və dalğa rejiminin təhlili

### Xülasə

Dünyanın ən böyük qapalı daxili su hövzəsi olan Xəzər dənizi, hidrodinamik proseslərində mühüm rol oynayan mürəkkəb külək və dalğa rejimlərinə malikdir. Küləklə idarə olunan dalğalar sahil dinamikasına, çöküntü daşınmasına, dəniz infrastrukturunun sabitliyinə və ekoloji şəraitə əhəmiyyətli dərəcədə təsir göstərir. Xəzər dənizi üzərindəki külək modellərinin məkan və zaman dəyişkənliyi regional atmosfer dövranı, mövsümi iqlim amilləri və hövzənin uzanan həndəsəsi ilə idarə olunur və nəticədə şimal, orta və cənub alt hövzələrində fərqli dalğa xüsusiyyətləri yaranır. Bu tədqiqatda dominant külək istiqamətlərini, dalğa hündürlüklərini və mövsümi dəyişkənliyi müəyyən etmək üçün meteoroloji və okeanoqrafik məlumatlardan istifadə edərək Xəzər dənizinin külək və dalğa rejimləri təhlil edilir. Dalğaların inkişafına uzunluq, su dərinliyi və batimetrik şəraitin təsirinə xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *Xəzər dənizi, iqlim dəyişikliyi, səth küləyi, dalğa rejimi, hidrodinamik proseslər*

**Zeynab Novruzova**
Azerbaijan University of Architecture and Construction
https://orcid.org/0000-0001-6185-792X
zeynab.novruzova@azmiu.edu.az

## Analysis of the Wind and Wave Regime of the Caspian Sea

### Abstract

The Caspian Sea, the world's largest enclosed inland water body, is characterized by complex wind and wave regimes that play a significant role in its hydrodynamic processes. Wind-driven waves significantly influence coastal dynamics, sediment transport, the stability of offshore infrastructure, and environmental conditions. Spatial and temporal variability of wind regimes over the Caspian Sea is determined by regional atmospheric circulation, seasonal climatic factors, and the elongated geometry of the basin, resulting in different wave characteristics in the northern, central, and southern sub-basins. This study analyzes the wind and wave regimes of the Caspian Sea using meteorological and oceanographic data to determine prevailing wind directions, wave heights, and seasonal variability. Particular attention is given to the influence of longitude, water depth, and bathymetric conditions on wave development.

***Keywords:*** *Caspian Sea, climate change, surface wind, wave regime, hydrodynamic processes*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 12 / 125-130 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 12 / 125-130 e-ISSN: 2789-6919

## Giriş

Xəzər dənizi şimaldan mülayim, cənubdan isə subtropik iqlim qurşaqlarında yerləşən qapalı su hövzəsidir. Dəniz və quru səthləri arasında temperatur fərqləri yerli əhəmiyyətli küləkləri yaradır. Dalğanın hündürlüyünə təsir edən amillər əsasən aşağıdakılardır:

Küləyin sürəti, küləyin əsmə müddəti, küləyin əsdiyi məsafə, suyun dərinliyi. İqlim və relyefdən asılı olaraq külək rejiminə təsir edən iki əsas amil mövcuddur;

1. Böyük Qafqaz və Orta Asiyadan əsən küləklər;
2. Qərb və cənub-qərbdən axan hava kütlələrinin Xəzər üzərində paylanması.

**Tədqiqat**

Mövsümü olaraq qışda yer üzərində soyumuş hava kütlələri nisbətən isti dəniz hava kütlələri ilə mübadilə edir və bu da küləyin intensivliyini artırır. Mövsümü olaraq ələ aldıqda noyabr - mart ayları arasında şimal-şərq və şərq (Sibir antisiklonları) külələri əsir, küləyin orta sürəti 8-12 m/s, maksimum sürəti isə 20-25 m/s təşkil edir (Safarov və başqaları, 2018). Bu zaman dalğaların hündürlüyü 4-6 m təşkil edir (Şəkil 1). Oktyabr-aprel aylarında İran yaylasından qərb və cənub-qərb küləkləri isti-quru hava axınları gətirir. Bu zaman 5-8 m/s sürətlə əsən külək 1-3 m arası dalğaları əmələ gətirir.




**Şəkil 1.** Dəniz səthində dalğa hündürlüklərinin lokal xarakterizəsi

Şimali Xəzərdə orta dərinliyin 5m olması əsən küləklərin xüsusi ilə qışda dəniz səthindəki buzları qıraraq kəsilmələr ilə yayılır. Orta və cənubi Xəzərdə dərinlik daha yüksəkdir və güclü əsən küləklər dalğaların dərinliyini 10 m-lərə qədər endirir (Safarov və başqaları, 2017). Cənubda Elbrus dağları dalğanın bir istiqamət boyu yayılmasına təsir edir. Burada küləklər daha ekstremal nəticələr yaradır.

Dəniz dibinin hündürlüyü və əsən küləklərin sürəti və intensivliyi Xəzərdə dalğa yaranmasının əsas səbəblərindəndir (Safarov və başqaları, 2018). Bildiyimiz kimi, Xəzər bir çox səbəbdən üç hissəyə bölünür. Əlbəttə, dalğaların hündürlüyü, intensivliyi və yayılma imkanları bu üç Xəzər hövzəsində fərqliliklə izlənir. Şimali Xəzərdə dayazlıq və səthi buz dalğaları tez-tez qırır.

Hövzədə əsən küləklərin sürəti və istiqaməti ilin dövrlərindən asılı olaraq sutkalıq, mövsümlük, illik olaraq dəyişir. Şərq küləkləri əsasən Sibir, Orta Asiya Antisiklonlarının və soyuq Arktik havanın qarışması ilə yaranır. Qərb küləkləri Avropanın cənubundan, Qara dənizdən, Azor maksi-

mumundan (yüksək təzyiq) keçir. Bu qərb küləklərinin orta illik təkrarlanma rejimi 76 gün davam edir. Şərq küləklərinin orta illik təkrarlanma rejimi isə 61 gündən ibarətdir. Əlavə olaraq qeyd etmək olar ki, mövsümlə əlaqədar olaraq şimal-qərb küləkləri 43 gün, cənub-qərb küləkləri isə 28 gün təkrarlanır (Gholami və başqaları, 2010). Məlumdur ki, küləyin istiqaməti və sürəti fəsillərdən asılı olaraq dəyişiklik göstərir. Qış aylarında qərb və şimal-qərb küləkləri, yay aylarında isə şərq, qərb, cənub-qərb, şimal-qərb küləklərinin təkrarlanması səciyyəvidir.

Sutka ərzində əsən küləyin sürəti saat 12-20 radələrində daha intensiv, axşam və səhər isə minimum sürətdə əsdiyi izlənmişdir (Mammadov və başqaları, 2009). Tədqiqatlar göstərir ki, il boyu küləksiz günlərin sayı təqribi 44 gün təşkil edir. Mövsüm üzrə küləyin paylanması qeyri-bərabərdir. Noyabr ayında küləksiz günlərin sayı 6 gün təşkil edir. Qərb küləklərinin təkrarlanması 159 gün təşkil edir. Ümumən bu cür təkrarlanan küləklərin tədqiqi göstərmişdir ki, gecə saatlarında qərb küləkləri, 12-19 radələrində isə şərq küləklərinin təkrarlanması üstünlük təşkil edir. Əsasən küləyin davamlılığı 6-60 saat, axım sürəti isə 2-25 m/s arasında dəyişir (Levyant və başqaları, 1994).

| Fəsil | Əsas küləklər | Səbəbi |
|---|---|---|
| Qış | Şimal, Ş-Şərq (25 m/s-ə kimi) | Sibir antisiklonu, İran siklonu |
| Payız - Yaz | Qərb, Cənub-Qərb | İran yaylası təsiri, isti hava axınları |
| Yay | Nisbətən zəif küləklər | Temperatur sabitliyi, dəniz brizləri |

Soyuq hava kütlələri Qara dənizdən Xəzər hövzəsinə güclü küləklərlə müşahidə edilir. Güclü küləklərin sayı il ərzində təqribən 26 gün davam edir (Mammadov və başqaları, 2009). Soyuq atmosfer cəbhəsi Qərbi Gürcüstana daxil olarkən şimal-qərbi Xəzərdə atmosfer təzyiqini aşağı düşürür (Chen və başqaları, 2017). Bu zaman soyuq cəbhənin arxasındakı atmosfer təzyiqi sürətlə artaraq barik qradiyenti artırır.

Bəzən anidən və qısa müddət ərzində çıxan şərq küləklərinin sinoptik səbəbi Abşeron yarımadasında aşağı qradientli barik sahənin, şimali Xəzər üzərində üzərində yüksək atmosfer təzyiqinin, Qara dəniz üzərində isə alçaq təzyiq zonalarının olmasıdır. Küləklərin sürəti Xəzər hövzəsində illik 3- 40 m/s arasında dəyişir (Panin və başqaları, 2015). Ən güclü küləklər şimal və şimal-qərb istiqamətində əsir. Küləklərin aktiv olma müddəti bir neçə sutka davam edə bilər. Bir çox hallarda Xəzər dənizi üzərində şimal istiqamətindən ≈ 25 m/s küləklər əsir. Bu zaman Xəzər dənizində dalğaların hündürlüyü 10 m-ə çatır. Burada nəzərə alınmalıdır ki, dənizin dərinliyi artdıqca dalğa hündürlüyü də artır. Bu isə dalğa rejimində də regional fərqlərin yaranmasına səbəb olur.




**Şəkil 2**. Abşeron sahilində küləyin orta aylıq/illik göstəriciləri

Xəzər dənizində müxtəlif sürətlə yerli küləklərin əmələ gəlməsinin əsas səbəbləri hövzənin relyefi, coğrafi yeri, səth örtüyünün isinməsi, dəniz hövzəsinin yeri və oroqrafiyadır. Xəzər dənizində istilik konveksiyası ekosistemin öyrənilməsi üçün çox vacibdir. Bu prosesin öyrənilməsi regional ekoloji tarazlıqda mühüm rol oynayır.

Termal konveksiya temperatur fərqləri nəticəsində maye və qazların şaquli hərəkəti səbəbindən baş verir. Bu, soyudulmuş səth sularının batmasına və isti suların qalxmasına səbəb olur. Termal konveksiya sayəsində soyudulmuş və ağır su hövzənin dərinliklərini oksigenlə doyurur ki, bu da dib ekosisteminə müsbət təsir göstərir. Qışda baş verən konveksiya dərin sularda oksigen səviyyəsinin intensiv saxlanmasına kömək edir. Bu, balıqçılıq üçün vacib amildir. Yayda zəifləyən konveksiya hövzənin dərin təbəqələrində çirkləndirici maddələrin toplanmasına səbəb olur (Lyubushin və başqaları, 2004).

Külək və buxar şəraitinin Xəzər dənizinə digər təsiri atmosfer çöküntüləridir. Atmosfer yağıntıları küləyin daşıdığı və Xəzər dənizində çökən hissəciklərdən ibarətdir. Bu hissəciklər iki mənbədən qaynaqlanır: təbii və antropogen. Təbii mənbələrə Qaraqum və Qızılqum kimi səhralardan gələn toz hissəcikləri, vulkanik kül, bitki tozu və Xəzər dənizi ətrafındakı quraq bölgələrdən daşınan digər aerozollar daxildir. Antropogen mənbələrə sənaye tullantıları, kənd təsərrüfatı pestisidləri və mikroplastikləri, ağır metallar, şəhər tullantıları və s. daxildir. Bunlar Xəzər dənizinin biogen quruluşuna təsir göstərir, məhsuldarlığı azaldır, dəniz suyunun keyfiyyətini pisləşdirir və təbii mühiti təhdid edir.

Xəzər dənizində atmosfer yağıntıları külək modellərindən, mənbələrdən və coğrafi mövqedən (səhralara, çay deltalarına, sənayeyə və şəhərlərə yaxınlıq) asılı olaraq qeyri-bərabər paylanır. Ən çox yağıntı miqdarı Xəzər dənizinin cənub-qərb hissəsindədir. Bu, təbii amillərlə bağlıdır. Bunlara İran yaylasından və Ərəbistan yarımadasından Gilavar küləkləri tərəfindən daşınan toz aerozolları, eləcə də bölgədəki iri sənaye şəhərləri tərəfindən yayılan zəhərli tullantılar ($SO_2$, $NO_2$, ağır metallar və s.) daxildir (Matishov və başqaları, 2014). Burada illik atmosfer yağıntısı təxminən 200-400 kq/ha təşkil edir. Şimali Xəzərdə Qazaxıstan və Özbəkistan səhralarından Xəzri küləkləri tərəfindən daşınan toz hissəcikləri atmosfer yağıntılarının əmələ gəlməsində mühüm rol oynayır. Burada çökən hissəciklərin miqdarı 150-300 kq/ha təşkil edir (Yaitskaya, 2016). Xəzər hövzəsinin şərq hissəsindəki neft və qaz hasilatı sahələrindən və Türkmənistan səhralarından qalxan toz və aerozol hissəciklərinin orta illik atmosfer yağıntısı 100-250 kq/ha təşkil edir (Yaitskaya, 2015).

Quru yaz və yay küləkləri toz çöküntüsünü artırır və onu daha geniş ərazilərə aparır. Burada ən əhəmiyyətli mənfi cəhət neft və qaz emalı zamanı əmələ gələn karbon hissəciklərinin daha da irəli aparılması və antropogen atmosfer çöküntüsünü artırmasıdır (Berdnikov, 2013). Ümumilikdə, küləyin Xəzər dənizinə həm mənfi, həm də müsbət təsir göstərdiyini demək olar. Tədqiq edilməli, öyrənilməli, azaldılmalı və zəruri hallarda dayandırılmalı olan bu mənfi cəhətləri aşağıdakı kimi ümumiləşdirmək olar:

